Xalqın qəzeti!

# Xalq qəzeti

№ 182 (30876) 29 avqust 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Avropa İttifaqı Azərbaycan – Ermənistan sülh razılaşmasını dəstəkləyir

## Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrononu qəbul edib.**

Maqdalena Qrono Avropa İttifaqının rəhbərliyinin salamlarını dövlətimizin başçısına çatdırıb, Azərbaycan Prezidentini Avropa İttifaqının rəhbərliyi və öz adından Vaşinqtonda Ermənistanla münasibətlərin normallaşdırılması, sülh gündəliyi ilə bağlı əldə edilmiş mühüm nəticələr münasibətilə təbrik edib. O, bu prosesin regionda davamlı sülhün təmin olunmasına böyük töhfə verdiyini vurğulayıb. Qonaq Avropa İttifaqına üzv dövlətlərin də Azərbaycanla Ermənistan arasında əldə olunmuş sülhü dəstəklədiklərini bildirib. Maqdalena Qrono, həmçinin Avropa İttifaqının iki ölkə arasında razılaşdırılmış məsələlərin, o cümlədən nəqliyyat dəhlizinin həyata keçirilməsi prosesinə dəstək verməyə hazır olduğunu qeyd edib.

Prezident İlham Əliyev salamlara və təbriklərə görə minnətdarlığını bildirib, onun da salamlarını Avropa İttifaqının rəhbərliyinə çatdırmağı xahiş edib.

Dövlətimizin başçısı Vaşinqtonda əldə olunan nəticələrin tarixi əhəmiyyət kəsb etdiyini deyərək, bu prosesdə Amerika Birləşmiş Ştatlarının rolunu xüsusi vurğulayıb. Prezident İlham Əliyev qeyd edib ki, ABŞ-ın vasitəçiliyi ilə imzalanmış Vaşinqton bəyannaməsi, sülh sazişinin paraflanması və Minsk qrupunun ləğv edilməsi ilə bağlı Azərbaycan və Ermənistanın birgə müraciəti sülh prosesində atılan mühüm addımlardır.

Görüşdə ölkəmizin Ermənistanla ikitərəfli əsasda etimad quruculuğu tədbirlərini dəstəklədiyi qeyd olunub. Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında maneəsiz nəqliyyat və tranzit bağlantısının yaradılmasının vacibliyi bir daha vurğulanıb, xüsusilə Naxçıvanda nəqliyyat infrastrukturunun yenilənməsi istiqamətində Avropa İttifaqı ilə əməkdaşlıq üçün geniş imkanların olduğu bildirilib.

Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

*AZƏRTAC*

## Azərbaycan – Ermənistan: sülh müqaviləsinə ehtiyac var!



Səhifə ⇨ 4

## Diplomatiya qrossmeysterinin hər gedişi “Şah” deyir




Səhifə ⇨ 3

## Azərbaycanın inanc azadlığı və məzhəb vəhdəti örnəyi

***Ölkəmiz İslam dünyasında dini həmrəylik yaratmağı bacaran yeganə ölkə kimi tanınır***



**Azərbaycan Prezidenti İlham Əliyevin “Əl-Ərəbiyyə” telekanalına müsahibəsində toxunduğu vacib məsələlərdən biri də bu gün müsəlman dünyasının üzləşdiyi ən ciddi problemlərdən biri olan məzhəbçilik və təriqətçilik təmayülləridir.**

Həm ölkəmiz, həm də müsəlman dünyası üçün önəmli mesajlar verən dövlətimizin başçısının dedikləri bugünkü reallıqları, milli həmrəyliyi və dövlətçilik fəlsəfəsinin mahiyyətini əks etdirir: “Azərbaycan şiə və sünni müsəlmanların eyni vaxtda, eyni məsciddə ibadət etdikləri az sayda ölkələrdən biridir. Biz fərq qoymuruq. Biz düşünürük ki, müsəlman dünyası üçün ən böyük təhlükə məzhəblərə ayrılmaqdır. Müsəlman dünyasına ən böyük ziyanı məzhəb ayrılığını təbliğ edən insanlar vururlar. Biz bir olmalıyıq. Biz müsəlmanıq və bizim üçün bir nömrəli məsələ budur. İstənilən xarici müdaxilədən tamamilə azadıq. Çünki biz təkcə dəyərlərimizi təbliğ etmirdik, biz, həmçinin ideoloji cəhətdən özümüzü istənilən növ müdaxilədən, müsəlmanlar arasına nifrət toxumu səpmək cəhdlərindən qorumalı idik. Bu, müsəlman dünyasında yüksək qiymətləndirilir”.

**(ardı 3-cü səhifədə)**

İranın Zəngəzur narahatlığı:

## Gerçək səbəblər və regional maraqlar




**Son illər Azərbaycan və İran arasında münasibətlər yeni və daha məhsuldar mərhələyə qədəm qoyub. İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana etdiyi səfərlər, xüsusilə onun Qarabağda keçirilən tədbirdə iştirakı bu iki ölkə arasında əlaqələrin daha müsbət istiqamətdə inkişaf etdiyini göstərir. Bu səfərlər yalnız rəsmi protokolla məhdudlaşmır, həm də birgə layihələrin təşviqi baxımından əhəmiyyət daşıyır. Hazırda nəqliyyat, energetika və sərhəd ticarəti sahələrində konkret təşəbbüslərin müzakirəsi bu əməkdaşlığın praktiki mərhələyə keçdiyini göstərir.**

**(ardı 6-cı səhifədə)**

## “Hacıkənd” Qafqaz ulduzu olacaq



Səhifə ⇨ 9

## AİB ölkəmizin dayanıqlı inkişaf üzrə strateji tərəfdaşıdır




Səhifə ⇨ 7

## Aman tıxac əlindən...



Səhifə ⇨ 8

## ABŞ Ukraynaya dəstəyi artıracaqmı?



**“Financial Times”ın məlumatına görə, Vaşinqton Avropa müttəfiqlərinə Ukraynaya təhlükəsizlik zəmanətləri ilə bağlı daha geniş dəstək verməyə hazırdır. ABŞ-ın yeni yanaşması kəşfiyyat, müşahidə imkanlarının paylaşılmasını, həmçinin hava məkanının qorunması üçün idarəetmə və nəzarət strukturlarında texniki yardım göstərilməsini nəzərdə tutur. Bu, analitiklərin fikrincə, Amerikanın əvvəlki ehtiyatlı mövqeyindən ciddi uzaqlaşmanı göstərir və münaqişənin regional deyil, qlobal təhlükəsizlik müstəvisində qiymətləndirildiyini ortaya qoyur.**

**(ardı 11-ci səhifədə)**

## "İşğaldan azad olunmuş ərazilərdə şəhərsalma məsələləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 avqust tarixli 1423 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "İşğaldan azad olunmuş ərazilərdə şəhərsalma məsələləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 avqust tarixli 1423 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 8, maddə 915 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissədə "Ağdam" sözü "Xankəndi şəhərinin, Ağdam, Ağdərə" sözləri ilə əvəz edilsin;

1.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi haqqında Əsasnamə"nin 1.5-ci bəndində "Bərdə" sözü "Xankəndi" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 avqust 2025-ci il**

## Azərbaycan–Avropa İttifaqı əməkdaşlığının perspektivləri



**Avqustun 28-də xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono ilə görüşüb.**

Görüş zamanı Azərbaycan–Avropa İttifaqı əməkdaşlığının hazırkı vəziyyəti və perspektivləri, Azərbaycan–Ermənistan normallaşma prosesi, habelə regional və beynəlxalq məsələlər müzakirə olunub. Azərbaycan və Aİ arasında iqtisadi, ticarət, nəqliyyat, enerji təhlükəsizliyi, yaşıl enerji, humanitar və sair istiqamətlər üzrə əməkdaşlıq məsələləri nəzərdən keçirilib. İki tərəf arasında yüksək səviyyədə təmasların məmnunluq doğurduğu, dialoqun davam etdirilməsinin vacibliyi vurğulanıb.

Avropa İttifaqının xüsusi nümayəndəsi Azərbaycan Prezidentinin ABŞ-a səfəri zamanı keçirilmiş Zirvə görüşü çərçivəsində Azərbaycan–Ermənistan normallaşma prosesində nailiyyətlər münasibətilə təbriklərini çatdırıb. Avropa İttifaqının sülh prosesinə müxtəlif istiqamətlərdə dəstək verməyə hazır olduğunu bildirib.

Ceyhun Bayramov öz növbəsində Vaşinqton sammiti zamanı əldə edilmiş tarixi razılıqlar, Azərbaycan-Ermənistan normallaşma və sülh prosesi üzrə əldə olunan irəliləyişlər və perspektivlər barədə qarşı tərəfə məlumat verib.

*XQ*

## Azərbaycan səfiri etimadnaməsini Venesuela Prezidentinə təqdim edib



**Azərbaycanın Venesuela Bolivar Respublikasındakı səfiri Ruslan Rzayev etimadnaməsini bu ölkənin Prezidenti Nikolas Maduroya təqdim edib.**

Venesuela Prezidenti ilə söhbət zamanı səfir R.Rzayev Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını ona çatdırıb. Dövlətimizin başçısının salamlarına görə minnətdarlığını bildirən Venesuela Prezidenti öz növbəsində onun da salamlarını Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib.

Görüşdə, həmçinin ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafı, beynəlxalq təşkilatlar çərçivəsində, xüsusilə hər iki ölkənin Qoşulmama Hərəkatına sədrliyi dövründəki uğurlu əməkdaşlığın davam etdirilməsi, eyni zamanda, iqtisadi, ticari, enerji, turizm və digər sahələrdə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

*XQ*

# Leyla Əliyeva körpələr evi-uşaq bağçalarının açılışında

**Avqustun 28-də Heydər Əliyev Fondu tərəfindən Şamaxının İkinci Cabanı və Böyük Xınıslı kəndlərində inşa olunan körpələr evi-uşaq bağçalarının açılışı olub. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva açılışda iştirak edib.**



Leyla Əliyeva körpələr evi-uşaq bağçalarının otaqları ilə tanış olub, uşaqlar üçün yaradılan şəraitə baxış keçirib.

Bildirilib ki, hər iki bağça kəndlərin mərkəzində yerləşir. Müasir və tam təchizatlı körpələr evi-uşaq bağçalarında balacalar üçün yataq və oyun otaqları, idman və musiqi zalları, tibb otağı, yeməkxana və digər inzibati, texniki otaqlar mövcuddur. Məktəbəqədər təhsil müəssisələri zəruri mebel və avadanlıqlarla tam təchiz edilib. Bağçaların həyətyanı ərazilərində yaşıllaşdırma işləri aparılıb, uşaq əyləncə qurğuları quraşdırılıb.







İkinci Cabanı kənd körpələr evi-uşaq bağçasının rəhbəri Töfə Bəşirova jurnalistlərə açıqlamasında bildirib ki, bağça 41 ildir fəaliyyət göstərsə də, heç vaxt bu cür şərait olmayıb: "Köhnə bağça yararsız vəziyyətə düşdüyündən fərdi evdə fəaliyyət göstərirdik. Heydər Əliyev Fonduna müraciət etdik, qısa müddət ərzində yeni bağça inşa olunub təhvil verildi. Sabahdan yeni bağçada uşaqları qəbul edə biləcəyik. Yeni bağçada 1-3, 4-6 yaş arasında qruplar fəaliyyət göstərəcək. Qonşu kəndlərdən də bağçamıza müraciətlər var. Uşaqlarımız üçün yaradılan şəraitə görə Heydər Əliyev Fonduna dərin minnətdarlığımızı bildiririk".

Leyla Əliyeva daha sonra Şamaxıda və Ağsuda bir neçə ailəni ziyarət edib.

*XQ*

## Milli Məclis komissiyası vətəndaşları ayıq-sayıq olmağa çağırıb










**Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyası ölkəmizə qarşı davam edən informasiya kampaniyasına dair açıqlama yayıb.**

Komissiya bildirir ki, "Facebook" sosial media və sosial şəbəkə platformasının Azərbaycan seqmentində qonşu dövlətlərdən birinin ərazisindən ölkəmizə qarşı aparılan informasiya kampaniyası avqust ayı ərzində də davam edib.

Dezinformativ xarakterli və təxribatçı fikirləri əks etdirən kampaniya vahid mərkəzdən idarə olunmaqla yeni yaradılmış "Caspian Xəbər", "Caspian Times", "İşıq Media", "Pro Eminent Guild", "Next Azerbaijan" və sair bu kimi səhifələr vasitəsilə həyata keçirilib.

Qeyd edilib ki, bu cür müdaxilə cəhdlərinin qarşısı aidiyyəti dövlət qurumları ilə birgə fəaliyyət nəticəsində müvəffəqiyyətlə alınıb.

*XQ*

# Azərbaycanlı itkinlərin taleyi BMT komitəsində müzakirə edilib

**Dünən Cenevrədə "Qarabağ İtkin Ailələri" İctimai Birliyinin təmsilçiləri ilə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Məcburi Yoxaçıxmalar üzrə Komitəsinin Katibliyinin görüşü keçirilib.**

Söhbət zamanı "Qarabağ İtkin Ailələri" İctimai Birliyinin sədri Könül Behbudova Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində 3 min 990 nəfər Azərbaycan vətəndaşının itkin düşdüyünü, onlardan 6 nəfərinin 2020-ci ildə 44 günlük müharibə zamanı itkin düşdüyünü diqqətə çatdırıb. Onların içərisində 71 nəfər uşaq, 284 nəfər qadın, 316 nəfər ahıl şəxs olub. O, "Qarabağ İtkin Ailələri" İctimai Birliyinin Azərbaycanda itkin ailələrini sıralarında birləşdirdiyini qeyd edərək, BMT-nin, Beynəlxalq Qırmızı Xaç Komitəsinin azərbaycanlı itkinlərin taleyinə aydınlıq gətirilməsi üçün səyləri artırmasının vacibliyini bildirib, onları itkin düşmüş Azərbaycan vətəndaşları barədə məlumatları təqdim etməsi üçün Ermənistana çağırış etməyə səsləyib. məlumat almaq haqqı birmənalı şəkildə tanınır. Biz hüquqlarımıza hörmətlə yanaşılmasını istəyirik".

Görüşdə itkin düşmüş soydaşlarımızdan İlham Dadaşovun anası Elmira Dadaşova, Şahin Əliyevin anası Mahuru Şahin, Azad Cabbarovun həyat yoldaşı Fəridə Cabbarova, Səxavət Canıyevin həyat yoldaşı Reyhan Canıyeva, Oqtay Məmmədovun həyat yoldaşı Pərvanə Məmmədova və "Qarabağ İtkin Ailələri" İctimai Birliyinin digər təmsilçiləri təəssüflə qeyd ediblər ki, Ermənistanda Azərbaycana qarşı müharibə cinayətləri törətmiş şəxslərdən hələ bir nəfər belə məsuliyyətə cəlb olunmayıb, əksinə, müxtəlif vaxtlarda Ermənistan cəmiyyətində onlar saxta qəhrəmanlara çevrilib.



Diqqətə çatdırılıb ki, I Qarabağ müharibəsində 61 ailənin 2-dən 7-dək üzvü itkin düşüb, heç birinin aqibəti bilinmir. Ötən 5 ildə işğaldan azad edilmiş ərazilərdə 28 kütləvi məzar edilib. "Qarabağ İtkin Ailələri" İctimai Birliyi tələb edib ki, Ermənistan kütləvi məzarlıqlarla əlaqədar xəritələri Azərbaycan tərəfinə təqdim etməlidir.

Görüş zamanı itkin ailələri Beynəlxalq Qırmızı Xaç Komitəsində onların doğmalarından xəbər gətirəcəyinə inamlarının ciddi zədələndiyini qeyd ediblər. Bu görüş "Qarabağ İtkin Ailələri" İctimai Birliyinin müraciətlərinə BMT səviyyəsində baxılmasına dair ilk haldır.

*XQ*

# Diplomatiya qrossmeysterinin hər gedişi “Şah” deyir

## *İlham Əliyevin diplomatik uğurlarının coğrafiyası sərhəd tanımır*

**Diplomatiya çox vaxt şahmatla müqayisə olunur. Burada hər bir gediş əvvəlcədən ölçülüb-biçilmiş olmalıdır, əks halda oyunçu ya öz mövqeyini itirə, ya da rəqibin tələsinə düşə bilər. Azərbaycan Prezidentinin diplomatiya üslubu isə daha çox “qrossmeyster səviyyəsi” ilə xarakterizə olunur. Çünki İlham Əliyevin hər çıxışı, hər beynəlxalq addımı yalnız qısamüddətli nəticə deyil, həm də strateji uzunmüddətli təsirlər üzərində qurulur.**




Burada maraqlı bir sual ortaya çıxır: dövlət başçısı üçün diplomatiyada qrossmeystr olmaq nə deməkdir və hansı bacarıqlar olmadan bu səviyyəyə çatmaq mümkün deyil? Burada güclü daxili legitimlik, beynəlxalq mexanizmlərə dərindən bələdlik, sərtliklə çevikliyi tarazlaşdırmaq və uzunmüddətli strateji baxış tələb olunur. İlham Əliyevin siyasi portreti isə göstərir ki, bu bacarıqlar sistemli şəkildə bir araya gətirilib, nəticədə hər gediş öz təsirini maksimum səviyyədə göstərir.

Prezident İlham Əliyevin “Əl-Ərəbiyyə” kanalına verdiyi müsahibə Azərbaycanın diplomatik strategiyasının canlı nümunəsi idi. Müsahibə vasitəsilə həm regional, həm də qlobal auditoriyaya ünvanlanmış bir neçə paralel mesaj verildi, eyni zamanda daxili ictimaiyyət üçün etimad və güvən artırıldı. Burada əsas məqam ondan ibarət idi ki, İlham Əliyev suallara cavab verməklə yanaşı, diskursu özü müəyyənləşdirirdi. Zəngəzur dəhlizi, sülh müqaviləsi, Ermənistan konstitusiyasında revanşist müddəalar və beynəlxalq zəmanətlər kimi məsələlər elə təqdim olunurdu ki, Azərbaycanın mövqeyi alternativsiz həll kimi görünürdü. Bir tərəfdən, müsahibə regiona mesaj idi: Ermənistanın qeyri-sabit davranışları və sülhdən qaçışı fonunda Azərbaycan konstruktiv tərəf kimi ortaya çıxır, sülh və inteqrasiya gündəliyini təqdim edirdi. Digər tərəfdən, qlobal güclərə yönəlmiş dolaylı siqnallar vardı: ABŞ, Avropa İttifaqı, Rusiya Azərbaycanın əməkdaşlığa açıq olduğunu görür, lakin suverenlikdən heç bir güzəşt olmayacağını anlayır.

Bəs nə üçün Prezident beynəlxalq tribuna kimi məhz “Əl-Ərəbiyyə”ni seçdi? Çünki ərəb dünyası Azərbaycanın enerji və iqtisadi siyasətində mühüm tərəfdaşdır, bu kanal vasitəsilə mesaj həm Şərqə, həm də Qərbə eyni anda çatdırıldı. Nəticədə, Azərbaycan qlobal aktor statusunda da mövqeyini təsdiqlədi. Eyni zamanda, müsahibə daxili auditoriya üçün də çox vacib idi. Azərbaycan vətəndaşları dövlət başçısının beynəlxalq səhnədə inamlı və qətiyyətli danışığını gördükcə həm milli birliyi, həm də etimadı gücləndirirdi. Buradan aydın olur ki, diplomatiya yalnız xarici siyasət aləti deyil, eyni zamanda, daxili güvəni möhkəmləndirən strategiyadır.

*

Diplomatiyada uğurun ən incə tərəflərindən biri yalnız arqumentləri səsləndirmək deyil, onları elə bir çərçivədə təqdim etməkdir ki, nəticə labüd və məntiqli görünsün. İlham Əliyevin müsahibəsində nümayiş etdirdiyi ustalıq məhz bundan ibarət idi.

Prezident Zəngəzur dəhlizi məsələsini yalnız regional iqtisadi layihə kimi deyil, bütövlükdə sülh və əməkdaşlığın strateji elementi kimi təqdim etdi. Sülh müqaviləsi və Ermənistanın konstitusiyasında revanşist müddəaların qalması kimi mövzular isə yalnız iki ölkə arasında hüquqi sənəd məsələsi kimi deyil, regionun gələcək təhlükəsizliyi və sabitliyi çərçivəsində göstərildi. Maraqlıdır: dövlət başçısı hansı hallarda gündəmi özü müəyyən edə bilir, hansı hallarda isə mövcud diskursun təsiri altında qalır? İlham Əliyevin nümunəsi göstərir ki, gündəmi müəyyən etmək üçün güc mövqeyi, beynəlxalq legitim arqumentlər və auditoriyanın maraqlarını doğru hesablamaq lazımdır. Bu üç elementin bir araya gəlməsi nəticəsində Azərbaycanın mövqeyi yalnız məntiqli deyil, alternativsiz həll kimi görünür.

Beləliklə, müsahibədəki hər ifadə, hər vurğu diqqətlə seçilmiş, diskursu formalaşdırmaq və Azərbaycanın strategiyasını ən əlverişli işıqda göstərmək üçün düşünülmüş addım idi. Bunlar diplomatiyada çərçivələmənin klassik nümunəsi olmaqla yanaşı, İlham Əliyevin qrossmeyster diplomatiyasının mühüm göstəricisidir.

*

Diplomatiyada uğurun əsas şərtlərindən biri sərtliklə yumşaqlığı eyni anda daşımaqdır. Yəni, dövlət həm qarşı tərəfi məsuliyyətə çağırmalı, həm də danışıqlar üçün açıq qapı saxlamalıdır. İlham Əliyevin diplomatik üslubu bu balansı ustalıqla qoruması ilə seçilir. Müsahibədə Prezident Ermənistanın qeyri-sabit və ziddiyyətli davranışlarını açıq şəkildə ifşa edir. Ermənistanın konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünə qarşı revanşist müddəaların qalması, sülh müqaviləsinə laqeyd yanaşması sərt mövqeyin nümunəsidir. Lakin Əliyev, eyni zamanda, danışıqlara qapını bağlı saxlamır, sülhə açıq olduğunu vurğulayır. Buradakı balans – “təhlükəsizlik üçün güc, sülh üçün çeviklik” – onun diplomatik üslubunun əsas fərqləndirici xüsusiyyətidir.

Buradan sual yarana bilər ki, dövlət başçısı sərt mövqeyini qoruyaraq diplomatik çevikliyi necə saxlaya bilir? Cavab budur ki, dövlət başçısı gücü təhlükəsizlik üçün vasitə, çevikliyi isə sülh üçün imkan kimi qiymətləndirir. Beləliklə, sərtlik yumşaqlığı boğmur, çeviklik isə mövqeyi zəiflətmir.

Nəticədə müsahibədə ortaya çıxan mənzərə çoxqatlıdır: Ermənistan cəmiyyətinə və hakimiyyətinə mesaj aydındır – məsuliyyətsiz davranış qəbul edilməz; beynəlxalq güclərə mesaj – Azərbaycan yalnız gücə söykənmir, həm də sülh üçün çevikdir; daxili auditoriyaya mesaj isə budur ki, dövlət başçısı həm qətiyyətli, həm də uzaqgörəndir. Beləliklə, bu balans İlham Əliyevin diplomatik portretini dəqiq ifadə edən yanaşmadır və onun qrossmeyster diplomatiyasının mərkəzində dayanır.

*

Prezident İlham Əliyevin müsahibəsində diqqət çəkən əsas məqamlardan biri də beynəlxalq güclərə ünvanlanmış çoxqatlı mesajlardır. İ.Əliyevin mövqeyi aydındır: Azərbaycan əməkdaşlığa və beynəlxalq zəmanətlərə açıqdır, lakin heç bir şərtlə suverenlikdən güzəşt etməyəcək. Onun yanaşması bir tərəfdən güclərə etimad mesajı verir, digər tərəfdən sərhədləri dəqiq müəyyənləşdirir. Diplomatiyada bu strategiya “çoxqatlı siqnalvermə” adlanır, çünki eyni mesaj bir neçə auditoriyaya fərqli məna daşıyır.

Prezident İlham Əliyevin çıxışları yalnız beynəlxalq səhnəyə hesablanmayıb; onların daxili auditoriya üçün də mühüm funksiyası var. “Əl-Ərəbiyyə” müsahibəsi bunun ən bariz nümunəsidir. Xarici tribuna vasitəsilə Azərbaycan ictimaiyyətinə verilən mesajlar həm milli birliyi gücləndirir, həm də vətəndaşların etimadını möhkəmləndirir. Müsahibədə sərt və qətiyyətli mövqe vətəndaşlara iki mühüm mesaj verdi. Birincisi, Ermənistanın qeyri-konstruktiv addımlarına qarşı Azərbaycan güzəştsiz mövqedədir. İkincisi, bütün çətinliklərə baxmayaraq, Azərbaycanın mövqeyi beynəlxalq səviyyədə qəbul edilən arqumentlərə söykənir.

Bəs nəyə görə daxili auditoriya üçün beynəlxalq çıxışlar bu qədər vacibdir? Çünki diplomatiya yalnız xaricə ünvanlanmış siyasət deyil, eyni zamanda milli güvənin bərpası və möhkəmlənməsidir. Azərbaycan vətəndaşı öz liderinin dünya səhnəsində inamla danışdığını gördükcə, həm siyasi legitimlik, həm də milli qürur artır. Müsahibədə istifadə olunan “təhlükəsizlik üçün güc, sülh üçün çeviklik” yanaşması daxili auditoriya üçün də açıq siqnal oldu: güc ölkənin təhlükəsizliyini təmin edir, diplomatik çeviklik isə uzunmüddətli sülh imkanlarını qoruyur. Beləliklə, müsahibə yalnız beynəlxalq diplomatiyanın deyil, həm də milli birliyi və vətəndaş inamını möhkəmləndirən strategiyanın bir hissəsi oldu.

Prezident İlham Əliyevin “Əl-Ərəbiyyə” kanalına verdiyi müsahibə diplomatiyanın qrossmeyster üslubunun canlı nümunəsi idi. O, auditoriyanı düzgün seçməklə mesajlarının təsir dairəsini genişləndirdi, siyasi gündəmi çərçivələməklə diskursu özü müəyyənləşdirdi, sərtliklə çevikliyi balanslaşdıraraq həm təzyiq, həm də sülh imkanlarını paralel saxladı. Beynəlxalq güclərə çoxqatlı mesajlar ünvanladı, daxili auditoriyaya isə dövlətin möhkəm mövqeyini və gələcəyə ümidini göstərdi.

Son olaraq qeyd edə bilərik ki, Cənab Prezidentin hər gedişi əvvəlcədən hesablanmış strateji addımdır. O, diplomatiyada nə yalnız müdafiədə qalır, nə də emosional hücuma keçir. Şahmatda olduğu kimi, hər dəfə oyunu öz məntiqi ilə idarə edir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Azərbaycanın inanc azadlığı və məzhəb vəhdəti örnəyi

**(əvvəli 1-ci səhifədə)**

### “Azərbaycanda dini zəmində ayrıseçkilik, qarşıdurma halları olmayıb”

Milli Məclisin deputatı Ceyhun Məmmədov dövlət başçısının bu açıqlaması ilə bağlı XQ-yə bildirdi ki, Prezident İlham Əliyevin dedikləri bir daha təsdiq edir ki, Azərbaycan təkcə regionda deyil, bütün İslam dünyasında vəhdət, birgəyaşayış və dini tolerantlıq nümunəsi kimi xüsusi çəkiyə sahibdir:

– İlham Əliyevin vurğuladığı kimi, məzhəbçilik müsəlman xalqlarını parçalamaq istəyən qüvvələrin əlində təhlükəli vasitəyə çevrilib. Azərbaycan isə öz milli həmrəyliyi, dövlət-din münasibətlərində tarazlığı və ictimai birliyi ilə bu təhlükəni dəf edən, nümunə göstərən ölkədir.

Bu yanaşma Azərbaycanın əsrlərlə formalaşmış dəyərlərinə söykənir. Bizim tariximizdə müxtəlif dinlərin, məzhəblərin və xalqların dinc yanaşı yaşaması ənənəsi var. Prezidentimizin müsahibəsində qeyd etdiyi kimi, Azərbaycan təkcə dini dəyərlərini təbliğ etmir, həm də ideoloji müstəqilliyini təmin edərək, müsəlman dünyasında nifrət toxumları səpmək istəyən xarici təsirlərə qarşı sipər rolunu oynayır. Azərbaycan azsaylı müsəlman ölkələrindəndir ki, burada tarixən dini zəmində heç vaxt ayrıseçkilik və qarşıdurma olmayıb. Ərlər boyu Azərbaycanda müxtəlif dinlərin və məshəblərin nümayəndələri sülh və qarşılıqlı anlaşma şəraitində yaşayıblar. Onlar arasında heç zaman münaqişə və qarşıdurma olmayıb. Bu, Azərbaycanın güclü dövlətçiliyinin, zəngin tolerantlıq və multikulturalizm ənənələrinin və milli iradəsinin bariz göstəricisidir.



### “Milli tolerantlıq ənənəsi dövlət siyasəti səviyyəsində qorunur”

Ötən əsrin 90-cı illərində müstəqilliyini yenicə əldə etmiş Azərbaycanda ciddi proseslərin getdiyini xatırladan deputat Heydər Əliyev hakimiyyətə gəldikdən sonra ölkəmizi bir çox bəlalardan qoruduğunu, o cümlədən dini zəmində münaqişələrin yaranmasına imkan vermədiyini vurğuladı:

– Sonrakı dövrdə də bu siyasi xəttə riayət olundu və məhz bunun nəticəsində bu gün Azərbaycanda ayrıseçkilik və qarşıdurma meyilləri yoxdur. Əlbəttə, burada tarixi ənənə ilə yanaşı, təcrübə də öz sözünü deyir. Dövlət bu ənənələrin qorunub saxlanması üçün bütün zəruri addımları atır. Yəni, milli tolerantlıq, adət-ənənələr dövlət siyasəti səviyyəsində qorunmaqdadır. İctimai sabitliyin qarantı kimi çıxış edən dövlətimizin yürütdüyü siyasətdə əsas istiqamətlərdən biri məhz budur. Azərbaycanın seçdiyi yol birlik, həmrəylik və güclü milli dəyərlər yoludur. Bu yol ölkəmizi həm regionda, həm də İslam aləmində möhkəmləndirir və nümunəyə çevirir.

### “Fərqli dini məzhəbləri bir araya gətirməyi bacaran yeganə ölkəyik”

Hazırda Gürcüstanda gürcü-pravoslav, Ermənistanda erməni-qriqorian kilsələrinin dövlət siyasətinə müəyyən qədər müdaxilə etdiklərinə diqqəti yönəldən Ceyhun Məmmədov Azərbaycanda vəziyyətin tamamilə fərqli olduğunu bildirdi:

– Bizim ölkədə dini müstəvidə siyasi fəaliyyət yoxdur. Azərbaycanda bütün dinlər qanun qarşısında bərabərdir. Yada salmaq istəyirəm ki, 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edilərkən Ulu öndərə əsas qanunumuza müsəlman ölkəsi kimi İslam amilinin təsbiti təklif olunmuşdu. Amma o zaman Heydər Əliyev buna razılıq verməmiş, Azərbaycanın siyasətinin Gürcüstan və Ermənistandan fərqləndiyini bildirmişdi. Həmin siyasət, ənənə və dəyərlər bu gün də davam etdirilir və qorunur.

İndi qururla deyə bilərik ki, Azərbaycan yeganə müsəlman ölkəsidir ki, onun məscidlərində vəhdət namazı qılınır. Yəni, belə bir presedent dünyanın heç bir müsəlman ölkəsində mövcud deyil. Xaricdən ölkəmizə gələn yüksək qonaqlarla görüşlərimizdə də bunun şahidi olmuşuq. Onlar bu tarixi nailiyyətə necə nail olduğumuzla maraqlanırlar. Azərbaycan cəmiyyətində fərqli məzhəblərin bir araya qələrək vəhdət naması qılmaq düşüncəsi formalaşıb. Ən zəngin dini təcrübəyə malik müsəlman dövlətlərində tolerantlıqdan danışılsa da, onlar bu vəhdətə nail ola bilməyiblər. Bu gün də onlar dini zəmində münaqişə və qarşıdurmalardan əziyyət çəkirlər. Bizdə isə vəziyyət tamamilə fərqlidir. Bəli, bu, dövlətin apardığı düzgün ideoloji siyasətin bəhrəsidir.

### “Bölücülüyə qarşı ən kəsərli üsul milli dəyərlərə sadiqlikdir”

Prezident İlham Əliyev müsahibəsində qeyd etdiyi kimi, bu gün müsəlman dünyası üçün ən böyük təhlükə dini ayrı-seçkilikdir. Bu bölücülüyü təbliğ edən ideologiyanın daşıyıcıları ilə mübarizə böyük əhəmiyyət kəsb edir. Bu həssas məsələyə də münasibət bildirən müsahibimiz müsəlman ölkələrində müşahidə etdiyimiz qarşıdurmaların, hakimiyyət davalarının kökündə əsasən din amilinin dayandığını qeyd etdi:

– Ümumiyyətlə, hər hansı ölkənin daxilində ictimai-siyasi vəziyyəti gərginləşdirmək üçün din amilindən böyük peşəkarlıqla istifadə olunur. Dini ayrı-seçkilik, məzhəblərə bölmək təbliğatı fonunda ölkələrin ictimai-siyasi sabitliyi pozulur. Hazırda istər müsəlman Şərqində, istərsə də Qərb ölkələrində bu “kartdan” pozucu amil kimi çox məharətlə yararlanmağa çalışırlar. Cənab Prezidentin müsahibəsində qeyd etdiyi kimi, belə pozuculara qarşı ən kəsərli üsul milli dəyərlərə sadiqlikdir.

Azərbaycanın qazandığı uğurların kökündə məhz milli dəyərlərə, milli ənənələrə sadiqliyimiz dayanır. Bunun ən bariz nümunəsini biz 44 günlük müharibədə gördük. Azərbaycanda yaşayan və fərqli dinlərə sitayiş edən azsaylı xalqların, etnik azlıqların nümayəndələri düşmənə qarşı mərdliklə, vətənpərvərcəsinə vuruşdular. Onların arasında Vətən Müharibəsi Qəhrəmanı fəxri adı ilə, eləcə də orden və medallarla təltif olunanlar yüzlərlədir.

### “Milli kimlik, vətəndaş mövqeyi dini mənsubiyyətdən daha irəlidədir”

Azərbaycanın qazandığı uğurların bir səbəbinin də Prezident İlham Əliyevin müsahibəsində vurğuladığı milli kimliyin, vətəndas mövqeyinin dini mənsubiyyətdən irəlidə gəlməsi amilinin olduğunu önə çəkən Ceyhun Məmmədov bunu dövlətin apardığı məqsədyönlü və düzgün siyasətin nəticəsi kimi qiymətləndirdi:

– Nə gizlədək, illər boyu ictimai şüurda bu balansın pozulması üçün ciddi cəhdlər edildi, müəyyən addımlar atıldı. Amma buna imkan verilmədi. Bütün bu cəhdlərin qarşısı dövlətimiz tərəfindən qətiyyətlə alındı. Tolerantlığımız İslam dünyasının bir parçası olaraq bizə milli-mənəvi dəyərlərimizi birləşdirməyimizə heç də mane olmur. Azərbaycan həm müsəlman, həm də, eyni zamanda, dünyəvi ölkə olaraq hər zaman İslam dəyərlərinin qorunması ənənəsinə malikdir. Bu dünyəvilik heç də milli-mənəvi dəyərlərimizə mane olmur, əksinə, onlar sintetik xarakter daşıyır. Buna zəmin yaradan amillərdən biri də Azərbaycanda tarixən mövcud olmuş təsəvvüf, irfançılıq ənənələrinin qorunub saxlanmasıdır.

Hesab edirik ki, güclü dövlət kimi ayaqda qalmağımıza, daha da güclənməyimizə təkan verən amillərdən biri də budur. Tam ənimliklə söyləyə bilərik ki, bu gün Azərbaycandakı tolerant mühit, multikulturalizm, milli-mənəvi dəyərlərə bağlılıq tarixən formalaşıb və dövlətimizi bu ənənələrin hamisi kimi, onların gələcək nəsillərə çatdırılmasına öz töhfəsini verir. Bu isə həm Şərq, həm də Qərb dünyası üçüm unikal nümunə sayılır. Azərbaycan hakimiyyətinin həyata keçirdiyi siyasətin təməlində məhz bu model durur. Qarabağda sürətlə aparılan bərpa-quruculuq işlərini, orada məscidlərimizin təmirini, yenilərinin inşa edildiyini görəndə ürəyimiz fəxrlə döyünür. Bəli, 30 illik işğal dövründə olduğu kimi, Azərbaycan dövləti bu gün də mili-mənəvi dəyərlərin qorunmasına xüsusi qayğı göstərir, onların daha da möhkəmlnəməsinə yeni-yeni töhfələr verir. Bir daha təkrar etmək istərdim ki, bizim güclü olmağımızın, Qarabağda qazandığımız Zəfərimizin kökündə milli-mənəvi dəyərlərimizə bağlılığımız və onlara sadiqliyimiz durur.

***Söhbəti hazırladı:***
***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycan – Ermənistan: sülh müqaviləsinə ehtiyac var!

## Sazişin imzalanması üçün şərtlərimizin yerinə yetirilməsi də zəruridir

**“Ermənistan cari ilin yanvar ayının sonuna qədər sülh sazişi üzrə müəyyən müddəalara razılıq vermirdi”. Bunu Nazirlər Kabinetində keçirilən və Prezident İlham Əliyevin Vaşinqton səfərinə həsr olunmuş xüsusi iclasda ölkəmizin Xarici işlər naziri Ceyhun Bayramov deyib.**



Nazirin sözlərinə görə, Ermənistanın sülh müqaviləsi ilə bağlı qəbul etmədiyi bəndlər məhkəmələrdə iddiaların geri çəkilməsi və sərhəddə üçüncü qüvvələrin yerləşdirilməsi ilə bağlı idi. Azərbaycan və Ermənistan liderlərinin ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə imzaladıqları Birgə Bəyannamə ölkəmizin sülh gündəliyini təsdiqlədi. Bu proses isə özündə hansısa şübhə yükünü daşımamalıdır.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilmiş görüşünün nəticələrinə dair Birgə Bəyannamədə “Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş”in razılaşdırılmış mətninin xarici işlər nazirləri tərəfindən paraflandığı təsdiqlənib. Bu kontekstdə, tərəflər Sazişin imzalanması və yekun olaraq ratifikasiyası üçün əlavə tədbirlərin görülməsinin davamına ehtiyacın duyulduğunu qəbul etdilər, habelə ölkələr arasında sülhün təminatı və gücləndirilməsinin vacibliyini vurğuladılar.

Onu da bildirək ki, Birgə Bəyannamədə ATƏT-in Minsk Prosesi və onunla əlaqəli strukturlarının bağlanmasına dair Azərbaycanın xarici işlər naziri və Ermənistanın xarici işlər naziri tərəfindən ATƏT-ə birgə müraciətin imzalanmasına şahidlik də əksini tapdı, ATƏT-in bütün iştirakçı dövlətlərinə bu qərarın qəbuluna çağırış olunmasına şahidlik də.

Məlumdur ki, rəsmi Bakı Qarabağ münaqişəsi məntiqini saxladığı üçün Minsk prosesinin dayandırılmasını sülhün imzalanması şərtlərindən biri olaraq irəli sürüb.

İkinci şərt isə Ermənistan konstitusiyasının dəyişdirilməsi, daha doğrusu, sənədin işğalçı mahiyyət daşıyan İstiqlaliyyət Bəyannaməsinə istinadının aradan qalxmasıdır. Bu mövqeni Prezident İlham Əliyev Vaşinqtonda ölkəmizin media orqanlarına müsahibəsində də vurğulamışdı: “Təbii ki, Ermənistanın, necə deyərlər, ev tapşırıqları da var. Bildiyiniz kimi, onların konstitusiyasında Azərbaycana qarşı ərazi iddiası məsələsi imkan vermədi ki, bu gün sülh sazişi imzalansın. Amma bu dəyişikliklər edildən sonra artıq sülh sazişi istənilən vaxtda imzalana bilər”.

Prezident İlham Əliyev sözügedən müsahibəsində diqqətə çatdırdığımız iqtibasdakı fikirlərindən sonra bunu da bildirmişdi: “Lakin bu gün mən bəzi suallara münasibətimi bildirəndə dedim ki, bir halda Azərbaycan və Ermənistan rəhbərləri bu paraflamanı Ağ Evdə etməyi qəbul ediblərsə, deməli, hesab etmək olar ki, artıq bölgəmizə dayanıqlı sülh gəlib. Hesab edirəm ki, bu, həm Azərbaycan, həm Ermənistan, həm bütün bölgə üçün xüsusi əhəmiyyətə malik olan məsələdir.

Odur ki, bugünkü gün, o cümlədən buna görə tarixi gün sayıla bilər. Həm Azərbaycan–Amerika ikitərəfli münasibətlərinin inkişafında, həm Bakı–İrəvan normallaşma prosesində atılan addımlar, Birgə Bəyannamənin qəbul edilməsi, imzalanması və dünyanın ən qüdrətli dövləti olan Amerikanın Prezidentinin buna dəstəyi və şahidlik etməsi bir daha bu Bəyannamənin önəmini göstərir”.

Heç şübhəsiz, Birgə Bəyannamə sülh naminə son dərəcə böyük xoş məram ifadəsidir. Amma heç bir xoş məram prinsipial məsələləri ikinci plana daşıya bilməz. Ona görə də Prezident İlham Əliyev müsahibəsində Ermənistan konstitusiyasına dəyişikliklə söz açdı. XİN rəhbəri C.Bayramov da xüsusi iclasda mövcud məqamı qabartdı və bildirdi ki, Bakı sülh sazişinin imzalanması üçün İrəvandan Ermənistan konstitusiyasına dəyişiklikləri və Azərbaycanın ünvanına ərazi iddialarının tamamilə aradan qaldırılmasını gözləyir.

Bütün bunların fonunda Ermənistanın Baş naziri Nikol Paşinyanın iki gün əvvəlki fikirləri maraq doğurmaya bilməz. Baş nazir deyib ki, Ermənistan öz qarşısına Azərbaycanla arasındakı etimadı damla-damla yaratmaq vəzifəsini qoyub. O, iki ölkə arasında etimadın formalaşdırılmasının diplomatiyanın işi olduğunu da bildirib. Nəhayət, Paşinyan bunu deyib: “Etimad olarsa, sülh müqaviləsinə ehtiyac özü-özünə aradan qalxacaq”.

N.Paşinyanın sonuncu fikirləri qəribə təsir bağışlayır. Sual yaranır: bir ölkənin əsas qanununda digər ölkəyə qarşı ərazi iddiası qalırsa, hansı etimaddan danışıla bilər? Ortada prinsipial məqam var və hazırda diplomatiyanın vəzifəsi həmin məqamı nəzərə alaraq, real tədbirlər görməkdir. Tədbirlər görülmədikcə isə, şübhələr etimadı üstələməsin. Doğru yanaşma məhz budur.

İkincisi, ümumən sülh müqaviləsinə ehtiyacın duyulmamasına dair fikir yanlışdır. Erməni tərəfi anlamalıdır ki, Vaşinqtonda imzalanmış Birgə Bəyannamənin hər iki ölkənin cəmiyyətinə təsirləri oldu. Azərbaycanla bağlı hər şey aydındır. Ermənistana gəldikdə, deyə bilərik ki, bəyannamə sülhə maneçilik törədən tendensiyaları zəiflətdi. O cümlədən, baş nazir Nikol Paşinyana qarşı çıxan qüvvələrin mövqeyini də.

Deməli, tam etimad mühiti üçün belə demək mümkünsə, növbəti dalğa olmalıdır. O dalğa isə sülh müqaviləsinin özüdür. Bir halda ki, ABŞ-da tərəflər sənədi parafladılar, deməli, prosesi başa çatdırmaq şərtdir. Loru dildə desək, öküzü öldürüb bıçağı üzərində saxlamaq qətiyyən olmaz.

Sülh müqaviləsinin imzalanmasına, habelə, onun imzalanması üçün Azərbaycanın irəli sürdüyü şərtlərin qəbuluna ehtiyac həm də ona görə lazımdır ki, Ermənistan birincisi, işğalçı mövqe tutaraq etimadı yoxa çıxarmışdı, ikincisi isə ölkə 44 günlük müharibədən sonra da itirilmişlərin bərpasına çalışmış, destruktiv mövqe tutmuşdu. Başqa sözlə desək, ötən beş ildə rəsmi İrəvan özünə münasibətdə yalnız etimadsızlıq formalaşdırmışdı. Özü də hələ bilmək olmazdı ki, Birləşmiş Ştatlardakı Prezident seçkilərində Tramp deyil, Demokratlar Partiyasının namizədi qələbə qazansaydı, durum necə olacaqdı. Axı erməni iqtidarının Trampa əks qüvvələrin qələbəsinə siyasi sərmayə yatırdığı məlumdur. Bunu Prezident İlham Əliyev də vurğulayıb, nazir C.Bayramov da həmin məsələyə toxundu.

Sonda belə nəticəyə gəlmək olar ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması, özü də sənədin ölkəmizin şərtlərinin tam qaydada yerinə yetirilməsi ilə, eyni zamanda, tezliklə ərsəyə gəlməsi son dərəcə vacibdir. Nə N.Paşinyan, nə də onun komandasındakı kimsə gəlişigözəl ifadələr işlətməkdən uzaq durub, prinsipial davransalar, ümumi işə daha çox fayda vermiş olarlar.

Ümumi iş isə Cənubi Qafqazda çoxdan gözlənilən sülhün qərarlaşmasıdır.Sülhün uzunmüddətli, təminatlı strukturu naminə özündə münaqişə məntiqini saxlayana hər bir məqama “yox” deyilməlidir. Ən başlıcası, Ermənistan rəhbərliyi nəzərə almalıdır ki, münaqişəni başlayan Azərbaycan dövləti və xalqı olmayıb. Yəni, indiki durumda sülh naminə səmimiyyət nümayişinə, etimada can atmalı tərəf Bakı deyil, rəsmi İrəvandır.

***R.ƏVƏZ***
***XQ***

---

# Sarkisyanın seçki ilə “beşdaş” oyunu

## Köhnə prezident özünə yeni tərəfdaş axtarır

**Ermənistanda 2026-cı il iyunun 7-nə təyin edilmiş parlament seçkiləri yaxınlaşdıqca müxalifət siyasi qüvvələri arasında konsolidasiya meylləri artır. Müxtəlif ideoloji xəttə malik partiyalar hakimiyyətə qarşı birgə mövqedən çıxış etməyin vacibliyini daha çox vurğulamağa başlayıblar. Xüsusilə də keçmiş hakimiyyət elitasına yaxın qüvvələr cəmiyyətin narazı təbəqələrini öz ətrafında toplamağa çalışır. Onların əsas arqumenti Paşinyan hökumətinin həm daxili idarəetmədə, həm də xarici siyasətdə uğursuzluqlara yol verməsi ilə bağlıdır. Bu səbəbdən, seçkilərə qədər müəyyən ittifaqların formalaşacağı və vahid namizədlərlə çıxış ediləcəyi istisna edilmir.**



Ölkənin ikinci prezidenti, Azərbaycana qarşı separatizm hərəkatının və qanlı işğalçılıq müharibəsinin bilavasitə iştirakçısı, Xocalı cəlladı Serj Sarkisyan da, necə deyərlər, boş oturmayıb. İndi Ermənistan Respublika Partiyasının lideri olan S.Sarkisyan rəhbərlik etdiyi partiyanın “Taşir” şirkətlər qrupunun rəhbəri Samvel Karapetyanın siyasi qüvvəsi ilə əməkdaşlığa hazır olduğunu bildirib. Bu barədə jurnalistlərə məlumat verən S.Sarkisyan bildirib ki, Respublika Partiyası istənilən müxalifət qüvvəsi ilə əməkdaşlıq imkanlarını görür: “Əgər bu əməkdaşlığın forma və metodları bizin üçün məqbul olarsa, biz istənilən müxalif qüvvələrlə qarşılıqlı fəaliyyət üçün ümumi əsas görürük”.

S.Sarkisyan hakimiyyətdə olduğu dövrdə S.Karapetyanla əlaqələri barədə də danışıb: “Samvel Karapetyana gəldikdə, açıq deməliyəm: “Ermənistan Elektrik Şəbəkəsi” Qapalı Səhmdar Cəmiyyəti bərbad vəziyyətdə olduğu üçün şirkəti digər rus kompaniyasından almasını ondan şəxsən mən xahiş etmişəm. Bizə şirkətlə məşğul olacaq, uzun müddət mənfəət gözləməyə yox, investisiya qoymağa hazır olan adam lazım idi. Samvel Karapetyan bunu, ən azı, 2018-ci ilə qədər etdi. Bilmirəm, 2018-ci ildən sonra belə davam etdimi, düşünürəm ki, etdi... Odur ki, biz əməkdaşlığa hazırıq”.

O, şirkət ətrafında yaranmış vəziyyətdən danışaraq, Ermənistan hakimiyyətinin addımlarını, xüsusilə elektrik şəbəkəsinin milliləşdirilməsinə dair yeni qanunun qəbulunu, müvəqqəti idarəçi təyin edilməsini tənqid edib: “Mənim münasibətim pisdir, amma görəcəyik. Arbitraj qərarı var, məhkəmə prosesləri olacaq...”.

Sarkisyan onu da deyib ki, “Ermənistan Elektrik Şəbəkələri” QSC-nin milliləşdirilməsi cəhdlərinin hakimiyyətin 2026-cı il parlament seçkilərinə hazırlığı ilə bağlı ola bilər. O izah edib ki, bu addım seçkilər üçün böyük əhəmiyyət kəsb edir, çünki şirkət böyük kollektivə və resurslara malikdir.

Qeyd edək ki, bir müddət əvvəl “İrəvan-Kentron” istintaq təcridxanasında saxlanılan S.Karapetyan siyasi qüvvəsinin əsasına çevriləcək “Öz yolumuzla” hərəkatının yaradıldığını bəyan edib. Öz növbəsində biznesmenin qardaşı oğlu Narek Karapetyan jurnalistlərə bildirib ki, Karapetyanın yaratdığı siyasi qüvvə ikinci və üçüncü prezidentlərlə əməkdaşlığı etməyəcək. Onun sözlərinə görə, S.Karapetyan şəxsi yanaşmaları və proqramları ilə çıxış edəcək. Eyni zamanda, Karapetyan və komandası müvafiq peşəkar keyfiyyətlərə malik insanları hərəkata cəlb etmək niyyətindədir.

*

Beləliklə, Ermənistanda gələnilki parlament seçkiləri öncəsi siyasi mühitin getdikcə qızışdığı göz önündədir. Hakimiyyətin zəif tərəflərini qabardan müxalif qüvvələr seçkilərə birgə blok və ya ittifaq şəklində qatılmaq ehtimalını gündəmə gətirirlər. Bu prosesin mərkəzində isə Ermənistanın keçmiş prezidentləri, xüsusilə S.Sarkisyan dayanır. O, siyasi səhnədən tam çəkilmədiyini açıq göstərir və öz partiyasını yeni resurslarla gücləndirmək üçün müxtəlif dairələrlə danışıqlar aparır. Bu günə qədər müxalif düşərgədə parçalanma, fərqli iddialar və şəxsi maraqlar müşahidə edilsə də, seçkilərin həlledici əhəmiyyət kəsb etməsi onları əməkdaşlığa vadar edir. Sarkisyanın S.Karapetyanla əməkdaşlıq imkanlarını dilə gətirməsi də məhz bu kontekstdə diqqət çəkir. Çünki Karapetyan təkcə böyük biznes strukturlarının sahibi deyil, həm də siyasi iddialarını açıq ortaya qoymağa başlayan fiqurdur. Onun maliyyə və inzibati resursları, müxtəlif sosial təbəqələr arasındakı nüfuzu gələcək seçkilərdə mühüm rol oynaya bilər. Sarkisyanın “Ermənistan Elektrik Şəbəkələri” məsələsini yada salaraq Karapetyanla şəxsi münasibətlərini qabartması isə təsadüfə bənzəmir. O, bu yolla həm keçmişdəki yaxınlığını nümayiş etdirir, həm də onunla tərəfdaşlığın, belə deyək, tarixi əsaslarını vurğulayır. Əslində, bu, Sarkisyanın siyasi arenaya qayıtmaq üçün güclü dayaqlara ehtiyac duyduğunu göstərir.

Digər tərəfdən, S.Karapetyan son dövrlər siyasi fəaliyyətini daha da aktivləşdirib. İstintaq təcridxanasına salındıqdan sonra belə, yeni hərəkatının yaradıldığını elan etməsi onun geri çəkilmək fikrində olmadığını göstərir. “Öz yolumuzla” adlanan hərəkat müstəqil və peşəkar kadrların cəlb olunmasına yönəldiyini iddia edir. Hərəkatın təmsilçiləri ikinci və üçüncü prezidentlərlə əməkdaşlıq etməyəcəklərini bildirsələr də, real siyasi proseslərdə bunun nə dərəcədə davamlı olacağı hələ məlum deyil. Çünki Ermənistan siyasi mühitində şəxsi ambisiyalar tez-tez dəyişir və mövcud maraqlara uyğun yeni konfiqurasiyalar formalaşa bilir.

Maraqlı məqam ondan ibarətdir ki, Sarkisyanın bu mövqeyi Ermənistan müxalifətinin gələcəkdə hansı istiqamətdə hərəkət edəcəyinə dair müəyyən ipucları verir. Görünür, yalnız ideoloji mübarizə aparmaqla nəticə əldə etməyin mümkün olmadığını onlar da anlayırlar. İqtisadi gücə, media imkanlarına, geniş sosial şəbəkəyə sahib olan qüvvələrlə əməkdaşlıq isə müxalifətin şanslarını artırır. Buna mənada Karapetyanın qardaşı oğlunun Koçaryan və Sarkisyanla əməkdaşlıq olmayacağına dair açıqlamaları hələlik real güc mübarizəsində taktiki mövqelər kimi görünür. Ermənistanda son illərin təcrübəsi göstərir ki, seçkilərə az qalmış belə bəyanatlar çox vaxt dəyişir və qarşılıqlı maraqlar ön plana keçir.

**Politoloq Ramiyə Məmmədova** XQ-yə açıqlamasında bildirdi ki, S.Karapetyanla S.Sarkisyanın münasibətləri



sonuncunun Ermənistana rəhbərlik etdiyi dövrdən başlayıb. Onun sözlərinə görə, bu münasibətlərin nəticəsi olaraq S.Sarkisyan Karapetyana yaxşı şərait yaratmışdı. Ölkənin elektrik şəbəkəsi kimi strateji sahəyə idarəçiliyi Karapetyana həvalə etmişdi: “Karapetyan bu sahəyə investisiya yatırmışdı. Ancaq bu prosesin arxasında başqa məqamlar dayanırdı. Yəni, Serj Sarkisyan kimi korrupsioner böyük vəsaitə malik Karapetyanla hansısa sövdələşməyə gedirdisə, deməli, burada iqtisadi məsələlərlə yanaşı, siyasi məqamlar da var idi. İndiki sövdələşmənin nəticəsində isə onların seçkidə birgə iştirakı nəzərdə tutulur”.

Politoloq qeyd etdi ki, regionda qarşıdurma yaratmaqda maraqlı olan qüvvələrin S.Karapetyan amilindən istifadə etmək niyyətində olduqları ehtimalı böyükdür: “O, erməni əsilli rusiyalı sahibkardır. Rusiya vətəndaşıdır və təbii ki, bu ölkə qarşısında hüquqi öhdəlikləri var. Müəyyən güclər və strukturlar onun arxasında dayanırlar. Zənnimcə, Karapetyanın Ermənistana gəlib siyasi bəyanatlarla çıxış etməsi, iddia ortaya qoyması onun öz təşəbbüsü ilə baş verən iş deyildi. Paşinyanın əleyhinə son vaxtlarda atılan addımların, o cümlədən Erməni Apostol Kilsəsinin fəaliyyətinin maddi tərəfdən dəstəklənməsi Karapetyan tərəfindən həyata keçirilib. Bu dəstək boş yerə verilməyib. Karapetyan öz hərəkətləri ilə ant-Paşinyan aksiyalarını dəstəklədiyini etiraf etmiş oldu. O, kilsənin yanında dayanaraq revanşistlərin ideoloji düşmənçilik yönündə addımlarını, xülyalarını daha da qızışdırmaqla məşğul oldu”.

R.Məmmədova onu da bildirdi ki, Karapetyan açıq dövlət çevrilişi etməyə hazırlaşırdı: “Onlar baş nazir Nikol Paşinyanın devrilməsi üçün zəmin yaratmağa çalışırdılar. Bütün bunlar regionda baş verən hadisələrə də təsirsiz ötüşmür. Təbii ki, bizim üçün önəmli olan məsələlərin Azərbaycanla sülh prosesinə necə təsir edəcəyidir. Revanşist ideyalar sülh sazişinin imzalanması məsələsində, eləcə də Ermənistan vətəndaşlarının, necə deyərlər, beyinlərinin yuyulmasında vacib rol oynayır. Sarkisyan və Karapetyan arasındakı sövdələşmə Ermənistanın Rusiya yönümlü olmasına, Qərbdən uzaqlaşmasına da gətirib çıxara bilər. Bu gün Karapetyanın həbsdə olması və özünün yeni siyasi hərəkatını yaratması bundan irəli gələn bir məsələdir. Bir daha qeyd etmək istərdim ki, Karapetyanı dəstəkləyən qüvvələr var. Biz onun kimlər tərəfindən dəstəkləndiyini bilirik. Həmin qüvvələr hazırda Ermənistan daxilində və regionda çaxnaşma yaratmağa, yalançı vədlərlə adamları öz çevrələrinə daxil etməyə, onlardan yararlanmağa çalışırlar. Bu gün müxalifətdə olan keçmiş iqtidar nümayəndələri bir masa arxasında əyləşərək həm daxildə qarşıdurma yaratmaq, həm də Ermənistanı yenidən Azərbaycana qarşı müharibəyə sürükləmək niyyətindədirlər. Bu baxımdan düşünürəm ki, Sarkisyanla Karapetyanın sövdələşməsi sıradan bir hadisə deyil. Bu, yaxşı olmayan siyasi nəticələr doğura biləcək hadisədir”.

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycanın Yaxın Şərq ölkələri ilə “yaşıl” əməkdaşlığı genişlənir

## 2030-cu ilədək ortaq layihələrlə 6 qiqavat günəş və külək enerjisi alınacaq

**Azərbaycan müstəqillik əldə etdikdən sonra yeraltı və yerüstü sərvətlərinin əsl sahibi kimi dünya ölkələri ilə iqtisadi sahədə fəal əməkdaşlığa başladı. Ölkəmiz zəngin karbohidrogen ehtiyatlarına malik olduğundan enerji sahədə əməkdaşlıq iqtisadi əlaqələrin prioritetinə çevrildi.**



Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi düzgün iqtisadi strategiyanın nəticəsi olaraq Azərbaycanın neft-qaz sənayesi xarici sərmayələr üçün açıq elan olundu. 1994-cü il sentyabrın 20-də Azərbaycan hökuməti ilə dünyanın transmilli neft şirkətləri arasında imzalanmış “Əsrin müqaviləsi” ölkəmizi fəal enerji tərəfdaşına çevirdi.

Bu nəhəng neft müqaviləsinin uğurla icrası, eləcə də “Şahdəniz” layihəsinin həyata vəsiqə alması Azərbaycanın dünyada, xüsusən də Avropada etibarlı enerji tərəfdaşı kimi mövqeyinin xeyli güclənməsinə səbəb olub. Təkcə onu qeyd etmək kifayətdir ki, hazırda Azərbaycan dünyanın dünyanın 19 ölkəsinə xam neft və neft məhsulları, 14 dövlətinə isə təbii qaz ixrac edir. Azərbaycandan “mavi yanacaq” alan ölkələrin 10-u Avropa qitəsində yerləşir. Həmin ölkələrin isə 8-i Avropa İtttifaqının üzvüdür.

Göründüyü kimi, dünyanın potensial qaz ixrac edən ölkəsi olan Azərbaycan “köhnə qitə”nin enerji xəritəsinin zənginləşdirilməsinə mühüm töhfələr verir. Dövlətimizin başçısı isə əminliklə bildirir ki, ölkəmiz 2030-cu ilədək əlavə 8 milyard kubmetr qaz ixrac edəcək. Bu imkanı yaradan isə zəngin qaz ehtiyatlarımız və son dərəcə əlverişli, təkmil enerji marşrutlarımızdır.

Bu ildən isə ixrac coğrafiyasını bir qədər də genişləndirən Azərbaycan artıq Suriyaya da qaz nəql etməyə başlayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanının “Əl-Ərəbiyyə” telekanalına müsahibəsində bu mühüm məqama toxunaraq deyib: “Sözsüz ki, təbii ehtiyatlarımızla Yaxın Şərqə daxil olmaq bizim üçün ilk təcrübədir. Artıq qeyd etdiyim kimi, düşünürük ki, Suriyaya qazın həcmini artıra bilərik. Biz, həmçinin Ərəb Qaz Kəməri, yaxud başqa mübadilə əməliyyatları vasitəsilə digər ölkələri qazla təchiz edə bilərik. Biz, həmçinin enerji resurslarının ticarətini həyata keçiririk. Biz neft və qazımızı satmaqla yanaşı, beynəlxalq ticarətçi kimi fəaliyyət göstəririk. Bizim potensialımız təsəvvür ediləndən daha böyükdür. Bu nöqteyi-nəzərdən düşünürəm ki, bu, mühüm amildir”.

Azərbaycanın dünya dövlətləri ilə enerji sahəsində əməkdaşlığı təkcə neft və qaz amili ilə məhdudlaşmır. Məlum olduğu kimi, bir neçə ildir ki, dünya ölkələri “yaşıl” enerji resurslarını hərəkətə gətirməklə bəşəriyyəti karbon emissiyalarının mənfi təzahürlərindən xilas etməyə çalışır. Alternativ və bərpa olunan energi potensialının zənginliyi ilə seçilən Azərbaycan da artıq dünyanın prioritet elan etdiyi “yaşıl keçid”in fəal iştirakçılarından birinə çevrilib. Son bir neçə ildə ölkəmiz bu sahədə də təqdirəlayiq işlər görür, bir sıra təmiz enerji layihələri həyata keçirir. Bu da onu göstərir ki, Azərbaycan artıq dünyada, həm də mötəbər “yaşıl” enerji tərəfdaşı kimi tanınır.

Azərbaycan özünün zəngin bərpa olunan enerji potensialını hərəkətə gətirmək üçün bir sıra dünya dövlətləri ilə, xüsusən də Yaxın Şərq ölkələri fəal əməkdaşlıq edir. Yeri gəlmişkən, Prezident İlham Əliyev “Əl Ərəbiyyə” telekanalı əməkdaşının Azərbaycanın ərəb ölkələri ilə münasibətlərinin hazırkı vəziyyəti ilə bağlı sualını cavablandırarkən Yaxın Şərq ölkələri ilə, əsasən də Körfəz Əməkdaşlıq Ölkələri ilə əlaqələrin çox yaxşı – dostcasına və nəticəyönümlü olduğunu xatırladıb. Dövlətimizin başçısı deyib: “Bu ölkələrlə çox güclü tərəfdaşlığımız var. Yeri gəlmişkən, bizim bərpa olunan enerjidə əsas sərmayədarlar Birləşmiş Ərəb Əmirlikləri və Səudiyyə Ərəbistanından olan şirkətlərdir. Onlar bizim əsas sərmayədarlardır. Onlar indi investisiya yatırırlar”.

Məlum olduğu kimi, Azərbaycan bərpa olunan enerji mənbələrindən istifadənin inkişaf etdirilməsi üzrə geniş potensiala malik olan ölkələrdəndir. Belə ki, araşdırmalara əsasən, ölkəmizin “yaşıl” mənbələri üzrə potensialı, təqribən, 27,5 min meqavat həcmində qiymətləndirilir. Bunun da 3 min meqavatı külək enerjisinin, 23 min meqavatı günəş enerjisinin, 380 meqavatı bioenerjinin, 520 meqavatı isə dağ çaylarının payına düşür. Artıq bu potensialın hərəkətə gətirilməsi üçün dünyanın bir sıra dövlətləri ilə müvafiq danışıqlar aparılır, tanınmış şirkətlər ölkəmizə dəvət olunur.

Azərbaycanın Birləşmiş Ərəb Əmirlikləri, xüsusən də bu ölkənin bərpa olunan enerji sahəsində dünyaca məşhur “Masdar” şirkəti ilə əməkdaşlığı bu baxımdan diqqət çəkir. 2023-cü ilin oktyabr ayında BƏƏ şirkəti ilə əməkdaşlıq çərçivəsində Xəzər regionunun və MDB məkanının ən böyük “yaşıl” enerji müəssisəsi sayılan 230 meqavatlıq “Qaradağ” Günəş Elektrik Stansiyası istifadəyə verilib. 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə hesabına tikilib istismara verilmiş bu nəhəng “yaşıl” enerji obyekti ölkəmizdə reallaşdırılan sənaye miqyaslı ilk günəş elektrik stansiyasıdır.

Stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Cari ilin əvvəlindən avqustun 28-dək stansiyada 407 milyon 216 min 700 kilovat-saat elektrik enerjisi istehsal olunub. Ümumilikdə isə, Azərbaycanın dövlət başçısı İlham Əliyevin xeyir-duası ilə fəaliyyətə başlayan “Qaradağ” Günəş Elektrik Stansiyasında indiyədək 910 milyon 856 min 110 kilovat-saat təmiz elektrik enerjisi istehsal edilərək paylayıcı şəbəkəyə ötürülüb.

Bununla yanaşı, şirkət hazırda 445 meqavatlıq “Biləsuvar” və 315 meqavatlıq “Neftçala” günəş, eləcə də 240 meqavatlıq “Abşeron–Qaradağ” külək elektrik stansiyalarının inşasını həyata keçirir. Sözügedən stansiyaların istismara verilməsi ilə ölkəmizdə il ərzində əlavə 3 milyard 843 milyon kilovat-saat təmiz enerji istehsal olunacaq. Bununla yanaşı, həmin stansiyaların fəaliyyəti nəticəsində ildə 496 milyon kubmetr təbii qaza qənaət olunacaq ki, bu da 943 min ton karbon emissiyasının azaldılması deməkdir.

Bu yaxınlarda isə ölkəmizdə daha bir “yaşıl” eneji stansiyasının istifadəyə verilməsi planlaşdırılır. Bu, Səuduyyə Ərəbistanının “ACWA Power” şirkəti ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən 240 meqavatlıq “Xızı-Abşeron” Külək Elektrik Stansiyasıdır. 340 milyon dollar xarici sərmayə hesabına inşa olunan bu stansiyada ildə 1 milyard kilovat-saat elektrik enerjisi istehsal olunacaq. Bu isə il ərzində 220 milyon kubmetr təbii qaza qənaət etməyə, 400 min tondan artıq karbon emissiyasının atmosferə atılmasının qarşısını almağa imkan verəcək. Bununla yanaşı, ötən il “ACWA Power” şirkəti ilə “Dənizdə 1,5 qiqavatdək külək layihəsinin həyata keçirilməsinə dair İcra Müqaviləsi”, “Quruda 1 qiqavat külək stansiyasının yaradılmasına dair İcra Müqaviləsi” və “Azərbaycan Respublikasında enerji saxlanc sistemlərinin inkişaf etdirilməsinə dair Anlaşma Memorandumu” imzalanıb.

Telekanal əməkdaşı ilə müsahibəsində Azərbaycanın bərpa olunan enerji potensialının yüksək olduğunu vurğualyan Prezident İlham Əliyev ötən müddətdə mzalanmış müqavilələrə, eləcə də Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı və Çindən yatırılan investisiyalara əsasən, 2030-cu ilədək ölkəmizdə 6 giqavat günəş və külək enerjisi istehal ediləcəyini diqqətə çatdırıb. Bundan əlavə, Qarabağ və Şərqi Zəngəzurun su ehtiyatlarının zənginliyi burada kiçik su elektrik stansiyaları şəbəkəsinin genişləndirilməsinə imkan yaradır. Dövlət başçımızın qeyd etdiyi kimi, işğaldan azad olunmuş ərazilərdə artıq 300 meqavat təmiz enerji istehsalına nail olunub.

“Yaşıl” enerji layihələrini Azərbaycanla Körfəz Əməkdaşlıq Ölkələri arasında əlaqələrin mühüm tərkib hissəsi kimi dəyərləndirən Prezident İlham Əliyev əsas diqqəti enerji və digər sahələrdə – mehmanxana işi, turizm, kənd təsərrüfatında praktiki investisiya layihələrinə yönəldildiyini diqqətə çatdırıb. Bu baxımdan Səudiyyə Ərəbistanının “ACWA Power” şirkətinin Xəzər sahilində suyun duzsuzlaşdırılması zavodunun inşasında tərəfdaş kimi seçildiyini məxsusui olaraq vurğulayıb. Qeyd olunub ki, bu layihə ölkəmizdə kənd təsərrüfatı, eləcə də insanlar üçün çoxlu imkanlar yaradacaq.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Lavrovun SSRİ xiffəti

## İnanaqmı ki, yalnız nostalgiyadır?

**Rusiyanın xarici işlər naziri Sergey Lavrov bir müddət əvvəl Alyaskada keçirilmiş Rusiya–ABŞ sammiti zamanı üzərində “SSRİ” yazılmış paltar geyinməsinə qəribə izah verib. Bəribaşdan deyək ki, Kremlin baş diplomatı “NBC News” telekanalına müsahibəsində hərəkətinin Sovet İttifaqını bərpa etmək istəyi olmadığını bildirib. Bəs qəribəlik nədədir, yazımızda bu barədə söz açacağıq. Amma əvvəlcə bir nüansın üzərində dayanaq.**




Bəli, üzərində “SSRİ” yazılmış köhnəklərə və digər geyim növlərinə rast gəlirik. Bəzən Azərbaycan vətəndaşlarının da əyinlərində onları görürük. Üstəlik, bunu şüurlu və ya şüursuz şəkildə edənlər var. Heç də demək olmaz ki, şüurlular SSRİ-nin bərpasını arzulayırlar, yaxud keçmiş imperiyanın xiffətini çəkirlər. Əlbəttə, çəkənlərin mövcudluğu da mümkündür ki, məhz onları əsl şüursuzlar adlandırmaq mümkündür. Çünki belələri həmin SSRİ-nin yaranması ilə Azərbaycan xalqının və dövlətçiliyinin nədən məhrum olduğunun fərqinə varmırlar. Amma məqsədimiz heç də kimlərisə qınamaq deyil. Zamanla belə elementlər sıradan çıxacaq. Həm də ona görə kimisə qınamırıq ki, ölkəmizin müstəqilliyi ideyasını dəstəkləyənlərin sayı manqurtlardan dəfələrlə çoxdur və həmişə belə olub.

Əlqərəz, Lavrov bildirib ki, “biz Sovet İttifaqında doğulmuşuq. Rusiya Prezidenti Vladimir Putin dəfələrlə deyib ki, SSRİ-nin dağılmasına heyfsilənməyən insanın qəlbi yoxdur. Amma onun bərpasını istəyənin başı yoxdur. Bu tamamilə doğru ifadədir”. Əlbəttə, həm Putin, həm Lavrov, həm də digər Rusiya rəsmisi SSRİ-nin süqutunu ürək ağrısı ilə qarşılaya bilər. Çünki xalqların bərabərliyini şüara çevirmiş Sovetlər Birliyində əsas rolu rus varlığı oynayırdı. Yəni bərabərlik yalnız sözdə idi və əslində, dövlət “beynəlmiləlçiliyin” doğurduğu fəsadlara görə dağıldı.

SSRİ klassik imperiyaların yaşadıqları aqibəti yaşadı və başqa cür ola bilməzdi. Saxtalıq nə zamansa çat verməli idi və verdi də. Bu yazının müəllifi kimi, Sovetlər Birliyində doğulmuş bir çoxları belə bir aqibətin qaçılmazlığını bildiyi halda, niyə keçmişin xiffətini çəkməlidir? Digər tərəfdən, xiffəti çəkilməli durum olmayıb. Fəhlə-kəndli hökumətində o dövrün avtomobilləri fəhlənin adına alınırdısa, onu idarə edənlər isə müxtəlif üsullarla varlanmış digərləri idisə, niyə həmin dövr üçün burnumuzun ucu göynəsin? Yaxud pambıq respublikası kimi tanınmış Azərbaycanda apteklərdə pambıq tapılmırdısa, nə üçün belə dövlətin süqutuna heyflənəsən? Başqa saysız-hesabsız eybəcərliklər və haqsızlıqlar da var ki, onların hamısını sadalamağa lüzum görmürük.

...Lavrov müsahibəsində onu da bildirib ki, Rusiya bütün keçmiş sovet respublikalarını müstəqil dövlətlər kimi tanıyıb. “Biz onlarla tam müstəqil dövlətlər kimi münasibətlər inkişaf etdiririk. Amma Ukrayna kimi ölkələr fiziki və hüquqi baxımdan bütün rus izlərini məhv etməyə başlayanda… Təsəvvür edin ki, hansısa başqa ölkədə ingilis dilini, Amerika tarixini qadağan etsinlər”.

O zaman obrazlı şəkildə təsəvvür edək ki, əynimizə dar paltarı geyindirirlər. Həmin paltarda sıxılırıq. Nəhayət, libası çıxarmaq qərarına gəlirik və onu səliqə ilə bir kənara qoymaq ağlımıza gəlmir, çünki paltarda özümüzü pis hiss etmiş, əzab çəkmişik. Beləliklə, güc verir, libasa zərər yetiririk və bunu heç düşünmürük də. Yəqin, nə dediyimizin fərqinə vardınız.

Amma cənab Lavrov da haqlıdır. Məsələ ondadır ki, keçmiş sovet respublikalarının bir çoxunda rus dilinə münasibətdə qıcıq duyulur. Digər tərəfdən, hazırda başqa hansısa dövlətdə həmin dövləti idarə edən heç bir şəxsin ağlına tutalım ingilis dilini qadağan etmək gəlmir. Görəsən, Kremlin baş diplomatı rus dilinə qarşı hücumun səbəbləri barədə nə üçün düşünmür? Ola bilərmi ki, məsələ müasir Rusiyanın rus dilini beynəlxalq siyasət aləti kimi istifadə etməsindədir?

Nəyə görə mütləq çoxluq üçün SSRİ keçmişin xoş nostalgiyası prizmasından uzaqdır? Axı Lavrov ifadə tərzi baxımından çox düz deyir ki, əgər köklərini xatırlamırsansa, uşaqlıq, gənclik, ilk sevgi, dostlarla bağlı nostalji duyğuların yoxdursa, insanlığı və insani dəyərləri təsəvvür etməyin çətindir: “Həyatın boyu baş verənləri xatırlamaq və onları qiymətləndirmək bir şeydir, amma hər yeri hərbi yolla ələ keçirməyə çalışmaq tamamilə başqa şeydir. Bu, heç də eyni deyil”.

O zaman əsas sualımızı ünvanlayaq: Kimsə Lavrovun Alyaskaya üzərində “SSRİ” yazılmış geyimdə yollanmasının sırf nostalgiya mahiyyətinə inandımı? Axı onun ranqındakı rəsmi şəxslərin hər fikri kimi, geyimi də mesajdır. Sözümüz ondadır ki, cənab Lavrov “NBC News”un sualını cavablandırarkən diplomatikliyə üstünlük verməyə bilərdi. Heç şübhəsiz, o zaman daha səmimi təsir bağışlayardı. İndiki halda isə o, cavabı ilə nə dediyini anlamayan, ən pisi isə ideyasından yayınan birini xatırladır.

Ümumən, Lavrovun izahı ilə əlaqədar bir çox başqa məqamları vurğulamaq mümkündür. Amma buna da ehtiyac duymuruq. Yalnız bir məqama diqqət yetirək. Həm də ona görə ki, Azərbaycan müasir müstəqillik illərində SSRİ ilə bağlı bir çox eybəcərlikləri kənara qoymuş, Rusiya ilə mehriban qonşuluq əlaqələrinə üstünlük vermişdi. Hətta Moskvanın köməyi ilə Ermənistanın torpaqlarımızın 20 faizini işğal etməsini də həmişə dilə gətirmir, günahı, böyük ölçüdə, özümüzdə görür, nəticə çıxarmağa çalışırdıq. Çalışdıq və işğala son qoyaraq istəyimizə nail olduq.

Deməli, biz də SSRİ-dən miras qalmış yaramızı sağaldaraq, sabiq dövləti, belə demək mümkünsə, tam nostalgiyalaşdırmaq üçün fürsət qazandıq. Amma günün birində Rusiya səmasında sərnişin təyyarəmizə atəş açıldığını gördük. Rusiyada kimlərinsə təyyarə olayı müstəvisindəki haqlı tələblərimiz qarşılığında, az qala, bizi işğalla hədələdiklərini də həmçinin. Yəni təxminən SSRİ-nin qurulmasına, imperiya əsarətinə aparan sovet işğalı ilə hədələndik. Yeri gəlmişkən, bu sərsəm ritorika yenə aktuallığını qoruyur və belə bir vaxtda sıravi azərbaycanlı cənab Lavrovu Alyaskada üzərində “SSRİ” yazılmış geyimdə görür. Həmin azərbaycanlı necə inansın ki, Rusiya XİN rəhbərinin yalnız nostalgiya damarı tutub?

*Ə.CAHANGİROĞLU*
*XQ*

# Prezident İlham Əliyevin üçtərəfli əməkdaşlıq platformaları



## IV MƏQALƏ

### Tətbiqi geosiyasət

Vidal de la Blaş (fransız geosiyasət məktəbinin banisi, coğrafiyaçı (1845-1918)) anlamında passibilizmin (geosiyasətdə mümkün olan) İlham Əliyevin üçtərəfli əməkdaşlıq formatları kontekstində məna çalarlarının zənginliyi III məqalədə aparılan təhlildən görünür. Ancaq bu anlayışın İlham Əliyevin praktiki fəaliyyətində yaradıcı nəzərə alınması xüsusi araşdırma tələb edir. Çünki birincisi, Azərbaycan Prezidentinin Cənubi Qafqazda dövlət üçün maksimum sayıla biləcək imkanları reallaşdırması mümkün olanın həyata keçməsi baxımından gözəl nümunədir, ikincisi, Azərbaycan liderinin vurğulanan istiqamətdə gətirdiyi yeniliklər passibilizmin digər geosiyasi anlayışlarla müqayisəsi fonunda daha aydın görünür. Həmin bağlılıqda "tətbiqi geosiyasət" anlayışının üzərində dayanmağa ehtiyac görürük. Səbəbini izah etməyə çalışacağıq.

Ümumilikdə müasir geosiyasi təlimlərdə "tətbiqi geosiyasət" anlayışı İva Lakost anlamında işlənilir, lakin o, geniş yayılmamışdır. Bizcə, bunun başlıca səbəbi anlayışın zəif və ya aktual olmayan məzmuna malik olub-olmaması ilə bağlı deyildir; qlobal geosiyasət tərəfdarlarının dominantlığı ucbatından belə hal yaranmışdır. Məsələnin bu tərəfinin nəzəri dərinliklərinə baş vurmadan tətbiqi geosiyasətin İ.Lakost anlamının özündə olan ziddiyyətli məqama baxaq.

### İva Lakost anlamında ziddiyyət

Keçən əsrin 70-ci illərinin sonlarında Avropada "daxili" və ya tətbiqi geosiyasət sürətlə yayılmağa başladı. Bu prosesdə İ.Lakost xüsusi rol oynadı. Onun mövqeyində orijinal olan geosiyasətə konkret dövlətin ərazi özəlliklərini dərk etmək üçün ayrıca yanaşmanın zəruriliyi prizmasında baxması ilə bağlı idi. Yəni ümumi halda İ.Lakost hesab edirdi ki, geosiyasi təlimlər yalnız dövlətlərarası münasibətlər sferasına tətbiq olunmamalıdır, onlardan dövlətin ərazi xüsusiyyətlərini öyrənməklə bağlı da yararlanmaq olar. Bunun üçün geosiyasətin öncəgörmə üsulu və normativ kimi anlamından imtina etmək lazımdır. Əvəzində geosiyasət konkret situasiyanı qiymətləndirməli və izah etməlidir. Burada faydalı olan məqam liderin dövlətin ərazi özəlliklərinin daxili qiymətləndirilməsində geosiyasi yanaşmadan istifadə etməsi ilə əlaqəlidir.

İ.Lakost məsələni haqlı olaraq müəyyən ərazidə müxtəlif qüvvələrin hakim olmaq rəqabəti ilə bağlayır. Bu məqam da ölkədaxili ərazidə hansı qüvvələrin hökm etməsi, yəni suverenliklə əlaqəlidir. Ancaq İ.Lakost bu posesdə əsas olaraq daxili qüvvələrin ərazi üzərində hakimiyyətlərini təmin etməkdən bəhs edir və onu "daxili geosiyasət" adlandırır. Bir başqa kontekstdə isə geosiyasətin dövlətlərarası münasibətlər sferasına da aid olduğu haqqında yazır. Bunun fonunda təbii olaraq hər hansı ərazi uğrunda rəqabətdə xarici qüvvələrin iştirakı məsələsi avtomatik meydana çıxır.

Bu ziddiyyətin fonunda İ.Lakostun çox maraqlı bir qənaəti vardır. Onun yanaşmasına görə, dövlətlər hər hansı ərazi uğrunda yalnız təbii zənginliyə görə deyil, əsas olaraq ərazinin "rəmzləşməsinə" görə mübarizə aparırlar. Bu, olduqca mühüm özəllikdir. "Rəmzləşmə" deyəndə İ.Lakost "siyasətin milli ölçüləri" çərçivəsində siyasi şüurda "kollektiv emosional qiymətləndirmə, etnik və dini ölçülərin geosiyasi dərki"ni nəzərdə tutur. Yəni əslində tətbiqi geosiyasətin əsas əhəmiyyəti ölkə ərazisinə təbii coğrafi determinantlarla yanaşı, "rəmzləşdirmə xüsusiyyətləri" prizmasında da baxmaqla bağlıdır.

Burada başlıca yeri ərazinin cəmiyyət tərəfindən kollektiv olaraq necə duyğusal dəyərə malik olması, milli, etnik və dini dəyərləndirməsi tutur. Təbii ki, bu özəlliyi liderin adekvat qavraması və ona uyğun siyasət yeritməsi çox aktual məqamdır. Faktiki olaraq toplumun ərazini emosional duyması, milli, etnik və dini dəyərləri "görmə", "mənalandırma" və qiymətləndirmə ənənəsini lider vizyon səviyyəsinə yüksəltməyi bacarmalıdır. Bu isə tətbiqi geosiyasəti bütövlükdə geosiyasətin qollarından biri kimi görməyi, yəni daxili geosiyasətdən ümumi geosiyasətə və əksinə keçidləri qəbul etməyi tələb edir. Təəssüf ki, İ.Lakost məhz bu keçidin astanasında dayanmış və "daxili geosiyasət sərhədini" aşa bilməmişdir.

İndi İ.Lakostun yanaşmasının bu nöqsanı fonunda İ.Əliyevin tətbiqi geosiyasəti üçtərəfli əməkdaşlıq platformalarına yaradıcı tətbiq etməsi özəlliyinə baxaq.

### İlham Əliyev yanaşması

Azərbaycan Prezidenti üçün həmişə ərazi məsələsi geosiyasi və siyasi kontekstdə müstəqil dövlətçilik baxımından ilk sırada yer almışdır. Buna əmin olmaq üçün sadəcə Milli ideyanın məzmununa nəzər yetirmək kifayətdir - ərazi bütövlüyünün bərpası. Bu zaman dövlət başçısı problemə iki istiqamətin qarşılıqlı əlaqəsində yanaşmışdır.

Birincisi, xarici böyük qüvvələrin və onların maşası olan Ermənistanın Azərbaycan ərazisini özlərinəxas qərəzliliklə "rəmzləşdirmələri"nin əsassız olduğunu dünyaya nümayiş etdirmək.

İkincisi, Azərbaycan cəmiyyətinin öz ərazimiz haqqında duyğusal, milli, etnik və dini "rəmzləşdirmə" özəlliyini daha da aktivləşdirmək və onun üstünlüyünü praktikada təmin etmək.

İlham Əliyev fəaliyyəti boyu bu yanaşmaya siyasi varislik prinsipi daxilində tam sadiq qalmış və qətiyyətli addımları ilə onu beynəlxalq aləmə qəbul etdirmişdir. Bununla Azərbaycan Prezidenti İ.Lakostun "tətbiqi geosiyasət" anlayışını Cənubi Qafqaz regionu reallıqları kontekstində genişləndirmiş və praktiki olaraq ilk dəfə daxili geosiyasətlə ümumiyyətlə geosiyasətin uğurlu sintezinə nail ola bilmişdir.

Bu əsasda Azərbaycan lideri ən azı iki məqsədə çatmışdır.

Birincisi, əsrlərdir ki, güclü qlobal dairələr tərəfindən motivə edilən Azərbaycan ərazilərinin əsassız rəmzləşdirilməsi prosesinin (əsas olaraq, həmin ərazilərin tarixi, siyasi, geosiyasi, mədəni, demoqrafik və dövləti aspektlərdə ermənilərə məxsus olması xəttinin) qarşısını almışdır.

İkincisi, Azərbaycan xalqının öz ölkəsinin ərazisini rəmzləşdirməsinin tarixi, siyasi, mənəvi, mədəni, geosiyasi və demoqrafik əsası olduğunu həm cəmiyyətə, həm də beynəlxalq aləmə sübut etmişdir. İlham Əliyev bu addımı ilə xalqın öz ərazisinə sahib çıxmaq ənənəsinə inamını və əminliyini yeni səviyyəyə yüksəltmişdir. Bu da özlüyündə millətin siyasi, geosiyasi, mədəni və bütövlükdə dövləti müstəqilliyinə alternativin olmadığı təsəvvürünü daha da gücləndirmişdir. Sosial aspektdə isə cəmiyyətdə həmrəyliyi və birliyi motivə etmişdir.

Praktiki baxımdan daha əhəmiyyətlisi bütün bu nəzəri incəliklərin üçtəfərli əməkdaşlıq platformalarında yeri və rolu məsələsi ilə bağlıdır. Daha doğrusu, "İlham Əliyevin yanaşmasının nəzəri xüsusiyyətləri konkret üçtərəfli əməkdaşlıq platformalarında necə ifadə olunmuşdur?" sualına cavab axtarmaq gərəkdir.

### Tətbiqi geosiyasət və üçtərəfli əməkdaşlıq platformaları

Üçtərəfli əməkdaşlıq formatlarında İlham Əliyev təsadüfən enerji və milli təhlükəsizlikləri bir-biri ilə sıx bağlılıqda təqdim etmir. Azərbaycanın təşəbbüs etdiyi hər bir əməkdaşlıq formatında milli təhlükəsizlik məsələsi aktual qəbul edilir. Burada ərazi toxunulmazlığı və sabitliyin təmini nəzərə alınır. Bu isə dövlətin suverenliyinin tam təmin edilməsi şəraitində mümkün ola bilər. Suverenlik məsələsi birbaşa ərazi bütövlüyü ilə əlaqəlidir, çünki dövlət o zaman tam suveren olur ki, ərazisinin hər qarışı üzərində hökmranlığa malikdir.

Belə alınır ki, Azərbaycan Prezidenti öncədən üçtərəfli əməkdaşlıq formatlarının iqtisadi, maliyyə və digər qazanclarının geosiyasi effektini ərazi bütövlüyünün təmini üçün dividentə çevirməyi hədəfləmişdir. Bunun əsas motivəedici faktoru kimi İlham Əliyev çıxışlarında xalqın suverenliyi hüququnu, cəmiyyətin ölkənin ərazi bütövlüyünü müqəddəslişdirilmiş rəmzi haqqında təsəvvürlərini daim vurğulamışdır.

Bu məqamlar dövlət başçısının müxtəlif çıxışlarında "Azərbaycan həmişə müstəqil siyasət yeridəcəkdir və ərazisinin bir qarışını da kimsəyə güzəştə getməyəcəkdir", "Azərbaycan öz ərazisində ikinci erməni dövləti yaradılmasına imkan verməyəcəkdir", "Azərbaycan unitar dövlətdir", "biz necə olur-olsun torpaqlarımızı işğaldan azad edəcəyik", "Azərbaycan xalqı öz suverenliyini təmin edəcəkdir", "bizim dədə-babalarımız torpağa çox bağlı olmuşlar, onu müqəddəs saymışlar", "azərbaycanlılar tarix boyu torpaq məsələsini namus, qeyrət məsələsi kimi qəbul etmişlər", "azərbaycanlılar Vətən uğrunda şəhid olmağı müqəddəs borc hesab edirlər" və digər fikirlərdə əksini tapmışdır. Azərbaycan xalqı II Qarabağ müharibəsi zamanı Azərbaycan liderinin tam olaraq reallığı ifadə etdiyini hərb meydanında sübut etdi. Azərbaycan dövləti bir qarış torpağını güzəştə getmədi, bütün ərazidə suverenliyini təmin etdi, bütün Azərbaycan cəmiyyəti Vətən uğrunda, torpaq uğrunda sıx birləşdi və bir nəfər də olsun ordudan yayınmadı.

Qələbədən dərhal sonra Azərbaycanın təşəbbüs etdiyi üçtərəfli əməkdaşlıq platformaları öz səmərəsini yeni səviyyədə göstərməyə başladı. Həmin əməkdaşlıq formatının iştirakçısı olan bütün dövlətlər Azərbaycanın Qarabağdakı bərpa işlərinə yaxından dəstək verirlər, beynəlxalq meydanda Bakını müdafiə edirlər və yeni əməkdaşlıq formatlarında maraqlı olduqlarını bəyan edirlər. Bunun son nümunələrindən biri Azərbaycan-Özbəkistan-Türkmənistan üçtərəfli əməkdaşlıq formatının yaranmasıdır.

Məlumdur ki, uzun müddət Türkmənistan Azərbaycanla əməkdaşlıqda müəyyən soyuqluq nümayiş etdirmişdir. Lakin İlham Əliyevin çox ağıllı və məharətli siyasəti sayəsində Türkmənistan Ağsaqqallar Şurasının Sədri Q.Berdıməhəmmədov Azərbaycana, o cümlədən Qarabağa səfər etdi və əməkdaşlığın yeni səviyyəsi başladı. Türkmənistanda Azərbaycan, Özbəkistan və Türkmənistan rəhbərlərinin görüşü isə rəsmi olaraq yeni bir çox perspektivli üçtərəfli əməkdaşlıq formatının meydana gəlməsinin təməlini qoydu. Verilən bəyanatlardan aydın olur ki, bu əməkdaşlıq formatı üçün də milli təhlükəsizlik təhükəsizliyin digər növləri ilə sıx bağlı qəbul edilir.

Azərbaycan-Qazaxıstan-Türkiyə, Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-Pakistan-Türkiyə, Azərbaycan-Suriya-Türkiyə, Azərbaycan-İsrail-ABŞ və digər üçtərəfli əməkdaşlıq formatlarına ümumi mövqedən baxsaq və yuxarıda vurğulanan məqamları nəzərə alsaq, mühüm bir qənaət əldə edərik. Cənubi Qafqaz tarixində ilk dəfə olaraq yerli dövlətlərdən biri "strateji paytaxt" statusuna çata bilər. Həmin dövlət Azərbaycan Respublikasıdır. Bu məqsədə Bakı əsas olaraq əməkdaşlıq platformalarına yaradıcı yanaşmaqla çatmaq şansı əldə etmişdir.

Həmin məsələni təhlil etmək üçün "strateji paytaxt" anlayışı ilə yanaşı, "daxili ox", geosiyasi şüa" və "geosiyasi parça" anlayışlarının da nəzərə alınması zəruridir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan–İran münasibətlərindəki müsbət dinamika region üçün strateji əhəmiyyət daşıyan Zəngəzur dəhlizi məsələsində də öz əksini tapır. İranın layihəyə əvvəllər ehtiyatla yanaşması onun bölgədəki geosiyasi balanslara həssas münasibətindən irəli gəlirdi. Lakin zamanla Tehran bu layihənin regional ticarət və tranzit imkanlarını genişləndirə biləcəyini, eyni zamanda, iqtisadi maraqlarına uyğun olduğunu anladı. Bu isə ölkənin mövqeyində daha praqmatik və konstruktiv yanaşmanın formalaşmasına səbəb oldu.

İranın xarici işlər naziri Abbas Əraqçinin Zəngəzur dəhlizi ilə bağlı son açıqlaması da müsbət tendensiyanı göstərir. Nazir bildirib ki, İranın "qırmızı xətlər"i qorunub və baş verənlərə balanslı, obyektiv yanaşmaq lazımdır. Onun vurğuladığı əsas məqam regionda sabitliyin qorunması və Vaşinqtonda bütün maraqlı tərəflərin narahatlıqlarının və ərazi bütövlüyünün nəzərə alınmasıdır. Bu, İranın regionda sülh və əməkdaşlıq tərəfdarı olduğunu müsbət hesab edirik. Mən rəsmi mövqe deyəndə Prezidentin, xarici işlər nazirinin mövqeyini nəzərdə tuturam. Bu, rəsmi mövqe hesab olunur".

*

Onu da qeyd edək ki, İranın narahatlığı həm də iqtisadi məntiqlə izah olunur. Ölkədə belə bir fikir formalaşmışdı ki, Zəngəzur dəhlizinin reallaşması İrandan keçən yolun rəqabət qabiliyyətini azaldacaq. Xüsusilə Araz dəhlizi vasitəsilə "materik" Azərbaycanla Naxçıvan arasında mövcud kommunikasiya xəttinin zəifləyə biləcəyi fikri İranı ehtiyatlı olmağa vadar edirdi.

Bəs Zəngəzur dəhlizi işə düşdükdən sonra Azərbaycan Araz dəhlizindən istifadə edəcəkmi? Regionda marşrutların çoxluğu heç vaxt problem deyil. Əksinə, bu, ölkələrə daha çox çeviklik, sabitlik və iqtisadi fayda verir. Tehran indi bu yoldan fayda götürmək üçün öz tranzit imkanlarını genişləndirməyə və marşrutlarını daha cəlbedici etməyə çalışır. Bu da onu göstərir ki, regionda yaranan yeni nəqliyyat və tranzit imkanları qarşıdurma yox, əksinə, əməkdaşlıq üçün fürsət yaradır.

# İranın Zəngəzur narahatlığı: Gerçək səbəblər və regional maraqlar




göstərsə də, həm də sülhün ölkənin strateji maraqları ilə ziddiyyət təşkil etməməsi şərti ilə həyata keçirilməsini istədiyini ortaya qoyur.

İran üçün əsas məsələ regional balansın qorunması, ölkənin tranzit imkanlarının zəifləməməsi və yeni yaranacaq regional düzəndə yer almaqdır. "Qırmızı xətlər" dedikdə yalnız siyasi deyil, həm də iqtisadi və strateji narahatlıqlar nəzərdə tutulur. Bu yanaşma İranın Cənubi Qafqazda dəyişən geosiyasi reallıqlara uyğun şəkildə siyasətini yenidən nəzərdən keçirdiyini və daha çevik mövqe tutduğunu göstərir. Əvvəllər Zəngəzur dəhlizinə qarşı sərt ritorikalar səsləndirən Tehran indi bu layihənin reallığını qəbul edir və prosesin iştirakçısına çevrilməyə çalışır.

Onu da qeyd edək ki, İran Prezidenti Məsud Pezeşkianın dəhlizlə bağlı mövqeyində də müsbət dəyişiklik var. "Bu dəhlizlə bağlı deməliyəm ki, məsələ xəbərlərdəki kimi şişirdilmiş deyil və bizdə olan məlumata görə, İranın ərazi bütövlüyü ilə bağlı tələbləri yerinə yetirilib".

Pezeşkianın bu bəyanatı son aylarda İran rəsmilərinin, xüsusən də Ali rəhbərin müşaviri Əli Əkbər Vilayətinin səsləndirdiyi sərt mövqe fonunda gözlənilməz yumşalma kimi qiymətləndirilir. Xatırladaq ki, Vilayəti Zəngəzur dəhlizi layihəsini İranın milli birliyi və ərazi bütövlüyünə "böyük təhdid" adlandırmış, bu təşəbbüsün Cənubi Qafqazdakı geosiyasi balansı poza biləcəyini iddia etmişdi. Pezeşkian isə əksinə, məsələyə daha praqmatik yanaşaraq Tehran üçün əsas olan ərazi bütövlüyü prinsiplərinin qorunduğunu vurğulayıb. Bu mövqe dəyişimi Ermənistan və Azərbaycanın regiondakı birgə təşəbbüsünə qarşı sərt ritorika nümayiş etdirən bəzi İran siyasi dairələrinə də dolayı cavab xarakteri daşıyır.

İran Prezidenti İrəvana yola düşməzdən əvvəl verdiyi açıqlaması da maraq doğurur. O, Zəngəzur dəhlizinin Şərq–Qərb ticarət yollarının genişləndirilməsi üçün yaxşı platforma ola biləcəyini vurğulayıb: "Bu dəhliz mövcud sərhədləri qoruyur. Yol, sadəcə, nəqliyyat əlaqəsini təmin edir. İranın Avropaya və Şimala tranzitinə mane olmur. Yeganə narahatlıq tikintidə ABŞ-a məxsus şirkətin iştirak etməsidir". Deyilənlərə görə, o, prosesin detalları barədə əvvəlcədən məlumatlı olub. Bu da onun Zəngəzur dəhlizi ilə bağlı mövqeyinin təsadüfi deyil, düşünülmüş diplomatik strategiyaya söykəndiyini göstərir. İran Prezidentinin mövqeyi Cənubi Qafqazda sülh prosesinə əlavə təkan verə, həmçinin Tehran və Bakı arasında dialoqun intensivləşməsinə şərait yarada bilər.

Bu məsələ ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində deyib: "Bu, həqiqətən də yaxşı fürsətdir. Düşünürəm ki, bizim şəxsi münasibətlərimiz və onun administrasiyası ilə mənim administrasiyam arasında münasibətlər çox konstruktiv, çox mehribandır. İranın yeni hadisələrlə bağlı rəsmi mövqeyinə gəlincə, biz bunu çox əsaslı və çox

İran marşrutu Azərbaycanın strateji hədəfləri baxımından çoxşaxəli əhəmiyyət daşıyır. Bu yol yalnız Naxçıvanla quru əlaqənin bərpası üçün deyil, həm də daha geniş regional və qlobal ticarət əlaqələrinin qurulması baxımından xüsusi rol oynayır. İran üzərindən keçən marşrut vasitəsilə Azərbaycan Fars körfəzinə, daha sonra Cənubi Asiya, Hind okeanı regionuna çıxış əldə edir. Bu isə Azərbaycanın Şimal–Cənub və Şərq–Qərb nəqliyyat dəhlizləri arasında körpü rolunu daha da möhkəmləndirir, onu regional tranzit mərkəzinə çevirir.

Bu mənzərədə İran üçün də ciddi imkanlar yaranır. Zəngəzur dəhlizinin reallaşması və regionda yeni nəqliyyat infrastrukturunun qurulması Tehranın həm Rusiya, həm də Avropa ilə əlaqələrinin genişlənməsinə yol açır. İran öz məhsullarını Türkiyədən, Qafqazdan keçməklə Avropa bazarına çıxara, eyni zamanda, Rusiya ilə daha çevik və alternativ ticarət yolları quraraq sanksiyaların yaratdığı iqtisadi təzyiqləri yumşalda bilər. Tehran üçün bu marşrutlar yalnız iqtisadi deyil, həm də geosiyasi baxımdan əhəmiyyətlidir.

**Mövzu ilə bağlı politoloq Cəsarət Hüseynzadə XQ-yə dedi ki, marşrutlar regional əməkdaşlığın genişlənməsi, ticarətin şaxələndirilməsi və geosiyasi balansın qorunması üçün vacibdir:**



– Azərbaycan üçün bu layihələrin əhəmiyyəti yalnız iqtisadi deyil, həm də siyasi müstəvidədir. Ölkəmiz regional tranzit qovşağına çevrilməklə, beynəlxalq tərəfdaşları ilə əməkdaşlığı gücləndirir, yeni kommunikasiya xətləri vasitəsilə enerji və logistka layihələrinə əlavə dəyər qazandırır. Bu, Azərbaycanın "Şərq–Qərb" və "Şimal–Cənub" nəqliyyat dəhlizlərində mövqeyini daha da gücləndirməsinə, ölkəni regionun əsas tranzit oyunçularından birinə çevirməsinə imkan verir.

İran üçün isə bu marşrut, xüsusilə sanksiyalar fonunda, iqtisadi nəfəs yolu kimi çıxış edir. Bununla İran beynəlxalq bazarlara daha asan çıxış imkanı əldə edir, həm Qafqaz, həm də Avrasiya regionu ilə əlaqələrini dərinləşdirir. Tranzit yüklərin artması İranın daxili iqtisadiyyatına əlavə gəlir gətirir və regionda siyasi təsir imkanlarını gücləndirir.

Ümumilikdə, bu marşrutların reallaşması regional inteqrasiyanı təşviq edir, qonşu dövlətlər arasında etimadı möhkəmləndirir və qlobal enerji və logistika xəritəsində Cənubi Qafqazın rolunu artırır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# AİB ölkəmizin dayanıqlı inkişaf üzrə strateji tərəfdaşıdır

## *"Yaşıl enerji", "rəqəmsal ipək yolu", "IV sənaye inqilabı" əməkdaşlığın üstün yönləridir*

**Ölkəmiz Avropa İnvestisiya Bankı (AİB) ilə sahibkarlığa dəstək, infrastruktur layihələri və digər istiqamətlər üzrə birgə fəaliyyətin gücləndirilməsini müzakirə edib. İqtisadiyyat Nazirliyinin məlumatına görə, bu barədə müzakirələr iqtisadiyyat nazirinin müavini Səməd Bəşirlinin AİB-in Cənubi Qafqaz üzrə Regional Nümayəndəliyinin rəhbəri Matsey Çura ilə görüşündə ətraflı söhbət aparılıb.**




Görüşdə Azərbaycanın beynəlxalq maliyyə qurumu ilə uzunmüddətli tərəfdaşlığının ölkənin iqtisadi inkişafı baxımından mühüm önəm daşıdığı vurğulanıb. Bankla infrastruktur, özəl sektora dəstək, rəqəmsal inkişaf və digər istiqamətlər üzrə səmərəli tərəfdaşlığın həyata keçirilməsi yüksək dəyərləndirilib.

Qeyd edək ki, ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra qarşıya çıxan ən mühüm vəzifələrdən biri milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiyası, xarici investisiyaların cəlbi və beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın genişləndirilməsi idi. Bu istiqamətdə Avropa İttifaqının (Aİ) əsas maliyyə qurumu olan Avropa İnvestisiya Bankı ilə tərəfdaşlıq xüsusi əhəmiyyət kəsb edib.

Aİ AİB tərəfindən 1991-ci ildə yaradılan Avropa İnvestisiya Bankının əsas missiyası Avropa və onun tərəfdaş ölkələrində iqtisadi sabitlik, sosial rifah və davamlı inkişafın təşviqidir. Bank, xüsusilə keçid dövrünü yaşayan ölkələr üçün bazar iqtisadiyyatı prinsiplərinin tətbiqində, infrastrukturun modernləşdirilməsində və maliyyə resurslarının səmərəli idarə edilməsində mühüm dəstək mexanizmi rolunu oynayıb.

Azərbaycanın 1992-ci ildə AİB-ə üzv qəbul olunması ölkəmizin iqtisadi inkişafına yeni imkanlar açdı. Bu hadisə həm də Azərbaycanın beynəlxalq iqtisadi sistemdə etibarlı tərəfdaş kimi qəbul edilməsinin göstəricisi idi. Çünki 1990-cı illərin əvvəlləri Azərbaycan iqtisadiyyatı üçün mürəkkəb dövr idi. Siyasi qeyri – sabitlik, Qarabağ müharibəsi, bazar iqtisadiyyatına keçidin yaratdığı çətinliklər ölkənin inkişaf imkanlarını məhdudlaşdırırdı. Belə şəraitdə beynəlxalq maliyyə qurumlarının dəstəyi həyati əhəmiyyət daşıyırdı.

AİB-in respublikamızdakı ilk investisiya layihələri əsasən enerji sektoruna yönəldi. Azərbaycanın zəngin neft və qaz ehtiyatlarının beynəlxalq bazarlara çıxarılması istiqamətində həyata keçirilən layihələrdə bu maliyyə qurumunun rolu xüsusilə nəzərəçarpan oldu. Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəməri və "Şahdəniz" qaz yatağı layihəsi kimi strateji layihələrin maliyyələşdirilməsi AİB-in ölkəmizin enerji siyasətinə verdiyi töhfənin bariz nümunəsi kimi dəyərləndirildi. Bu layihələr təkcə Azərbaycanın iqtisadi imkanlarını genişləndirmədi, həm də ölkəmizi Avropanın enerji təhlükəsizliyində mühüm tərəfdaşa çevirdi.

Enerji sahəsindən sonra AİB-in fəaliyyət istiqamətlərindən biri də Azərbaycanın maliyyə sektorunun gücləndirilməsi oldu. 2000-ci illərin əvvəllərində maliyyə qurumu müxtəlif kommersiya banklarına kredit xətləri açaraq kiçik və orta biznesin maliyyəyə çıxışını asanlaşdırdı. Bu addım ölkədə sahibkarlığın inkişafına, yeni iş yerlərinin yaradılmasına və iqtisadiyyatın şaxələndirilməsinə şərait yaratdı. Mikro, kiçik və orta sahibkarlığa verilən kreditlər təkcə paytaxtda deyil, regionlarda da iqtisadi fəallığın artmasına müsbət təsir göstərdi. Nəticədə AİB-in dəstəyi ilə ölkədə iqtisadi fəaliyyətin coğrafiyası genişləndi, qeyri – neft sektorunda rəqabətqabiliyyətli müəssisələrin formalaşmasına imkan yarandı.

Respublikamızın coğrafi mövqeyi ölkəni mühüm nəqliyyat qovşaqlarından birinə çevirib. Bu üstünlüyün reallaşdırılması üçün yol, dəmir yolu və logistika infrastrukturu sahəsində iri layihələrə ehtiyac var idi. AİB bu istiqamətdə də Azərbaycanın əsas tərəfdaşlarından biri oldu. Bankın dəstəyi ilə Bakı Limanı və dəmir yolu şəbəkəsinin modernləşdirilməsi, eləcə də regionlarda avtomobil yollarının yenilənməsi həyata keçirildi. Bu layihələr Azərbaycanın Şərq – Qərb və Şimal – Cənub nəqliyyat dəhlizlərində strateji mövqeyini möhkəmləndirdi, ölkənin tranzit imkanlarını artırdı və logistika xidmətlərinin inkişafına şərait yaratdı.

Son illərdə Azərbaycanın inkişaf strategiyasında "yaşıl" enerji və ekoloji davamlılıq əsas prioritetlərdən birinə çevrilib. Bu istiqamətdə də AİB ilə əməkdaşlıq yeni mərhələyə qədəm qoyub. Bank ölkəmizdə bərpa olunan enerji mənbələrinin inkişafına, günəş və külək enerjisi layihələrinin maliyyələşdirilməsinə dəstək göstərib. Bundan başqa, enerji səmərəliliyinin artırılması, tullantıların idarə olunması və ekoloji təmiz texnologiyaların tətbiqi sahəsində də bu beynəlxalq maliyyə qurumunun təcrübəsi Azərbaycanın dayanıqlı inkişaf məqsədlərinə əhəmiyyətli töhfə verib.

Azərbaycan iqtisadiyyatının qarşısında duran əsas çağırışlardan biri neft gəlirlərindən asılılığın azaldılması və qeyri – neft sektorunun inkişafıdır. Bu baxımdan AİB-lə əməkdaşlığın gələcəkdə kənd təsərrüfatı, rəqəmsal iqtisadiyyat, regionların inkişafı və sosial infrastruktur layihələrinin maliyyələşdirilməsində mühüm rol oynayacağı gözlənilir.

Aİ-nin "Yaşıl razılaşma" və "Rəqəmsal transformasiya" təşəbbüsləri ilə Azərbaycanın "yaşıl enerji zonası", "rəqəmsal ipək yolu" və 4-cü Sənaye İnqilabı Mərkəzi kimi prioritetləri arasında ortaq məqamların mövcudluğu da gələcək əməkdaşlığın konturlarını müəyyənləşdirir.

Ümumilikdə, AİB ilə Azərbaycan arasında 30 ildən artıq davam edən əməkdaşlıq ölkəmizin iqtisadi inkişafında mühüm rol oynayıb. Enerji sektorundan başlayaraq maliyyə, infrastruktur və ekoloji layihələrə qədər geniş sahələri əhatə edən bu tərəfdaşlıq respublikamızın beynəlxalq iqtisadi sistemdə mövqelərinin möhkəmlənməsinə, dayanıqlı inkişaf strategiyasının reallaşmasına əhəmiyyətli töhfə verib. Ötən dövrdə bank ilə əməkdaşlıq Azərbaycanın yalnız iqtisadi deyil, həm də siyasi baxımdan Avropa ilə əlaqələrinin dərinləşməsinə müsbət təsir göstərib.

# TDT qardaş ölkələrin ortaq maraqlarını regional gücə çevirir

## *Azərbaycanın bu dövlətlərlə ticarət dövriyyəsi 8 faiz artıb*



**Dövlət Gömrük Komitəsinin hesabatı əsasında aparılan hesablamalara görə, bu ilin yanvar – iyul aylarında Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrlə ticarət dövriyyəsi 8 faiz (ötən ilin eyni dövrü ilə müqayisədə 8,3 faiz və ya 324,3 milyon ABŞ dolları çox) artıb. Hesabat dövründə respublikamızın Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrlə ticarət dövriyyəsi 4,228 milyard ABŞ dolları təşkil edib, ticarət dövriyyəsi isə Azərbaycanın ümumi ticarət dövriyyəsinin 14,6 faizinə çatıb.**

Qeyd edək ki, hesabat dövründə ölkəmizin Türkiyə ilə ticarət dövriyyəsi əvvəlki illə müqayisədə 6,5 faiz azalaraq 3 milyard dollara, Qırğızıstanla ticarət dövriyyəsi iki dəfə artaraq 40 milyon dollara, Qazaxıstanla ticarət dövriyyəsi 3,8 dəfə artaraq 517 milyon dollara, Özbəkistanla ticarət dövriyyəsi isə 2,3 dəfə artaraq 269 milyon dollara bərabər olub.

Xatırladaq ki, TDT 2009-cu il oktyabrın 3-də Naxçıvan şəhərində keçirilən Zirvə Görüşündə imzalanmış "Naxçıvan sazişi"nə əsasən yaradılıb. Təşkilat təsis olunarkən adı Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası olub. 2021-ci ildə qurumun adına dəyişiklik edilib və hazırda Türk Dövlətləri Təşkilatı adı ilə fəaliyyətini davam etdirir. Azərbaycan təşkilatın 4 təsisçi ölkəsindən biridir və hazırda təşkilatın 5 üzv dövləti – Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyə var. Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikası isə təşkilatda müşahidəçi statusa malikdir.

Beynəlxalq aləmdə ölkəmizin türk dövlətləri ilə əməkdaşlığı prioritet istiqamət olaraq yüksək qiymətləndirilir, təşkilat çərçivəsində bütün platformalarda yaxınlaşmanı gerçəkləşdirən təşəbbüslər dəstəklənir. Ölkələrimizin sənaye, elm, texnologiya və innovasiya sahəsində əməkdaşlığı türk dövlətləri arasında iqtisadi işbirliyinin təməl sütunlarını təşkil edir. Bu sahələr arasında qarşılıqlı fəaliyyətin yaratdığı sinerji texnoloji tərəqqiyə dəstək verməklə dayanıqlı iqtisadi artımda əvəzsiz rol oynayır.

TDT ölkələri arasında əməkdaşlıq əlaqələrinin əsas inkişaf istiqamətlərindən biri də iqtisadi sahədə tədqiqat və inkişaf fəaliyyətlərinin gerçəkləşdirilməsidir. Təşkilat çərçivəsində bu istiqamətdə reallaşdırılan layihələr nəticəsində birgə tədqiqat institutlarının formalaşdırılması, birgə tədqiqat layihələrinin dəstəklənməsi, elmi – texnoloji nailiyyətlərin və ən yaxşı təcrübələrin mübadiləsi, texnologiya transferi mərkəzlərinin yaradılması ümumi rifaha müsbət töhfə verib.

# Su ehtiyatlarından necə istifadə edilir?



**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin bir qrup əməkdaşı "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın icrasının monitorinq və qiymətləndirilməsi məqsədilə regionlarda səfərdə olub. Onlar strategiyada nəzərdə tutulan tədbirlərə və uğurla icra olunan layihələrə yerində baxış keçiriblər.**

Nümayəndə heyətinə Dövlət Su Ehtiyatları Agentliyi, Kənd Təsərrüfatı, Fövqəladə Hallar, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, eləcə də yerli icra qurumları əməkdaşlarının da daxil olduqları səfər çərçivəsində Şabran rayonunda Taxtakörpü su anbarı, suvarılan torpaqlar üçün mövcud suvarma kanallarının yaxşılaşdırılması, Quba rayonunda içməli su təhcizatı üzrə 6,5 kilometr magistral su kəməri və sutəmizləyici qurğu mərkəzi və Qudyalçayda sahilbərkitmə işləri, Qırmızı qəsəbədə yaşayış evlərinin və həyətyanı sahələrin sel və daşqın sularından mühafizəsi ilə bağlı görülən işlər təhlil edilib.

Sonra Qusar rayonunda Samur – Abşeron kanalı, Xaçmaz rayonunda Vəlvələçay keçidində 1-ci Şollar su kəmərində sel sularından mühafizə sistemi, Qəbələ rayonunda Türyançay sol və sağ sahil kanallarının yenidən qurulması, Oğuz rayonunda Oğuz – Qəbələ – Bakı su kəməri, Əlicançay su anbarının tikintisi, Şəki rayonunda Kişçay və Qanıxçayın betonlanması və təmizlənməsi, Mingəçevir su anbarında və Şəmkirçay su anbarında həyata keçirilən yenidənqurma layihələri ilə ətraflı tanışlıq olub.

Mərkəzin icraçı direktoru Vüsal Qasımlı bildirib ki, sözügedən milli strategiya çərçivəsində nəzərdə tutulan layihələr uğurla icra olunur, irimiqyaslı layihələr üzrə işlər sürətlə davam edir. Həmin strategiyanın icrası su ehtiyatlarının artırılmasını, keyfiyyətli içməli su və suvarma suyu ilə təminatın yaxşılaşdırılmasını, bu sahədə idarəetmənin müasirləşdirilməsini nəzərdə tutur.

Strategiyanın icrası çərçivəsində su ehtiyatlarının qiymətləndirilməsi və proqnozlaşdırılması sisteminin təkmilləşdirilməsi, su ehtiyatlarının səmərəli idarə edilməsi, su ehtiyatlarından səmərəli istifadə, su təhlükəsizliyinin gerçəkləşdirilməsi, Qarabağ və Şərqi Zəngəzurun su ehtiyatları potensialından istifadə layihələri uğurla icra olunur.

Qeyd edək ki, Prezident İlham Əliyevin 10 oktyabr 2024-cü il tarixli sərəncamına əsasən, adı çəkilən milli strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Nazirlər Kabinetinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirir.

# STAR NEZ 13 milyon ton zirvəsində

**Azərbaycan Dövlət Neft Şirkətinin Türkiyədə yerləşən STAR Neft Emalı Zavodu xam neftin emalını və neft-kimya sənayesinin inteqrasiyasını təmin edir. Dünyanın ən rəqəmsal neft emalı müəssisəsində hazırda ən yeni texnologiyalar əsasında dizel, nafta, reaktiv yanacaq, qarışıq ksilol, neft koksu və mayeləşdirilmiş neft qazı kimi məhsullar istehsal edilir. Türkiyə iqtisadiyyatının real sektorunda ən böyük investisiya hesabına ərsəyə gətirilən müəssisənin istehsal göstəriciləri getdikcə yaxşılaşır.**

Türkiyənin Enerji Bazarlarını Tənzimləmə İdarəsinin məlumatına görə, 2025-ci ilin iyun ayında STAR NEZ 891 min 976 ton xam neft idxal edib. Bu isə əvvəlki ilin eyni ayı ilə müqayisədə 29 min 623 ton və ya 3,4 faiz artım deməkdir. Bununla yanaşı, hesabat ayında zavodda təqribən 28 min 529 ton mayeləşdirilmiş neft qazı istehsal olunub. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 20 min 247 ton və ya 3,4 dəfə çoxdur.

Cari ilin yanvar-iyun aylarında zavodda 3 milyon 345 min 694 tondan çox dizel yanacağı istehsal edilib. Bu da ötən ilin eyni dövrünə nisbətən 217 min 984 ton və ya 6,97 faiz çoxdur. Hesabat dövründə müəssisədə reaktiv mühərriklər üçün kerosin yanacağı (aviayanacaq) istehsalı 838 min 224 tona çatıb. Bu göstərici isə 2024-cü ilin eyni dövrü ilə müqayisədə 296 min 936 ton və ya 54,8 faiz artıqdır.

İyun ayında zavodda 58 min 583 ton neft koksu istehsal edilib. Bu da illik müqayisədə 8 min 102 ton və ya 12,1 faiz artım deməkdir. Müqayisə üçün qeyd edək ki, 2024-cü ilin iyun ayında burada neft koksunun istehsalı 66 min 685 ton təşkil edib.

Qeyd edək ki, STAR NEZ 2018-ci il oktyabrın 19-da istifadəyə verilib. Həmin ilin sentyabr ayından etibarən zavod tam gücü ilə işləməyə başlayıb. Müəssisənin emal gücü ötən il 10 milyon ton həcmində müəyyənləşdirilsə də, sonradan istehsal prosesinin genişləndirilməsi ilə əlaqədar bu həcm 13 milyon tona çatdırılıb.

STAR NEZ 2023-cü ildə Türkiyənin emal olunmuş neft məhsullarına ehtiyacının, təxminən, 18 faizini ödəyib. Zavodun illik nafta istehsalı isə, demək olar ki, Petkim neft-kimya kompleksinin xammal tələbatını tam şəkildə qarşılayır. Hazırda müəssisədə "Urals", "Azeri Light" və "Kərkük" neft növlərini emal etmək mümkündür.




# BP və tərəfdaşlarının icmalara dəstəyi davam edir

**Xəzər dənizinin Azərbaycan sektorundakı neft-qaz layihələrinin uğuru həm də əməliyyatçının ölkə əhalisi üçün bu layihələr vasitəsilə hiss edilən faydalar yaratmaq bacarığından asılıdır. Buna nail olmaq üçün regionda mühüm neft və qaz layihələrinin əməliyyatçısı olan BP şirkəti və tərəfdaşları mühüm sosial investisiya proqramları həyata keçirməyə davam edir.**

Həmin layihələrə təhsil proqramları, yerli icmalarda bacarıq və qabiliyyətlərin yaradılması vasitəsilə yeni imkanların açılması, icmalarda sosial infrastrukturun təkmilləşdirilməsi, maliyyə vəsaitlərinə çıxışın təmin edilməsi və təlim vasitəsilə yerli müəssisələrə dəstək, mədəni irs və idmanın inkişafına dəstək, eləcə də hökumət qurumlarına texniki yardım daxildir.

2025-ci ilin birinci yarısında BP və onun əməliyyatçısı olduğu "Azəri-Çıraq-Günəşli", Bakı-Tbilisi-Ceyhan, "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri layihələrdəki tərəfdaşları belə sosial investisiya layihələrinə Azərbaycanda, təxminən, 0,7 milyon dollar vəsait xərcləyiblər. İlin ilk 6 ayı ərzində bu layihələrə hazırda davam edən 17 təhsil və yerli bacarıqların yaradılmasını, eləcə də sahibkarlığın inkişafını dəstəkləyən 1 proqram daxil idi.

Bundan əlavə, BP ayrıca bir şirkət kimi öz adından Azərbaycanda sponsorluq etdiyi layihələrə ilin birinci yarısında təxminən 0,4 milyon dollar vəsait xərcləyib. Bunlara hazırda davam edən 19 təhsil təşəbbüsü, yerli bacarıqların yaradılmasını və sahibkarlığın inkişafını dəstəkləyən 1 layihə, ətraf mühit üzrə 5 təşəbbüs və müxtəlif mövzularda 7 konfrans və seminara dəstək kimi, ümumilikdə, 32 layihə daxildir.

**Səhifəni hazırladılar:**
**Vaqif BAYRAMOV,**
**Mirbağır YAQUBZADƏ**
**XQ**

# Aman tıxac əlindən...

## “Ağıllı” yol texnologiyaları paytaxtın bu probleminə son qoya biləcəkmi?

**Problem yeni deyil, illər boyu yaranıb, artıb: “Bugünkü müşavirədə biz Bakı şəhərinin və onun ətrafında yerləşən ərazilərin nəqliyyat infrastrukturunun inkişafını müzakirə edəcəyik. Buna ehtiyac var. Baxmayaraq ki, son illər ərzində bu istiqamətdə bir çox işlər görülmüşdür, böyük infrastruktur layihələri icra edilmişdir, yenə də Bakı şəhərində tıxac müşahidə olunur və əfsuslar olsun ki, tıxacların sayı ildən-ilə artır. Bunun təbii səbəbləri var. Ölkəmizin, o cümlədən Bakı şəhərinin əhalisi ildən-ilə artır. Son 30 il ərzində Azərbaycan əhalisi 7 milyondan 10 milyona çatıb, hətta o rəqəmi də ötüb. Əlbəttə ki, vaxtilə yaradılmış şəhər yol infrastrukturu, o cümlədən metro imkanları bu artımı həzm edə bilmir”.**



28 yanvar 2025-ci ildə Prezident İlham Əliyevin nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə dövlət başçısı problemə münasibətini belə açıqlamışdı. Ölkə rəhbərliyi nəqliyyat məsələlərini həmişə diqqət mərkəzində saxlayıb. Son 15 ildə Bakı şəhərində bir çox böyük layihələr icra edilib, yeni metro stansiyaları istifadəyə verilib, yol qovşaqları, tunellər, körpülər inşa edilib, yeni yollar salınıb. Əgər bu işlər görülməsəydi, bu gün Bakı şəhərində nəqliyyat iflic vəziyyətinə düşərdi.

Son illər ərzində Bakı şəhərində avtomobilləşmə səviyyəsinin getdikcə yüksəlməsi, ölkə iqtisadiyyatının sürətli inkişafı fonunda əhalinin keyfiyyətli nəqliyyat xidməti tələblərinin artması səbəbindən ictimai nəqliyyat sisteminin daha təkmil qurulması və genişləndirilməsi, nəqliyyat yerdəyişmələrinin gerçəkləşdirilməsində ictimai nəqliyyatın xüsusi payının diqqətdə saxlanılması, şəhərin nəqliyyat planlaşdırma strukturunun tamamlanması və əsas nəqliyyat marşrutları arasında fiziki və məntiqi bağlılığın reallaşdırılması qarşıya mühüm vəzifə kimi qoyulub.

Qeyd edilən hədəflərin reallaşması məqsədilə 2040-cı ilədək bir dövrü əhatə edən Bakı şəhərinin Baş planında əsas nəqliyyat məsələlərinin həlli də xüsusi diqqət çəkir. Bura metro və dəmir yolu nəqliyyatı sistemlərinin, küçə–yol şəbəkələrinin təkmilləşdirilməsi, velosiped yollarının, tranzit qovşaqların yaradılması, xüsusi ictimai nəqliyyat zolaqlarının genişləndirilməsi və inkişafı layihələri daxildir.

Bütün yuxarıda diqqətə yönəldilən məsələlərin uğurlu həlli şübhəsiz ki, son nəticədə paytaxtda mövcud tıxac probleminin aradan qaldırılmasını şərtləndirir. Yeri gəlmişkən, tıxaclar, ümumiyyətlə, müasir şəhərlərin ən ciddi problemlərindən biridir. Hər gün iş, məktəb, alış–veriş və s. üçün nəqliyyatdan istifadə edilir. Bu zaman çoxumuz tıxaca düşürük, nəinki vaxtımız gedir, həm də əsəblərimiz sınağa çəkilir. Bu “yol macəraları” təkcə şəxsi həyata, eləcə də bütün iqtisadiyyata mənfi təsir göstərir. Bir sözlə, tıxaclar vaxt itkisi, yanacaq xərcləri, təchizat zənciri pozuntuları, sağlamlıq problemləri və investisiya mühiti kimi müxtəlif sahələrdə ciddi narahatlıq yaradır.

Bütün yuxarıda sadalanan problemləri aradan qaldırmaq üçün nə etmək lazımdır? Ekspertlər bildirirlər ki, burada, ilk növbədə, küçə–yol şəbəkəsinin təkmilləşdirilməsi və inkişafı ilə bağlı məqam xüsusi diqqət çəkir. Hazırda paytaxtın küçə–yol şəbəkəsi əsasən, radial–həlqəvi nəqliyyat marşrutlarını əhatə edib. Gələcəkdə bu nəqliyyat marşrutlarının inkişaf etdirilərək diaqonal marşrutlara çevirməsi prinsipi də əsas götürülərək paytaxtın yeni nəqliyyat planlaşdırılma sxemi hazırlanıb. 2027-ci ilin sonunadək isə Bakının şimal giriş – çıxış nəqliyyat probleminin əsaslı həlli məqsədilə paytaxt və Sumqayıt şəhərlərini birləşdirəcək yeni magistral avtomobil yolu planlaşdırılıb.

Xarici həlqəvi marşrutların tamamlanması məqsədilə “Xarici Dairəvi Yolu – Böyükşor – Ziya Bünyadov” həlqəvi marşrutunun, eləcə də “Lökbatan – Xocasən – Binəqədi – Böyükşor – Sabunçu” xarici həlqəvi yolunun yaradılması nəzərdə tutulur. “Zığ – Aeroport” şosesi vasitəsilə şəhərin şərq və şimal–qərb hissələrinin həlqəvi birləşmə marşrutunun tamamlanması məqsədilə “Xırdalan – M1 avtomobil yolu – Digah – Zabrat – Hava Limanı” həlqəvi magistralın çəkilişi də planlaşdırılır. Bundan başqa, paytaxtın mərkəzi hissəsinin əlavə nəqliyyat yükündən qorunması məqsədilə “Mehdiabad – Dərnəgül – Ziya Bünyadov prospekti – Keşlə – Babək prospekti – “Ağ şəhər” – Nobel prospekti” yeni diaqonal nəqliyyat marşrutunun yaradılması nəzərdə tutulur. “Bakı – Sumqayıt” şosesində, Xırdalan və “20 Yanvar” dairələrində nəqliyyat sıxlığının qarşısının alınması məqsədilə paytaxtın strateji 2-ci şimal–qərb yeni giriş–çıxış yolunun yaradılması layihəsi də diqqətdə saxlanılır.

Qeyd edilən layihələrin həyata keçirilməsi nəticəsində 2040-cı ilədək Bakı şəhərində küçə–yol şəbəkəsinin ümumi uzunluğunun yerli əhəmiyyətli yollarla birlikdə 2300 kilometrdən 2668 kilometrə çatdırılması gözlənilir. Baş plan çərçivəsində velosiped nəqliyyatının inkişafı məqsədilə müvafiq infrastrukturun qurulması, eyni zamanda 2040-cı ilədək velosiped zolaqlarının ümumi uzunluğunun, təxminən 285 kilometr təşkil edəcəyi nəzərdə tutulur. İctimai nəqliyyat vasitələri üçün xüsusi hərəkət zolaqlarının isə 2040-cı ilədək hazırkı 16 zolaq – kilometrdən 112,2 zolaq – kilometrə qədər genişləndirilməsi planlaşdırılır.

Yeri gəlmişkən, son illər ərzində küçə – yol şəbəkəsində həyata keçirilən layihələr sərnişindaşımadakı problemlərin həllinə müsbət təsir göstərib. Bunun nəticəsində avtobuslardan istifadə edən sərnişinlərin sayı artıb. Belə ki, 2025-ci ilin I yarısında avtobuslarla 860 milyon (2024-cü ilin eyni dövrü ilə müqayisədə 52 milyon 554 min nəfər çox) sərnişin daşınıb. Paytaxta gəldikdə isə hesabat dövründə Bakıda ictimai nəqliyyatın payı 5,5 faiz artıb. Əgər 2023-cü ildə gedişlərin yarısı şəxsi avtomobil və taksilərlə həyata keçirilirdisə (48,4 faiz) və burada ictimai nəqliyyatın payı 28,4 faiz təşkil edirdisə, cari ilin ilk 5 ayı ərzində şəxsi avtomobil və taksilərlə həyata keçirilən gedişlərin sayı 41,8 faizə qədər azalıb. Bu müddət ərzində ictimai nəqliyyatın payı 33,9 faizə qədər artıb.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) mətbuat xidmətinin rəhbəri Tural Orucovun bildirdiyinə görə, ictimai nəqliyyatın daha da optimallaşdırılması, marşrut şəbəkəsinin genişləndirilməsi və infrastrukturun təkmilləşdirilməsi, o cümlədən qovşaqların yaradılması və avtobus dayanacaqlarının tikintisi səmərəsini verməkdədir. Avtobuslar üçün ayrılmış zolaqların uzunluğunun artırılması həlledici rol oynayır. Hazırda 40-a yaxın küçə və prospektdə, ümumilikdə 112 kilometrdən çox avtobus zolağı çəkilib. Hər gün paytaxt və ətraf ərazilərdə bu zolaqlarla hərəkət edən avtobuslarla 1 milyona yaxın sərnişin daşınır. Bakı şəhərində avtobuslar üçün ayrılmış zolaqlar üzrə orta sürət artıb, şəhərin bir sıra ərazilərində gediş vaxtı 12-22 dəqiqəyə qədər qısalıb.

Elektriklə işləyən avtobusların da sayı artıb. Ötən il COP29 ərəfəsində respublikaya 160 elektrikli avtobus gətirilib. Hazırda dövlətin təşəbbüsünü dəstəkləyən özəl nəqliyyat şirkətləri tərəfindən ekoloji cəhətdən təmiz texnologiyalardan, məsələn, elektrik enerjisi və ya sıxılmış təbii qazdan istifadə edən müasir avtobusların ölkəyə gətirilməsi davam etdirilir. 2025-ci ilin əvvəlindən paytaxt marşrutlarına 50-yə yaxın yeni avtobus gətirilərək istismara verilib. Avqust–sentyabr aylarında isə həmin göstəriciyə daha 200 avtobus əlavə olunacaq. Bu, paytaxtda avtobus sayının orta müddətli hədəfə – 2800-ə çatdırılmasını daha da yaxınlaşdıracaq.

Lakin bütün bunlar təbii ki, tıxac problemini tamamilə həll etmir. Bu sahədə görüləsi işlər çoxdur. Məsələn, paytaxtda tıxac probleminin aradan qaldırılması yollarından biri olaraq, metro və elektrobusların uzlaşmasının təkmilləşdiriləcəyi təşəbbüsünə də bu gün önəm verilir. Ekspertlər tərəfindən respublikada 2025-ci ilin sonuna qədər elektrobusların istehsalı sahəsində real nəticə əldə olunacağı proqnozlaşdırılır. Məsələn, yollarda sıxlığın qarşısının alınması, insanların tıxaclarda vaxt itkisi ilə üzləşməsi hər kəsi ciddi narahat edir. Bu mənada 10 metro stansiyasının tikintisi mühüm önəm daşıyır. 6 “bənövşəyi xətt”, 4 “yaşıl xətt” üzrə olacaq stansiyaların yaxın 5 il ərzində inşa edilərək istifadəyə verilməsi də nəzərdə tutulur.

Bundan başqa, metro ilə avtobus nəqliyyatının uzlaşması məsələsinə gəlincə, hazırda bir neçə yerdə metro stansiyaları ilə avtobus xətlərinin kəsişməsi baş verir. Amma bunlar əslində mübadilə nöqtələridir. Yəni sərnişin yoluna avtobusdan düşdükdən sonra metro ilə davam edə bilir. Məsələn, “Koroğlu”, “20 Yanvar” və “28 May” kimi metro stansiyalarında belə mübadilə nöqtələri var. Amma bu alt – mərkəzlərin təkmilləşdirilərək daha da inkişaf etdirilməsi nəzərdə tutulur. Bu da çox vacib məsələdir, çünki hər iki sistem bir–biri ilə uzlaşır və bir-birini tamamlayır. Bakı şəhərinin Baş planının icrası isə nəqliyyat sisteminin təkmilləşdirilməsini şərtləndirir.

Bakı şəhərinin nəqliyyat sistemi üçün elektrobusların sayının artırılması mühüm əhəmiyyət kəsb edir. Çünki elektrobus həm iqtisadi cəhətdən səmərəli, həm də ekoloji baxımdan “təmiz” nəqliyyat vasitəsidir. Eyni zamanda şəhərin ekoloji vəziyyətinin yaxşılaşdırılmasında müstəsna rol oynayır. Əslində, belə növ avtobuslar trolleybus kimi nəqliyyat vasitəsinin davamıdır. Yəni trolleybus da eyni sistemdə istismar edilir. Sadəcə enerjini naqillər vasitəsilə əldə edir. Hazırda Bakıda daha çox bu nəqliyyat vasitəsindən istifadə edilməsi gözlənilir.

Bir sözlə, beynəlxalq standartlara uyğun qurulan ölkə magistrallarının, eləcə də paytaxt yollarının sıradan çıxması hallarına tez–tez rast gəlinir. Bu, həm tranzit nəqliyyat vasitələrinin, həm də yerli daşımalarda ağır yükləmə çəkilərinin artıq olması olması səbəbi ilə bağlıdır. Bunun qarşısını almaq üçün elektron nəzarət sistemi yaradılır, elektron tərəzilər quraşdırılır. Bu qurğular çox yüklənən nəqliyyat vasitələrini avtomatik aşkarlayır və məsuliyyət daşıyan şəxslər cərimələnir.

### Çağdaş nəqliyyat infrastrukturu

Son illərdə qlobal miqyasda nəqliyyat infrastrukturunun inkişafı təkcə yolların çəkilməsi və genişləndirilməsi ilə məhdudlaşmır. Müasir yanaşma rəqəmsal texnologiyaların inteqrasiyasını, yəni “ağıllı” yol sistemlərinin tətbiqini də nəzərdə tutur. Bu texnologiyaların əsas məqsədi iki mühüm istiqamətdə özünü göstərir:

**– Birincisi, ekoloji davamlığın reallaşdırılmasıdır ki, bu, “ağıllı” yol texnologiyalarının elektrik nəqliyyat vasitələrinin hərəkətinə dəstək vermək, enerjinin qənaətli istifadəsini gerçəkləşdirmək, alternativ enerji mənbələrindən (məsələn, günəş panelləri ilə örtülmüş yol örtükləri) istifadə etmək imkanlarını yaradır. Belə hal isə iqlim dəyişmələri fonunda qlobal səviyyədə gündəmdə olan “yaşıl” nəqliyyat konsepsiyasının icrasını şərtləndirir.**

**– İkinci istiqamət isə yol təhlükəsizliyinin artırılmasıdır ki, belə magistrallarda sensorlar, kameralar, süni intellekt əsaslı idarəetmə sistemləri, “ağıllı” işıqforlar və sürət məhdudiyyətlərinin avtomatik tənzimlənməsi vasitəsilə yol hərəkəti idarə olunur. Bu, eyni zamanda qəza riskini əhəmiyyətli dərəcədə azaldır, piyadaların və sürücülərin təhlükəsizliyini gücləndirir.**

Hazırda ABŞ, Cənubi Koreya, Yaponiya, Çin, Birləşmiş Ərəb Əmirlikləri və bir sıra Avropa ölkələrində “ağıllı” yol texnologiyaları müxtəlif pilot layihələrdə sınaqdan keçirilərək geniş tətbiqə hazırlanır. Məsələn, Cənubi Koreyada bəzi magistral yollarda elektrikli avtomobillərin hərəkəti zamanı induksiya üsuluna əməl etməklə enerji təminatı reallaşdırılır. Hollandiya və Skandinaviya ölkələrində isə yol nişanları günəş enerjisi ilə işıqlandırılır və hava şəraitinə uyğun rəqəmsal yol göstəriciləri tətbiq olunur. Beləliklə, “ağıllı” yol texnologiyaları nəqliyyatın gələcəyini formalaşdıran əsas trendlərdən biridir və bu yanaşma ölkələrin həm iqtisadi, həm də sosial inkişafını şərtləndirir.

Bütün bunlara əsaslanıb deyə bilərik ki, son illər dünyada nəqliyyat infrastrukturunun inkişafı yeni mərhələyə qədəm qoyub. Artıq yalnız yolların genişləndirilməsi və yeni magistralların çəkilməsi ilə məhdudlaşmaq mümkün deyil. Müasir yanaşmalar rəqəmsal texnologiyaların tətbiqi əsasında formalaşır və bu istiqamətdə “ağıllı” yol konsepsiyası ön plana çıxır. Dünyada “ağıllı” yol təcrübəsi və statistikası da bu fikri təsdiq edir. Məsələn, Beynəlxalq Enerji Agentliyinin (IEA) məlumatına görə, hazırda dünyada avtomobil parkı 1,4 milyarddan çoxdur və bu göstəricinin 2050-ci ilə qədər ən azı 2 milyarda çatacağı proqnozlaşdırılır. Belə bir şəraitdə isə ənənəvi yol infrastrukturunun kifayət etməyəcəyi aydındır.

Qeyd edək ki, məhz buna görə də “ağıllı” yol texnologiyalarına investisiyalar sürətlə artır. Belə ki, Avropa İttifaqında (Aİ) 2030-cu ilə qədər nəqliyyat rəqəmsallaşmasına və “ağıllı” yol infrastrukturuna 90 milyard avrodan çox vəsait ayrılması planlaşdırılır. Xatırladaq ki, Çinin yalnız Pekin və Şanxay şəhərlərində “ağıllı” yol sistemlərinə il ərzində, təqribən, 10 milyard ABŞ dolları həcmində investisiya qoyulur. Cənubi Koreya hökuməti 2027-ci ilə qədər bütün magistralların 80 faizini “ağıllı” yol sistemləri ilə təchiz etməyi hədəfləyir. Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhər rəhbərliyi isə “2030 Smart City” proqramı çərçivəsində bütün yol şəbəkəsinin süni intellekt əsaslı idarəetmə sistemlərinə keçirilməsini planlaşdırır. Bu təcrübələr göstərir ki, “ağıllı” yol texnologiyaları yalnız texnoloji innovasiya deyil, həm də sosial və iqtisadi zərurətdir.

### “Ağıllı” yollara doğru...

Azərbaycanın nəqliyyat sektorunda qarşıda duran əsas çağırışlardan biri paytaxt Bakıda müşahidə olunan nəqliyyat sıxlığıdır. Dövlət Statistika Komitəsinin məlumatına görə, təkcə son 10 ildə ölkədə minik avtomobillərinin sayı 1,5 dəfədən çox artaraq 1,6 milyona çatıb. Bu avtomobillərin, təxminən 40 faizi Bakıda cəmlənib. Nəticədə şəhərin bir sıra əsas magistrallarında ciddi narahatlıq doğuran tıxaclar müşahidə olunur. Beynəlxalq hesabatlarda da bu problem qeyd olunur. Belə ki, “TomTom Traffic Index 2023” hesabatında Bakı dünyada ən sıx yolları olan 20 şəhərdən biri kimi göstərilib.

Belə bir şəraiti nəzərə alaraq deyə bilərik ki, Azərbaycanın nəqliyyat sektorunda əsas çağırışlardan biri paytaxt Bakıda müşahidə olunan nəqliyyat sıxlığıdır. Əhali sayının artması, avtomobil parkının sürətlə genişlənməsi, küçə və yolların həcminin bu artıma uyğun olmaması sıxlığın əsas səbəblərindəndir. Hazırkı vəziyyət həm iqtisadi səmərəliyə, həm də ekoloji şəraitə mənfi təsir göstərir. Bu baxımdan, rəqəmsal texnologiyalara əsaslanan “ağıllı” yolların tətbiqi zəruri prioritet kimi qarşıda durur.

Bu şəraitdə “ağıllı” yol texnologiyalarının tətbiqi artıq sadəcə alternativ deyil, zərurətə çevrilib. Bəs belə halda, ilk növbədə, hansı layihələrin həyata keçirilməsi diqqətdə saxlanılmalıdır? Sualın cavabına gəldikdə isə qeyd edək ki, Bakı üçün prioritet addımlar aşağıdakı istiqamətləri əhatə etməlidir:

**– “Ağıllı” işıqfor sistemlərinin qurulması, bununla da yol hərəkətini real vaxtda tənzimləyərək sıxlığın azaldılması;**

**– sensor və kamera şəbəkələrinin genişləndirilməsi ilə yol vəziyyətinin izlənilərək mərkəzi nəzarət sisteminə ötürülməsi;**

**– rəqəmsal naviqasiya və marşrut optimallaşdırılması diqqətdə saxlanılmaqla sürücülərə alternativ boş yolları təklif edən mobil tətbiqlərin hazırlanması;**

**– elektrikli nəqliyyata dəstək infrastrukturu – yol kənarlarında şarj məntəqələrinin yaradılması;**

**– elektron yol nişanları və dəyişkən göstəricilər vasitəsilə sıxlıq, hava şəraiti və yol vəziyyətinin avtomatik məlumatlandırması;**

**– toplu nəqliyyatın rəqəmsallaşdırılması – “ağıllı” dayanacaqlar vasitəsilə sərnişinlərə avtobusların hərəkət vaxtı və sıxlıq barədə dəqiq məlumatın verilməsi.**

Belə layihələrin mərhələli şəkildə – əvvəlcə mərkəzi küçələrdə və əsas magistrallarda tətbiqi, daha sonra isə bütün şəhər üzrə genişləndirilməsi məqsədəuyğun olardı.

Bütün bu vurğulananlardan sonra qeyd edək ki, qlobal təcrübə göstərir ki, “ağıllı” yol texnologiyalarının tətbiqi şəhərlərdə tıxac problemini 20-25 faizədək azaldır, yol qəzalarının sayını isə orta hesabla 30 faiz aşağı salır. Əgər Bakı da bu təcrübəni uğurla tətbiq etsə, nəqliyyat sıxlığının azalması ilə yanaşı, ekoloji çirklənmə səviyyəsinin də əhəmiyyətli dərəcədə enəcəyi gözlənilir.

Nəticə etibarilə, “ağıllı” yol texnologiyalarına əsaslanan yanaşma Bakıda nəqliyyat problemini aradan qaldırmaqla yanaşı, insanların gündəlik həyat keyfiyyətini yüksəldəcək, Azərbaycanın dayanıqlı inkişaf siyasətinə mühüm töhfə verəcək.

***Vaqif BİNYATOĞLU***
***XQ***

---

**Ekspert rəyi**

**Eyyub KƏRİMLİ,**
**iqtisadçı-ekspert**



Tıxacların azaldılması və qarşısının alınması üçün ölkələr bir çox müxtəlif yanaşmalar tətbiq edir. Bu yanaşmalar şəhər planlamasından tutmuş texnologiyaların tətbiqinə qədər geniş bir sahəni əhatə edir. İctimai nəqliyyat sisteminin inkişafı, tıxacların azaldılmasında ən təsirli tədbirlərdən biridir. Bütün böyük şəhərlərdə bu sahəyə qoyulan sərmayələr ilbəil artmaqdadır. Avtomobil istifadəçilərini şəxsi avtomobillərdən ictimai nəqliyyata keçirmək tıxacları əhəmiyyətli dərəcədə azalda bilər.

Məsələn, Londonda ictimai nəqliyyatı təşviq etmək üçün 2003-cü ildən “tıxac vergisi” sistemi tətbiq edilib. Bu sistem şəhərə avtomobillə daxil olmağı baha hala gətirir və sürücüləri ictimai nəqliyyata yönəldir. Çin isə sürətli dəmir yolu və metro xətləri şəbəkəsini genişləndirərək böyük şəhərlərdə tıxacları azaltmağa çalışır.

Tıxac vergisi və ödənişli zona tətbiqləri şəhər mərkəzlərinə şəxsi avtomobillərin daxil olmasını məhdudlaşdıraraq tıxacların qarşısını almaq üçün istifadə olunan məşhur metodlardandır. Bu sistemlər əksər hallarda avtomobillərin sayını azaltmaq və ictimai nəqliyyata olan tələbatı artırmaq məqsədini güdür. Sinqapurda 1975-ci ildən tətbiq edilən vergi sisteminə əsasən, avtomobillər şəhərin mərkəzlərinə daxil olduğu zaman avtomatik olaraq ödəniş hesablanır.

Sözügedən problemin həlli məqsədilə yol infrastrukturu təkmilləşdirilməli və yeni yollar inşa edilməlidir. Yüksək sürətli avtomobil yolları, tunellər və körpülər nəqliyyatın axınını yaxşılaşdırmaq və tıxacları azaltmaq məqsədini daşıyır. İstanbulda çoxlu sayda körpü və tunel inşası şəhər daxilində və ətrafında tıxacların azaldılmasına nisbətən kömək edir. “Yavuz Sultan Selim” körpüsü və “Avrasya” tuneli şəhərin iki hissəsini birləşdirərək tıxacları nisbətən yüngülləşdirir.

Tıxacların səbəblərindən biri də yük daşımalarıdır. Parisdə yük daşımalarını idarə etmək üçün xüsusi “yaşıl” zonalar yaradılıb və yük daşımalarının müəyyən saatlarda şəhər mərkəzlərinə daxil olması qadağan edilib. Madriddə şəhər mərkəzlərinə yük daşımalarını məhdudlaşdıran və müəyyən saatlarda icazə verən qanunlar tətbiq edilir.

Bəzi şəhərlərdə hökumət “ağıllı” şəhər texnologiyalarını tətbiq edərək tıxacların qarşısını almağa çalışır. “Ağıllı” şəhərlər tıxacları real vaxt rejimində izləyərək nəqliyyat axınını idarə etməyə imkan verir. Sinqapurda tətbiq olunan “Smart Mobility” (“ağıllı” nəqliyyat) proqramı ilə şəhər daxilində nəqliyyatın axını avtomatik idarə olunur, bu da tıxacların azalmasına səbəb olur.

*Yeniləşən turizm*

# "Hacıkənd" Qafqaz ulduzu olacaq

## *Burada müasir istirahət kompleksi yaradılır*



**Minskdən 130-140 kilometr məsafədə, füsunkar meşələr arasında yerləşən, Belarus Prezidentinin İşlər İdarəsinin tabeliyində olan "Priozernaya" sanatoriyası yaddaşımdan heç vaxt silinməyəcək. Orada bir neçə dəfə olmuşam. Hər səfərimdə düşünürdüm: "Görəsən, Hacıkənddə də belə yüksək səviyyəli, təbiətlə iç-içə, həm ruhu, həm bədəni dincəldən bir istirahət ocağı tikmək olarmı?"**

**Bu sualın cavabını illər sonra öz doğma torpağımda, Qafqaz dağlarının ətəyində tapdım. Artıq xəyal deyil, reallıqdır: Azərbaycanın qəlbində, Gəncənin Hacıkənd qəsəbəsində ölkəmizin ən müasir turizm ocaqlarından biri – "Hacıkənd" istirahət kompleksi inşa edilir.**

Avqustun 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu unikal layihənin gedişi ilə tanış oldular. Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına və birinci xanıma görülən və gələcəkdə icra olunacaq işlər barədə ətraflı məlumat verdi. Ərazisi 23 hektara yaxın olan bu kompleks həm Hacıkənd qəsəbəsini, həm də Göygöl rayonunun Bənövşəli kəndini əhatə edir. Eyni anda 452 qonağı qəbul edə biləcək bu geniş məkanda 133 fərqli kateqoriyalı otaq, 19 birmərtəbəli standart, 10 ikimərtəbəli VIP kottec inşa olunur. Hər şey müasir dövrün tələblərinə cavab verəcək şəkildə düşünülüb: təbiətə uyğun dizayn, ekoloji təmizlik və qonaq rahatlığı ön plandadır.

Qonaqlar burada təkcə təbiətin qoynunda istirahət etməyəcək, həm də sağlamlıqlarını bərpa edə biləcəklər. Qapalı hovuz, SPA xidmətləri, müasir fitnes mərkəzi, milli və dünya mətbəxinin ləziz təamları ilə xidmət göstərəcək restoranlar, karaoke, masaüstü oyun otaqları və uşaqlar üçün yaradılan xüsusi əyləncə zonaları – bütün bunlar bu məkanı yalnız bir istirahət mərkəzi deyil, tam mənada turizm cazibə nöqtəsinə çevirir.

İdman həvəskarları üçün futbol və basketbol meydançaları, yürüş zolaqları, dağ mənzərələri fonunda aktiv istirahət imkanı təqdim edir. Eyni zamanda burada 90 nəfərlik konfrans zalı da fəaliyyət göstərəcək. Bu, kompleksin yalnız istirahət deyil, işgüzar görüşlər, seminarlar və beynəlxalq tədbirlər üçün də əlverişli məkan olacağını göstərir.

Bütün bu işlərin nəticəsində 300-ə yaxın yeni iş yerinin yaradılması planlaşdırılır ki, bu da təkcə turizm yox, bölgənin sosial-iqtisadi inkişafı baxımından da mühüm hadisədir. "Hacıkənd" istirahət kompleksi Gəncəbasar zonasının turizm xəritəsində parlaq bir nöqtəyə çevriləcək.

### Gəncədən bir az bəri...

**Hacıkəndin adı ilk dəfə XIX əsrin sonlarında Rusiya imperiyası dövrünün sənədlərində çəkilir. Əsrlər boyu Gəncə zadəganlarının, maarifçilərinin və məmurlarının yay aylarında üz tutduğu məkan kimi tanınan Hacıkənd çar dövründə "Yelizavetpolskaya daça" (yaylaq) kimi də tarixə düşüb.**



Buranın saf havası, müalicəvi iqlimi və duru bulaqları yalnız yerli əhali üçün deyil, başqa bölgələrdən gələnlər üçün də cəlbedici olub. İsti yay aylarında insanlar ailəvi şəkildə və bütün təsərrüfatı ilə birlikdə buralara köç eyləyib, bütün yayı burada yaşayıb, dincəlmərmiş. Gəncənin, demək olar ki, bütün sayılıb-seçilən, zadəgan nəsillərinin buralarda geniş torpaq sahələri və malikanələri olub. Rəfibəylilərin, Ziyadxanovların, Şeyxzamanlıların, Yusifbəylilərin Hacıkənddə böyük mülkləri var idi. 1870-ci ildə burada sonralar Hacıkənddən Gəncəyə kəhriz çəkdirmiş məşhur gəncəli xeyriyyəçi Hacı Mir Qasım və onun qardaşları da malikanələr tikdirib.

Sovet dövründə Hacıkənd "kurort qəsəbə" statusu alaraq bir sıra sanatoriya və pansionatların ünvanına çevrilib. SSRİ-nin müxtəlif respublikalarından istirahətə gələnlər bu kiçik, amma təmiz və səliqəli qəsəbəni o dövrdə sevə-sevə tərk edirdilər. Pioner düşərgələrinin isə sayı-hesabı yox idi.

### Göygöl yolu – turizm dəhlizi

**Unutmayaq ki, Hacıkənddə dincələn yerli və xarici qonaqlar, istirahət zamanı mütləq bölgəni gəzmək istəyəcəklər. Göygöl, Maralgöl, mənzərəli kəndlər, Gəncə şəhərinin özü – bunlar Hacıkəndin turizm kontekstinin ayrılmaz hissələridir.**

Qonaqlar bu marşrut boyunca hər nöqtədə yüksək səviyyə, gözoxşayan təbiət və estetik mühit gözləyirlər. Biz isə bu gözləntiyə uyğun cavab verməliyik. Təbiəti olduğu kimi saxlamaqla yanaşı, onu müasir turizm zövqünə uyğun təqdim etmək də bizim məsuliyyətimizdir.

Beləliklə, "Hacıkənd" istirahət kompleksi ilə başlayan bu inkişaf yalnız bir məkanın deyil, bütün bölgənin turizm simasının yenilənməsi deməkdir. Təklif olunan tədbirlər həyata keçərsə, Hacıkənd və ətrafı, təkcə yerli yox, beynəlxalq turizm zolağında nümunəvi bir məkana çevriləcək. Yəni Gəncədən cəmi bir neçə kilometr aralıda, Göygöl silsiləsinin ətəyində, qocaman çinarların, sərin bulaqların və gur meşələrin qoynunda əsrlərdən bəri nəfəs alan Hacıkənd bu gün yeni bir mərhələyə qədəm qoyur. Tarixi və təbiəti ilə seçilən bu unikal məkanda artıq müasir turizm infrastrukturunun inşasına başlanılıb. Lakin ən önəmli məsələ budur ki, bu inkişaf təbii irsə zərər vurmadan, əksinə, onun qorunması əsasında həyata keçirilir.

### Hər qarışı rahatlıq yuvasıdır

**Bütün bu müasir və zövqlə düşünülmüş layihələrin fonunda bir məsələ də var ki, yəqin təxirə salınmadan mütləq həllini tapacaqdır. Söhbət Hacıkəndə aparan yolboyu səpələnmiş, primitiv şəkildə qurulmuş iaşə obyektlərindən, adını belə çəkməyə ehtiyat etdiyimiz kababxanalardan və yarım uçuq obyektlərdən gedir.**

Hazırda Gəncədən Hacıkəndə və daha irəli, Göygölə uzanan marşrut yalnız mənzərə baxımından füsunkardır. Təəssüf ki, yolkənarı infrastruktur və estetik baxımdan bu təbiətə yaraşmayan bir mənzərə ilə qarşılaşırıq. Bir çoxu heç bir sanitariya və texniki norma gözlənilmədən fəaliyyət göstərən bu obyektlər qonaq qəbul etməyə qətiyyən hazır deyil. Nə vizual cəhətdən baxımlıdırlar, nə də xidmət baxımından.

Əgər biz bu bölgəni ölkənin və regionun nüfuzlu turizm marşrutlarından birinə çevirmək niyyətindəyiksə, yalnız istirahət kompleksinin ərazisi deyil, bütün ətraf infrastruktur da yenilənməli, vahid konsepsiyaya salınmalıdır.



### Bəs onda nə etməliyik?

**İaşə obyektlərinə ümumi dizayn verilməli, lisenziya və standartlara uyğunluq yoxlanılmalıdır. Nəzarətsiz vəziyyətdə fəaliyyət göstərən köhnə obyektlər ya təmir olunmalı, ya da alternativ yerlə əvəzlənməlidir.**

Yolboyu vahid ekoloji və turizm tərzi tətbiq olunmalıdır: təbii materiallardan istifadə, yerli memarlıq elementləri, ahəngdar rəng seçimi vacibdir. Sanitariya, tullantı idarəetməsi və park qaydaları sərtləşdirilməlidir. Bu obyektlərdə həm vizual səliqə, həm də funksional təmizlik olmalıdır.

Yol boyunca "ekoturizm zolağı" yaradılmalı, qonaqlar üçün istiqamətləndirici lövhələr, istirahət guşələri və gəzinti dayanacaqları təşkil olunmalıdır. Xarici turistlər üçün multidilli nişanlar, kənd təsərrüfatı məhsullarının satış nöqtələri də əlavə oluna bilər. Nəzarət mexanizmi gücləndirilməlidir. İstənilən qeyri-qanuni obyekt dərhal ləğv edilməli, ümumi estetikanı pozan görüntülərə yol verilməməlidir.

### Təbiət əmanəti!

**Layihənin istifadəyə verilməsi ilə 300-ə yaxın daimi iş yerinin açılması nəzərdə tutulur. Bu, təkcə turizm sahəsinin inkişafı demək deyil, həm də bölgənin məşğulluq və rifah göstəricilərinə ciddi töhfə deməkdir.**

Əlavə olaraq, kompleksin bütün enerji sistemləri müasir texnologiyalarla təchiz olunacaq, enerji səmərəliliyi, su ehtiyatlarının qorunması, tullantıların idarə edilməsi və ekoloji balansın saxlanması əsas prinsip olacaq. Ən önəmli məsələ isə budur: tikinti işləri təbiətə müdaxilə etmədən, mövcud ekosistemi qoruyaraq həyata keçirilir.

Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlət başçısına təqdim etdiyi layihə çərçivəsində meşələrin qırılmayacağı, yaşıllıqların tam qorunacağı barədə əminliklə məlumat verdi. Tikinti prosesi zamanı bütün infrastruktur ya mövcud təmiz ərazilər üzərində, ya da əvvəllər istismar edilmiş, lakin baxımsız qalmış sahələrdə aparılır.

Beləliklə, Hacıkəndin qocaman ağacları, əsrlik palıdlar, təmiz hava və sərin bulaqları turizmin yox, təbiətin qalibi kimi qorunacaq.

... İndi Hacıkənd yenidən doğulur – tarixi ruhunu qoruyaraq, təbiətə zərər vermədən, müasirliyə qovuşaraq. Bura təkcə istirahət deyil, həm də daxili rahatlıq, ruhi dincəlmə və vətən sevgisinin ünvanına çevrilir.

Bütün bunlar onu göstərir ki, Azərbaycan dövləti təbiəti ilə turizmi barışdırmağı, tarixi ilə gələcəyi birləşdirməyi bacarır.

"Hacıkənd" artıq təkcə dağların ətəyindəki bir qəsəbə deyil – o, Azərbaycanın turizm xəritəsində ucalan yeni zirvədir.

Hacıkənd təkcə lokal istirahət mərkəzi yox, beynəlxalq turizm potensialına malik bir məkan kimi təqdim olunur. Təbii gözəllik, milli memarlıq üslubu və yüksək xidmət səviyyəsi burada vəhdət təşkil edəcək.

Əgər bir zamanlar Belarus meşələrindəki "Priozernaya" sanatoriyası bizə xəyal kimi görünürdüsə, bu gün "Hacıkənd" artıq həmin səviyyəni keçməyə namizəddir, özü də doğma torpaqda.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***
**Gəncə**

---

*QHT layihələri*

# "Azad həmfikirlər" mərhəmətə çağırır

**Müstəqil Azərbaycanın intensiv inkişafını təmin edən amillərdən birini cəmiyyətin ən dinamik təbəqəsi olan gənclərin potensialından səmərəli istifadə təşkil edir. Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Gənclərin fəaliyyəti üçün dövlətin yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin aparıcı qüvvəsinə çevrilib və gəncliyimiz ölkəmizin gələcəyi uğrunda inamlı addımlar atır.**

Ölkəmizdə yalnız dövlət qurumları deyil, Qeyri-Hökumət Təşkilatları da gənclərin, xüsusilə sağlamlıq imkanları məhdud insanların maarifləndirilməsi, cəmiyyətə adaptasiyası, layiqli vətəndaş kimi formalaşması istiqamətində işlər aparır, müxtəlif layihələr həyata keçirirlər. Belə QHT-lərdən biri də "Azad həmfikirlər" Gənclərin Maarifləndirilməsi İctimai Birliyidir.

**Təşkilatın rəhbəri Samirə Mustafayeva söhbət zamanı ötən illərdə icra etdikləri layihələrdən söz açdı:**

– 2004-cü ildə dövlət qeydiyyatına alınan ictimai birlik gəncləri müxtəlif sahələrdə maarifləndirir, onların sosial rifahının yaxşılaşdırılmasına, bu sahədə dövlətin həyata keçirdiyi tədbirlərə dəstək verir, sağlamlıq imkanları məhdud uşaqlara və ailələrinə sosial, psixoloji və hüquqi yardım edir.

Təşkilatın üzvləri fərqli ixtisas sahibləridir. İndiyə qədər müxtəlif sahələrdə 100-dən çox layihə həyata keçirmişik. Bunlardan regional "Qafqaz bizim ümumi evimizdir", "Bakı İslam dünyasının mədəni paytaxtıdır", "Xəzərin ekologiyası və ətraf mühitin qorunması üçün yeniyetmə gənclərin maarifləndirilməsi", "10–11-ci sinif şagirdləri üçün test imtahanlarına hazırlıq kurslarının keçirilməsi", "Kompüter və mühasibat uçotu kurslarının təşkili" adlı layihələri icra etmişik.

Amsterdamda və Berlində Azərbaycan həqiqətlərinin təbliği ilə, Londonda ölkəmizin ərazi bütövlüyünün bərpası ilə bağlı tədbirlər keçirmiş, "Erkən nikaha meyil salmağa dəyərmi?", "Erkən nikahla bağlı maarifləndirmə tədbirlərinin təşkili", "Sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyası", "Uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması və çətin həyat şəraitində olan uşaqların və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsi məqsədilə günərzi qayğı mərkəzi xidmətinin göstərilməsi" və digər bir sıra layihələri reallaşdırmışıq.

Ötən il "Gənc ailələrdə uşaqların zorakılıqdan müdafiəsi" adlı layihəni həyata keçirərkən uşaqlara qarşı cinsi zorakılıqla bağlı maarifləndirici məlumatların, internet zorakılığı, uşaqların birbaşa hüquq-mühafizə orqanlarına müraciət imkanları barədə biliklərin yayılmasına, habelə zorakılığa məruz qalmış uşaqlara yardım göstərilməsinə diqqət etdik. Reallaşdırdığımız layihədə iştirakçıların yaş həddi nəzərə alınmasa da, gender nisbəti gözlənildi. Risk qrupuna daxil olan uşaqların və onların valideynlərinin, müəllimlərin iştirakı ilə seminar keçirildi.

**– İctimai birliyin hazırkı fəaliyyətinin əsas istiqaməti necədir?**

– Bu il Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə bölgələrdə yaşayan sağlamlıq imkanları məhdud şəxslərlə bağlı, onların dünyagörüşlərinin inkişafına təsir edəcək, sosiallaşmalarına, peşə sahibi olmalarına şərait yaradacaq, eyni zamanda özlərini cəmiyyət üçün yararlı fərd olduqlarını təsdiq edərək başqalarından iqtisadi asılılığa son qoyacaq layihənin icrasına start vermişik.

"Bacarıqlarına sahib ol!" adlı layihənin əsas məqsədi xüsusi qayğıya ehtiyacı olan şəxslərin bilik, bacarıqlarının və xüsusi istedadların üzə çıxarılması və bu bacarıqların inkişafına motivasiya verilməsidir.



Layihənin əsas benefisiarları sağlamlıq imkanları məhdud olan şəxslərdir.

**– Sağlamlıq məhdudiyyəti olanlarla bağlı layihə keçirmək ideyası necə yarandı?**

– Bizə məlumat verilmişdi ki, bəzi sağlamlıq imkanları məhdud şəxslər çox vaxt ev şəraitində özlərinə qapalı vəziyyətdə yaşayırlar. Bu da onların cəmiyyətdən təcrid olmalarına gətirib çıxarır. Valideynlər arasında aparılan araşdırma zamanı məlum oldu ki, maddi problemlər bir yana, şəxslərin ünsiyyətə və qayğıya ehtiyacı daha çoxdur. Bu səbəblə də belə bir layihənin həyata keçirilməsinə zərurət yarandı.

Həmin insanlara dəstək məqsədilə, nəzərdə tutmuşuq ki, layihənin icrası müddətində 24 nəfər xüsusi qayğıya ehtiyacı olan şəxslər arasında peşəkar mütəxəssislər tərəfindən öyrədici təlimlər keçiriləcək, onların bilik və bacarıqları müəyyən olunacaq və xüsusi istedadları aşkar ediləcək. Layihənin sonunda xüsusi qayğıya ehtiyacı olan şəxslərin bacarıqlarından ibarət sərgi təşkil olunacaq. Onların bacarıqlarından ibarət bu sərginin təşkilinin onlara əlavə motivasiya verəcəyinə əminik.

3 ay müddətində davam edəcək layihənin icrasına iyul ayının 1-dən start verilib, Göyçay rayonunda yaşayan xüsusi qayğıya ehtiyacı olan insanları əhatə edəcək.

Əminliklə deyə bilərəm ki, ölkəmizdə gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə şərait yaradıb. Dövlətin gənclərə dəstək və diqqət nəticəsində Azərbaycan gəncliyində öz gücünə inam hissi artıb.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Sağlamlıq elmlərinin bəşəri hədəfi



**AMEA-nın Mərkəzi Elmi Kitabxanasında Elm və Təhsil Nazirliyinin Fiziologiya İnstitutunun və Türkiyənin İqtisadi İnkişaf və Sosial Tədqiqatlar İnstitutunun (İKSAD) birgə təşkilatçılığı ilə hibrid formatda Beynəlxalq Tibb və Sağlamlıq Elmləri mövzusunda VIII beynəlxalq elmi-praktik konqres davam edir.**

Ümumilikdə konqresdə 20 ölkədən - Türkiyə, Pakistan, Qazaxıstan, Albaniya, Anqola, Braziliya, Bolqarıstan, Çin, Çexiya, Hindistan, İran, Monteneqro, Mərakeş, Nigeriya, Polşa, Portuqaliya, Rumıniya, Serbiya və s. 200-dən çox nümayəndə iştirak edir.

Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünə həsr edilən və elmi mövzusu təbii faktorların tibbi praktikada istifadəsinə aid olan konqresi giriş sözü ilə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli açaraq qeyd edib ki, konqres ölkəmiz üçün əlamətdar hadisəyə - Vətən müharibəsində qələbənin 5-ci ildönümünə həsr olunub. Beynəlxalq toplantı ötən payız Azərbaycanda keçirilmiş COP29 konfransı və "Yaşıl dünya naminə həmrəylik ili" kimi tədbirlərin davamı olaraq ölkəmizdə iqlimə, yaşıl dünyaya, tibbə, sağlamlığa verilən dəyərin elmi təzahürüdür. Belə konqreslər yaşıl iqtisadiyyat, yaşıl iqtisadi zonanın daha da genişlənməsinə, sağlamlığımızın rifahına xidmət edir. Akademik həmçinin vurğulayıb ki, müalicəvi Naftalan neftinə, 1.500 növ müalicəvi bitkiyə, mineral sulara, Duzdağ kimi zəngin təbii resurslara malik olan Azərbaycan üçün bu faktorların tibdə istifadəsinin elmi əsaslarının işlənməsi ölkəmiz üçün prioritet təşkil edir.

"Ölkəmizdə "Naftalan" Müalicə Sağlamlıq Mərkəzi yenidən qurulub. Dünyada yeganə çəlik, əsa muzeyi Naftalandadır. Eləcə də Duzdağ Fizioterapiya Sağlamlıq Mərkəzi də yenidən qurulub. Bütün bunlar öz insanlarının sağlamlığını qoruyan dövlətimizin vətəndaşları qarşısında növbəti bir addımı və yeniliyidir. Əminik ki, bu yeniliklərlə təbii resursların tibb sahəsində tətbiqi aydın bir təfəkkürə xidmət edəcək", – deyə AMEA-nın prezidenti söyləyib.

Mərasimdə Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin nümayəndəsi İltifat İbrahimov, İKSAD-ın Azərbaycan üzrə baş direktoru Əlvan Cəfərov, AMEA-nın müxbir üzvü Elşad Qurbanov, Türkiyənin İnönü Universitetinin Əczaçılıq fakültəsinin professoru İsmet Yılmaz, Çin Xalq Respublikasından "Lingren Group"un sədri Li Zhang, onlayn formatda Pekin Universitetindən doktor Liu Tingfang çıxış edərək elmi məclisin əhəmiyyətindən danışıblar.

Fiziologiya İnstitutunun direktoru professor Ulduz Həşimova bildirib ki, təbii bitkilərlə zəngin ölkə olan Azərbaycanda bu sərvətdən istifadə etmək, onun müalicəvi əhəmiyyətini daha dərindən araşdırmaq, tədqiq etmək alimlərin üzərinə böyük məsuliyyət qoyur.

Elmi-praktik konqres 20 bölmə iclasında öz işini davam etdirib. Xərçəngin erkən diaqnostikası, biotibbi materialların inkişafı, neyrodegenerativ xəstəliklər, ictimai səhiyyə modelləri və süni intellektin tibb sahəsinə tətbiqinə dair geniş müzakirələr aparılıb.

Beynəlxalq tədbirə bu gün yekun vurulacaq.

*Ə.ƏLİYEV*
*XQ*

# Gənclərin beynəlxalq Bakı məclisi

**Bakıda II Beynəlxalq Multikulturalizm Gənclər Forumu öz işini başa çatdırıb. "Gənclər çoxmədəniyyətli mühitdə sülh quruculuğunun elçiləri kimi" mövzusuna həsr edilən 1 həftəlik Forum Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) ilə birgə təşkil edilmişdi.**



Mərkəzin icraçı direktoru Rəvan Həsənov bildirib ki, forumun mövzusu tam əhatə olunub. "İştirakçılar Bakı, Xankəndi və Şuşada toplanaraq faydalı müzakirələr apardılar, bir daha əminlik yarandı ki, gənclər multikultural dünyada sülh quruculuğunun əsas qüvvəsidir. Qonaqlar, həmçinin multikulturalizmin Azərbaycan nümunəsini yaxından görüb şahid oldular ki, bu model sadəcə bir şüar deyil, dövlət siyasəti, gündəlik həyat tərzi və birgəyaşayış fəlsəfəsidir".

Gənclər və idman naziri Fərid Qayıbov gənclərin Azərbaycan hökuməti üçün əhəmiyyətindən bəhs edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə gənclər üçün müxtəlif səpkili tədbirlərin keçirildiyini diqqətə çatdırıb.

ICESCO-nun Bakı regional ofisinin direktorunun müavini Məryəm Qafarzadə deyib ki, mədəniyyətlərarası dialoqun və sülhün təşviqinə sadiqlik ruhlandırıcı və təqdirəlayiqdir: "Sülh İslamda dərin kök salmış əsas dəyərdir və ICESCO-nun missiyasının mərkəzi sütunudur. ICESCO uzun müddətdir sülh, təhsil və mədəniyyətlərarası dialoqu müdafiə edir. Azərbaycan, Özbəkistan, Tacikistan, Qazaxıstan və Qırğızıstana xidmət edən Bakıdakı regional ofisimiz əməkdaşlığa, mədəni mübadilə və barışığa təkan verən proqram və təşəbbüslərin həyata keçirilməsində fəal iştirak edir. Bakı, Xankəndi və Şuşada keçirilən bu Forum gəncliyin, birliyin və ümumi dəyərlərin gücünün sübutudur".

Nordik Münaqişələrin Transformasiyası Mərkəzinin direktoru Noufal Abboud və Stirlinq Fondunun regional direktoru Mohamed Dahab Forumun əhəmiyyətinə toxunaraq, tədbirin gənclər üçün faydalı olduğunu bildiriblər.

*XQ*

# "Yaxşı yaşanmış həyat" nədir?

**ABŞ alimləri insan ömrünün necə xatırlandığını və "yaxşı yaşanmış həyat" anlayışının cəmiyyətin şüurunda necə formalaşdığını öyrənmək üçün qeyri-adi mənbəyə – nekroloqlara müraciət ediblər. Miçiqan Dövlət Universiteti, Boston Kolleci və Arizona Dövlət Universitetinin tədqiqatçıları 30 il ərzində ABŞ-da dərc edilmiş 38 milyon nekroloqu təhlil edərək, insanları ən çox hansı dəyərlərə görə yad etdiklərini araşdırıblar.**





Tədqiqatın nəticələri "Proceedings of the National Academy of Sciences" jurnalında dərc olunub. Əsas müəllif, Miçiqan Dövlət Universitetinin professoru Devid Markovits bildirib ki, nekroloqlar cəmiyyətin hansı həyat tərzini daha çox dəyərləndirdiyini göstərən nadir mənbədir: "Onlar insanların hansı töhfələrinə görə xatırlandığını, hansı dəyərlərin daha güclü yadda qaldığını və kollektiv yaddaşda necə qorunduğunu ortaya qoyur".

Araşdırma göstərib ki, nekroloqlarda ən çox rast gəlinən şəxsi dəyərlər ənənələr (təxminən 80 faiz) və xeyirxahlıq (76 faiz) olub. Ənənələr dini ayinlərdə iştirak və ictimai normalara bağlılıqla ifadə olunur. Xeyirxahlıq isə başqalarına qayğı göstərmək, etibarlı və dürüst insan olmaqla yadda qalır. Gender fərqləri də aydın görünür: qadınlar daha çox xeyirxahlıqları ilə, kişilər isə nailiyyətləri və ictimai fəaliyyətləri ilə yad ediliblər. Yaş fərqlərinə gəldikdə isə yaşlı nəsil ənənələrə bağlılığı ilə, gənclər isə qayğıkeşliyi ilə daha çox xatırlanıb.

Alimlər, həmçinin 11 sentyabr terror aktları, 2008-ci il maliyyə böhranı və COVID-19 pandemiyasının nekroloqların məzmununa necə təsir etdiyini öyrəniblər. 11 sentyabrdan sonra insanların yad edilməsində ənənə və xeyirxahlıq daha çox ön plana çıxıb. 2008-ci il böhranından sonra nailiyyət və şəxsi uğurların vurğulanması azalıb, əvəzində gündəlik ehtiyacların qarşılanmasına yönəlmiş dəyərlər önə çıxıb. COVID-19 pandemiyası zamanı isə xeyirxahlığın vurğulanması azalıb, ənənələrə bağlılıq isə əksinə, daha çox qabardılıb.

Markovitsin sözlərinə görə, bu dəyişiklər böyük ictimai sarsıntıların insanların yaddaşına və yaxınlarını necə yad etdiklərinə bilavasitə təsir göstərdiyini sübut edir: "Kollektiv travma yalnız gündəlik davranışları yox, həm də uzunmüddətli olaraq insanların hansı dəyərləri ön plana çıxardıqlarını müəyyənləşdirir". Araşdırma göstərir ki, yaxşı yaşanmış həyat anlayışı yalnız fərdi seçimlərdən deyil, həm də tarixi şəraitdən, mədəniyyətin dəyişən prioritetlərindən asılıdır. İnsanlar yaxınlarını xatırlayarkən ən çox ənənələri, xeyirxahlığı və ictimai dəyərləri ön plana çəkirlər.

*S.ELAY*
*XQ*

*Baxış bucağı*

# Tərcümə – mədəni dialoqun açarı

**Dünya ədəbiyyatı sərhədləri aşan, millətləri bir-birinə bağlayan canlı bir orqanizmdir. Bu orqanizmin ən güclü damarlarından biri isə ədəbi tərcümədir. Tərcümə olmadan xalqların düşüncələri, duyğuları və estetik zövqləri arasında körpü qurmaq mümkün deyil. Azərbaycan ədəbiyyatı bu körpülərin qurulmasında həm qəbul edən, həm də göndərən tərəf kimi mühüm rol oynayır.**



Ədəbi tərcümə oxucuya başqa bir mədəniyyətin qapılarını açır. Dünyanın klassik və müasir ədəbiyyat nümunələrini oxuyarkən biz yalnız yeni sözlər öyrənmirik – həm də başqa düşüncə tərzlərini, həyat fəlsəfələrini kəşf edirik. Bu proses milli mədəniyyətimizi zənginləşdirir, yeni baxış bucaqları yaradır. Azərbaycan ədəbiyyatı da xarici dillərə tərcümə olunaraq bizim bədii düşüncə və həyat duyğularımızı beynəlxalq oxucuya çatdırır. Beləliklə, qarşılıqlı mədəniyyət mübadiləsi yaranır.

Bu baxımdan tərcüməçi sözlərin körpü ustası sayılır. Yaxşı tərcüməçi yalnız sözləri bir dildən digərinə çevirmir. O, orijinal mətnin ruhunu, ritmini, nəfəsini qoruyur. Tərcüməçi həm yazıçının, həm də oxucunun səsini eyni harmoniyada eşitdirən bir sənətkardır. Bu, həm dil ustalığı, həm də mədəniyyətlərarası hissiyyat tələb edir.

Dil milli kimliyin daşıyıcı sütunudur. Lakin tərcümə vasitəsilə fərqli dillərin incəlikləri bir-birinə toxunur, xalqlar arasında anlaşma və tolerantlıq yaranır. Ədəbi tərcümə hər bir millətimizi öz qapalı məkanından çıxarıb dünya mədəniyyətinin fəal iştirakçısına çevirir. Bu isə ölkələrin beynəlxalq mədəniyyət arenasındakı mövqeyini möhkəmləndirir.

Əlbəttə, tərcümənin ən böyük çətinliklərindən biri orijinal mətnin bədii zənginliyini olduğu kimi çatdırmaqdır. Dil fərqləri, mədəni kontekstin fərqli olması, üslubun qorunması kimi məsələlər tərcüməçinin qarşısında ciddi maneələr yaradır. Buna görə də tərcüməçi yalnız dil bilicisi deyil, həm də ədəbiyyatın fəlsəfəsini anlayan, iki mədəniyyətin ruhunu duyan şəxs olmalıdır.

Bir daha qeyd edim ki, ədəbi tərcümə xalqlar arasında görünməz, amma çox möhkəm bir körpüdür. Hər bir uğurlu tərcümə həm milli ədəbiyyatımıza, həm də dünya mədəniyyətinə xidmət edir. Bu körpüləri qorumaq, genişləndirmək və gələcək nəsillərə ötürmək isə həm tərcüməçilərin, həm də bütün mədəniyyət ictimaiyyətinin məsuliyyətidir.

*Rəqsanə BABAYEVA,*
*Beyləqan Mədəniyyət Mərkəzinin rejissoru,*
*"Gənclik" Xalq Teatrının rəhbəri*

# "Boşluğa xütbə" Venesiyada

**Azərbaycan Respublikasının Kino Agentliyinin istehsalına dəstək göstərdiyi "Boşluğa xütbə" filmi 82-ci Venesiya Beynəlxalq Film Festivalının rəsmi proqramına daxil edilib və festivalın "Out of Competition – Fiction" bölməsində nümayiş olunacaq. Filmin rejissoru Hilal Baydarov, icraçı prodüseri isə Orxan Fikrətoğludur.**




Filmin istehsalı Azərbaycan Respublikasının Kino Agentliyinin maliyyə dəstəyi ilə baş tutub. Bununla yanaşı, postprodakşn işlərinin yekunlaşdırılması üçün Hilal Baydarovun Meksika səfəri ilə bağlı bütün zəruri xərclər də ARKA tərəfindən qarşılanıb.

Dünyanın ən qədim və nüfuzlu kino tədbirlərindən biri olan Venesiya Film Festivalı Azərbaycan filmlərinin beynəlxalq miqyasda tanıdılması və yaradıcı mübadilənin genişlənməsi üçün mühüm platformadır.



**XQ-yə bu barədə eksklüziv açıqlama verən Mədəniyyət nazirinin müşaviri, yazıçı-jurnalist, Əməkdar incəsənət xadimi Orxan Fikrətoğlunun dedikləri:**

– İstedadlı rejissor Hilal Baydarovun bu ekran işi Azərbaycan kino tarixində Venesiyada dünya premyerası keçirilən nadir filmlərdən biridir. Poetik üslubda çəkilib və ciddi sənət filmi kateqoriyasına aiddir. Düşünürəm ki, "Boşluğa xütbə"nin Venesiyaya getməsi Azərbaycan kinosu üçün bir mərhələdir. Ümumiyyətlə, bizim milli kinomuz daha çox poetik təfəkkürün, yanaşmanın, zehniyyətin üzərində qurularsa, örnək kimi daha uğurlu olar. Məsələn, cənublu soydaş həmkarlarımızın çəkdikləri kinolar bu yönümlüdür. "Boşluğa xütbə" filmi fərqli Avropa dəyərləri, vizual estetikası, mədəniyyəti üzərindən Azərbaycan dastan yaradıcılığına aid bir filmdir. Ekran əsəri dirilik suyu axtaran bir poetik qəhrəman və insanın gəldiyi fəlsəfi qənaətlər haqqındadır.

*Ə.DOSTƏLİ*
*XQ*

# Şirvan toponimlərinin "dili" açılır

**Elm və Təhsil Nazirliyinin akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun əməkdaşları Şamaxı və İsmayıllı rayonlarında toponimka üzrə ekspedisiyada olublar.**



İnstitutun "Coğrafi fikir tarixi və toponimika" şöbəsinin böyük elmi işçisi Natiq Babayev bu barədə XQ-yə verdiyi açıqlamada bildirib:

– Azərbaycanın siyasi və iqtisadi coğrafiyası şöbəsinin böyük elmi işçisi Nicat İmamverdiyevlə reallaşdırdığımız ekspedisiyanın məqsədi adıçəkilən rayonlara aid olan coğrafi adların yayılma arealını müəyyənləşdirmək, onların müxtəlif mənbələrdə işlənilməsinin, aşkarlanıb üzə çıxarılmasının nominativ təsnifatını vermək, yaranma yollarının xarakterlərinə görə mənimsənilmə potensialını qiymətləndirmək və yeni coğrafi adları müəyyən etmək olub.

Ən qədim insanların məskən saldığı bu yaşayış yerlərində xalqımıza məxsus toponimlərin öyrənilməsi mühüm tarixi, siyasi, elmi və praktiki əhəmiyyət kəsb edir. Ekspedisiya zamanı Şərqi Zəngəzur iqtisadi rayonunda mövcud olan etnotoponimik coğrafi adlar sırasında Şamaxı rayonunun ərazisində də bir sıra paralellərin olduğu müəyyən edilib. Bu da, güman ki, zaman-zaman Şərqi Zəngəzurdan olan soydaşlarımızın məruz qaldıqları köç və deportasiyalarla əlaqədardır. Bu səbəb-nəticə amilini də elmi şəkildə araşdırmağı qərara almışıq.

*XQ*

Günün söhbəti

# Nəsimi dühası zaman və məkan ucalığında

**Anadilli klassik poeziyamızın dahi şairi İmadəddin Nəsiminin məzarının Azərbaycana gətirilməsi ədəbi-mədəni aləmdə aktuallıq qazanmış məsələdir. Şairin Hələbdə yaşayıb-yaratmasının, yüksək nüfuz sahibi sayılmasının və qəbrinin də burada olması 6 əsr əvvəl bu şəhərdə Azərbaycan türkcəsinin necə böyük bir mədəniyyəti təmsil etməsinin, bu dilin necə geniş ərazini əhatə etməsinin göstəricisidir.**



Nəsimi yaradıcılığı o zaman Azərbaycan türklərinin ərəb torpaqlarında irfan dilinə vüsətlə poetik dil statusu qazandırmalarının təkzib olunmayan sübutudur. Nəsiminin məzarının Hələbdə olmasını xalqımıza 1968-ci ilin noyabrında Suriyaya səfər etmiş Xalq şairi Rəsul Rza çatdırıb. O bildirib ki, Hələb şəhəri Azərbaycan şairinin məzarını 6 əsrdir ki, ehtiramla qoruyur. Məzarın yaxınlığından keçən küçə də Nəsiminin adını daşıyır.

Eyni tale Nəsimidən sonrakı əsrdə türkdilli poeziyanı zirvəyə qaldırmış Məhəmməd Füzulinin Kərbəladakı məzarının da tarixçəsinə yazılıb. Bu 2 məzarın qürbətdə olmasını Hüseyn Cavidin qəbrini aşkar edilib Vətənə köçürülməsi ilə müqayisə etmək düzgün olmazdı. Cavidi sovet avtoritar-kommunist sistemi ahıl yaşında Sibir buzlaqlarına sürgün etmiş və o, ağır məhrumiyyətlər içərisində dünyasını dəyişmişdi.

Ümummilli lider Heydər Əliyev elə həmin rejimin mövcud olduğu dönəmdə bu tarixi ədalətsizliyi aradan qaldırmış, böyük Cavidin adsız-ünvansız məzarını İrkutski həbs düşərgəsinin məzarlığından tapıb vətənə gətirtmişdi. Ulu öndərin bu təəssübkeşliyi, cəsarəti və alicənablığı o zaman bütün dünyada əks-səda vermişdi. Dünyaya göstərilmişdi ki, SSRİ burada yaşayan xalqların vahid vətəni deyil, Azərbaycan xalqının da öz doğma məmləkəti var.

Nəsiminin yaşadığı dövrdə isə ərəb torpaqlarında hakim qüvvə türklər olub. Səlcuqlu, Məmlüklü, Osmanlı kimi dövlətlər bu ərazinin sahibləri olmuşdu. Deyilənə görə, Hələbdə mütəfəkkir şairin nəslinin davamçıları indi də "Nəsimi baba" soyadı ilə yaşayırlar. 1968-ci ildə Rəsul Rzanı Nəsimi məzarının ziyarətinə, şairin yazdığına görə, "zahirən şirvanlıya bənzəyən Hikmət Nəsimi adlı bir nəfər" aparmışdı. Qəbir isə Nəsimilərin ailə məzarlığında qorunub saxlanır.

Nəsiminin heykəli Bakıda, əsərlərinin bəzi əlyazmaları İstanbulda, məzarı isə Hələbdədir. Nəsiminin ədəbi-irfani dünyası 6 əsrdir ki, hər 3 ünvanda vətənləşib. Nəsiminin ürəklərdə tutduğu əbədi, baqi məqama görə isə Azərbaycan xalqı həmişə ümummilli lider Heydər Əliyevə minnətdar olacaq.



Hələbdə Nəsimi türbəsi

Qeyd edək ki, ötən əsrin 70-ci illərində respublikamızda klassik mədəni irsimizin öyrənilməsi baxımından tamamilə yeni dövr başlamışdı. Həmin mərhələ bilavasitə xalqımızın milli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyevin, digər müstəsna, taleyüklü əməlləri ilə yanaşı, böyük Azərbaycan şairi İmadəddin Nəsiminin irsinin dərindən öyrənilməsi, xatirəsinin əbədiləşdirilməsi ilə bağlı gerçəkləşdirdiyi işlər şairin adını qəti şəkildə xalqımızın çoxəsrlik mədəni irs xəzinəsinə həkk elədi.

O vaxta qədər Nəsimi "Divan"ı yalnız bir dəfə, görkəmli ədəbiyyatşünas Salman Mümtazın tərtibatında1926-cı ildə ərəb əlifbası ilə çap olunmuşdu. 1972-ci ildə türkmən ədəbiyyatşünası Nəzər Qullayev həmin "Divan"ın dili üzərində müəyyən "türkmənləşmə" əməliyyatı apararaq yenidən çap etdirmiş, şairi türkmən ədəbiyyatının klassiki kimi təqdim etmişdi. Ancaq Heydər Əliyevin məsələyə obyektivlik gətirməsi ilə bu saxtalaşdırma baş tutmur. Ölkəmizdə Nəsimini Azərbaycan ədəbiyyatının dəyərli klassiki kimi tanıtmaq, təbliğ etmək yönündə davamlı tədbirlər planı start götürür. Respublika rəhbəri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 1973-cü ilin 13 sentyabrında İmadəddin Nəsiminin 600 illik yubileyi Bakıda xaricdən dəvət edilmiş elm-sənət adamlarının iştirakı ilə təntənəli şəkildə keçirildi.

Elə həmin il Həmid Araslının tərtibatı ilə Nəsiminin divanı çap olundu, yaradıcılığı geniş tədqiq edildi. Şairin yeni portreti yaradıldı. Media yubileyi geniş işıqlandırdı, çağdaş tarixin parlaq səhifəsinə çevirdı. Bütün ölkə Nəsimi təntənəsi yaşadı. Nəsiminin əsərləri xarici dillərə tərcümə edildi, haqqında xaricdə də müxtəlif yazılar çap olundu, UNESCO-nun"Kuryer" jurnalında şair haqqında yubiley məqaləsi dərc edildi.

Azərbaycan rəhbəri Heydər Əliyev Nəsiminin yubileyinin Moskvada da keçirilməsinə nail oldu. 1980-ci ilin fevral ayında Bakının mərkəzi parklarından birində Nəsiminin abidəsi qoyuldu və heykəlin açılış mərasimində Ulu öndər özü də iştirak etdi. Bütün bunlar sovet ideologiyası üçün o qədər dəyəri olmayan Nəsimi şəxsiyyəti və yaradıcılığı Azərbaycan xalqının tarixi-mədəni və milli-mənəvi irsində layiqli qiymət aldı.

Bu gün Nəsiminin məzarının Azərbaycana gətirilməsi məsələsinə gəlincə, əlbəttə ki, dövlətimizin başçısı hansı qərarı verirsə, biz onu dəstəkləyəcəyik. Məzar Azərbaycana gətirilsə, bu, xalqın öz böyük şairinə misilsiz bir istəklə daha əhatəli sahib çıxması baxımından önəmli hadisə olacaq.

Böyük Nəsimi, sanki, ədəbi uzaqgörənliklə bu anlamı poetikləşdirib: "Sındır qəfəsi, tazə gülüstan tələb eylə". Ruhunun laməkan, cahana sığmaz olacağını bəyan edən misralar da onundur: "Məndə sığar iki cahan, mən bu cahanə sığmazam!"

Böyük sənətkarların, dahi şəxsiyyətlərin amalı bəşəri olduğu kimi, ruhları da hər yerdə dolaşır. Onların ölməz və parlaq obrazı tarixin uzaq və yaxın dövrlərindən eyni ucalıqda görünür!

*Elnarə AKİMOVA,*
*Milli Məclisin deputatı,*
*filologiya elmləri doktoru*

# ABŞ Ukraynaya dəstəyi artıracaqmı?

(əvvəli 1-ci səhifədə)

Hazırda müzakirələrin əsas predmeti Avropa ölkələrinin hansı sayda hərbçi göndərə biləcəyi və bu addımın hansı şərtlərlə həyata keçiriləcəyidir. Avropa kontingentinin Ukraynada yerləşdirilməsi Moskvanın sərt etirazına səbəb olur. Rusiya dəfələrlə bildirib ki, belə bir addımı öz təhlükəsizliyinə təhdid sayır. XİN rəhbəri Sergey Lavrov isə yalnız 2022-ci ilin yazında İstanbulda müzakirə olunmuş, BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin



iştirakı ilə nəzərdə tutulan mexanizmlərə razılıq verdiklərini xatırladıb.

Digər tərəfdən, "Bloomberg"in məlumatına görə, artıq 10 dövlət Ukraynaya zəmanətlərin təmin olunması üçün hərbi bölmələr göndərməyə hazırdır. Avropa diplomatik dairələri ehtiyatlı nikbinlik nümayiş etdirərək, Vaşinqtonun əvvəlki administrasiyasının tərəddüdünün aradan qalxdığını düşünürlər.

Məsələ Transatlantik əlaqələr fonunda da mühüm əhəmiyyət daşıyır. Avropa uzun illərdir öz təhlükəsizlik arxitekturasında ABŞ-ın liderliyinə arxalanır. ABŞ-ın yeni yanaşması yalnız Ukraynanın müdafiəsinin gücləndirilməsi deyil, eyni zamanda, NATO daxilində yaranmış fikir ayrılıqlarının yumşaldılması və strateji birliyin bərpası kimi qiymətləndirilir. Bu, Vaşinqton və Avropa paytaxtları arasında koordinasiyanın gücləndirilməsinə xidmət edir.

ABŞ vitse-prezidenti Cey Di Vens də açıqlamalarında bu kursun əsas konturlarını təsdiqləyib. Onun sözlərinə görə, Donald Tramp administrasiyası Ukraynanın ərazi bütövlüyünün qorunması məsələsində prezident Vladimir Zelenski ilə "əsasən razıdır". Vens bildirib ki, Vaşinqton "Rusiyanın bütün Ukraynanı ələ keçirməsini istəmir" və münaqişənin davam etməsinin heç bir tərəfə üstünlük gətirmədiyini hesab edir. Onun vurğuladığı kimi, döyüşlərin sülh yolu ilə dayandırılması "hamı üçün daha yaxşı nəticə" olacaq.

Vitse-prezidentin sözlərinə görə, Alyaskada avqustun 15-də keçirilən danışıqlarda Moskva ilk dəfə olaraq "əhəmiyyətli güzəştlərə" getməyə hazır olduğunu nümayiş etdirib. "Reuters"in məlumatına əsasən, Rusiya nəzarətində saxladığı bəzi ərazilərin kiçik hissələrini Ukraynaya qaytarmağa, Zaporojye və Xerson istiqamətlərində hücum əməliyyatlarını dayandırmağa razılıq verə bilər. Bunun qarşılığında isə Moskva Ukrayna qoşunlarının Donbasdakı müəyyən bölgələrdən çıxarılmasını gözləyir.

Mövcud vəziyyət göstərir ki, Ukraynaya təhlükəsizlik zəmanətləri məsələsi yalnız müharibənin hərbi nəticələrinə deyil, həm də beynəlxalq münasibətlərin gələcək konturlarına təsir göstərəcək. Bu məsələ həm regionda qüvvələr balansını, həm də bütövlükdə Transatlantik alyansın siyasi dinamizmini müəyyənləşdirən əsas amillərdən birinə çevrilib. ABŞ-ın mövqeyindəki dəyişiklik Qərbin yekdil hərəkətinə yol aça, eyni zamanda, Rusiya ilə yeni qarşıdurma risklərini artıraraq Avropa təhlükəsizlik arxitekturasını yenidən formalaşdırmağa səbəb ola bilər.

*Səbuhi MƏMMƏDOV*
*XQ*

Xuntaçıların məhkəməsi

# Ermənistanın Azərbaycana qarşı təcavüzkar müharibəsi təsdiqlənir

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunları. nı və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası avqustun 28-də davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclası təqsirləndirilən şəxs Arkadi Qukasyanın cinayət işi üzrə ibtidai istintaqa verdiyi ifadələr və ona aid digər sənədlərin elan olunması ilə davam etdirilib.

Təqsirləndirilən şəxs Arkadi Qukasyan ibtidai istintaq zamanı bildirib ki, qondarma rejimin "prezidenti" kimi istənilən "vəzifəyə təyinat"la bağlı qərar qəbul etmək səlahiyyətinə malik olub. Yalnız "müdafiə naziri" vəzifəsinə "təyinat" və "vəzifədən azad etmə" Ermənistanın Müdafiə Nazirliyi və Ermənistan prezidenti ilə razılaşdırıldıqdan sonra baş tutub. Bölgəyə silah-sursatı yalnız Ermənistan Müdafiə Nazirliyi göndərib. Qondarma rejimin "müdafiə nazirliyi" Ermənistanın Müdafiə Nazirliyinin tərkib hissəsi kimi çıxış edib. Ermənistandan silah-sursat və digər bütün təminatlar Gorus-Laçın-Xankəndi, Vardenis-Kəlbəcər-Ağdərə-Xankəndi avtomobil yollarından istifadə edilməklə bölgəyə gətirilib.

Təqsirləndirilən şəxs Arayik Harutyunyanın ibtidai istintaqdakı ifadəsində bildirilib ki, I Qarabağ müharibəsində və ondan sonrakı dövrdə Azərbaycanın həmin vaxt işğal altında olan ərazilərində hərbi qüvvələr Ermənistandan gətirilərək yerləşdirilib. Aprel döyüşləri zamanı da Azərbaycan Silahlı Qüvvələrinə qarşı döyüşən Ermənistana tabe olan, oradan maliyyələşən hərbi birləşmələr olub. Silah-sursat, hərbi texnika və canlı qüvvə dəstəyi də həmişəki kimi Ermənistandan təmin edilib.

A.Harutyunyan 2020-ci ildə 44 günlük müharibə zamanı əsgərlərə ruh yüksəkliyi vermək üçün hərbi kazarmalara və döyüş yerlərinə getdiyini, lakin bütün hərbi əmrləri, göstərişləri Ermənistanın Müdafiə Nazirliyinin və baş qərargah rəisinin verdiyini deyib. Bildirib ki, həmin vaxt baş qərargah rəisi Onik Qosparyan olub və 44 günlük müharibə zamanı bütün rəhbər göstərişlər, əmrlər, tapşırıqlar onun tərəfindən verilib.

"Toçka-U", "Smerç", "Skad" və digər bu tipli raket kompleksləri qondarma rejimin "müdafiə ordusunun" hərbi arsenalında olmayıb. 44 günlük müharibə zamanı iki "Smerç" raket kompleksi Ermənistandan gətirilərək Əsgəranda yerləşdirilib. Raket kompleksini idarə edənlər və şəxsi heyət də Ermənistan hərbi qüvvələrinə aid olub və oradan gətirilib.

Tərtər və Bərdə rayonlarında, Gəncə və Mingəçevir şəhərlərində, Goranboy, Beyləqan və digər rayonların ərazilərində yerləşən, mülki əhalinin sıx məskunlaşdığı ərazilərə, mülki obyektlərə, müdafiə olunmayan ərazilərə, hətta Bakı şəhərinin də yerləşdiyi Abşeron yarımadası istiqamətində ballistik raketlərin atılmasına dair əmrlər Ermənistandan verilib.

A.Harutyunyan bildirib ki, 2020-ci il oktyabrın 4-də paylaşdığı "Mənim əmrimlə müdafiə ordusu bu gün Gəncə şəhərində yerləşən hərbi obyektləri məhv etmək üçün bir neçə raket zərbəsi endirib. İndidən mən dinc əhali arasında günahsız qurbanların olmaması üçün atəşkəs əmri vermişəm. Düşmən ondan nümunə götürmədiyi təqdirdə, düşmənin ordusunu parçalayaraq, sıradan çıxararaq bərabər və güclü zərbələr endirməkdə davam edəcəyik. Biz hərəkətlərimizdə sona qədər qərarlıyıq" kimi yazının mətni Ermənistan Respublikasının Müdafiə Nazirliyinin baş qərargah rəisi Onik Qasporyanın təklifi ilə hazırlanıb. O, baş verən proseslərə artıq heç bir təsir imkanının qalmadığını gördüyü üçün 2023-cü il avqustun 31-də "istefa verərək" "prezidentlikdən" imtina edib.

Məhkəmə iclası təqsirləndirilən şəxs Arayik Harutyunyanın mətbuatda və sosial şəbəkələrdə paylaşdığı məlumatlar və ifadələrinin elanı ilə davam edib, fotogörüntülər təqdim olunub.

Sonra məhkəmə iclasında təqsirləndirilən şəxs Bako Sahakyanın ibtidai istintaqa verdiyi ifadəsi elan olunub. Qeyd olunub ki, 1988-ci ildən "Azadlıq hərəkatı"nın öncüllərindən biri kimi tanınıb, 1990-cı ildə "özünümüdafiə qüvvələri"nə qoşulub, 1992-1993-cü illərdə qondarma rejimin "özünümüdafiə komitəsi"nin komandir müavini, 1993-1995-ci illərdə qondarma rejimin "müdafiə ordusu"nun "arxa qərargahının komandiri", 1995-1996-cı illərdə "müdafiə ordusu komandirinin xarici əlaqələr üzrə müavini", 1996-1997-ci illərdə 10-cu dağlıq piyada diviziyası komandirinin müavini, 1997-1999-cu illərdə Ermənistan Respublikasının daxili işlər və milli təhlükəsizlik nazirinin köməkçisi, 1999-2001-ci illərdə qondarma rejimin "daxili işlər naziri", 2001-2007-ci illərdə "milli təhlükəsizlik xidmətinin direktoru" vəzifələrində çalışıb. 2007-2020-ci illərdə qondarma rejimin "prezidenti" olub, həmçinin "dövlət naziri vəzifəsi"ni icra edib.

B.Sahakyan ifadəsində qeyd edib ki, Birinci Qarabağ müharibəsi zamanı aparılan bütün hərbi əməliyyatlara "özünümüdafiə qüvvələri komitəsinin", daha sonra "müdafiə ordusunun sədri" olan Serj Sarkisyan, Ermənistanın müdafiə nazirləri olmuş Vazgen Sarkisyan və Vazgen Manukyan rəhbərlik ediblər. Həmin dövrdə ümumi rəhbərliyi isə "Dövlət Müdafiə Komitəsi"nin sədri olmuş Robert Köçəryan və Ermənistanın o zamankı prezidenti Levon Ter-Petrosyan edib.

Məhkəmə prosesi avqustun 29-da davam etdiriləcək.

*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 182 (30876) 29 avqust 2025-ci il, cümə

## İDMAN

# 2 cüdoçumuz Dünya 3-cüsü oldu




**Bolqarıstanın paytaxtı Sofiyada keçirilən cüdo üzrə yeniyetmələr arasında dünya çempionatının ilk yarış günündə milli komandamızın bir üzvü fəxri kürsüyə qalxıb.**

50 kq çəki dərəcəsində mübarizə aparan Anar Quliyev ilk görüşdə Ermənistan cüdoçusu Narek Davtyana ipponla qalib gələrək 1/4 finala vəsiqə qazanıb. Bu mərhələdə Arman Mıssaya (Qazaxıstan) məğlub olan cüdoçumuz təsəlliverici görüşdə Omer Mor Barakdan (İsrail) güclü olub. Avropa çempionumuz üçüncü yer uğrunda qarşılaşmada yerli idmançı Tsvetelin Martinovu məğlub edərək bürünc medala yiyələnib.

Dünən daha bir cüdoçumuz Zeyd Ələsgərov (60 kq) da Anar Quliyevin nəticələrini təkrar edərək dünya üçüncüsü olub. O bürünc medal uğrunda mübarizədə Yaponiya təmsilçisi Toai Haşimaya ipponla qalib gəlib.

# "Araz-Naxçıvan"ın 2-ci qələbəsi



**Futzal üzrə UEFA Çempionlar Liqasının ilkin mərhələsində "Araz-Naxçıvan" dünən ikinci oyununu keçirib. Azərbaycan təmsilçisi bu dəfə Şotlandiya çempionu "PYF Saltires"lə qarşılaşıb. Oyun həmyerlilərimizin xeyrinə başa çatıb–7:2.**

Qeyd edək ki, "Araz-Naxçıvan" bir gün əvvəl keçirdiyi ilk matçda da "Sparta Belfast"a böyük hesabla qalib gəlib – 9:1.

Sabah futzalçılarımız Avstriya çempionu "Ljuti Krajişniçi" klubu ilə qarşılaşacaq.

# "Qarabağ"ın rəqibləri kimlərdir?




**Dünən Monakoda UEFA Çempionlar Liqasının əsas mərhələsinin püşkatma mərasimi keçirilib. Tədbirdən öncə əsas mərhələdə iştirak edəcək 36 komanda 4 səbətə bölünüb. IV səbətdə yer alan Azərbaycan təmsilçisi "Qarabağ" püşkatmanın nəticələrinə əsasən "Liverpul" (İngiltərə), "Benfika" (Portuqaliya), "Napoli" (İtaliya) və "Atletik"lə (İspaniya) səfərdə, "Çelsi" (İngiltərə), "Ayntraxt" (Almaniya), "Ayaks" (Niderland), və "Kopenhagen"lə (Danimarka) evdə qarşılaşacaq.**

UEFA Çempionlar Liqasının Liqa mərhələsinin ilk turunun oyunları sentyabrın 16-18-də keçiriləcək. Son turun görüşləri 2026-cı il yanvarın 28-də baş tutacaq.

Pley-off mərhələsinə fevralın 17-18-də start veriləcək. UEFA Çempionlar Liqasında 2025/2026 mövsümünün qalibi mayın 30-da Macarıstanın paytaxtı Budapeştdə baş tutacaq final oyununda bəlli olacaq.

*Qabil YUSİFOĞLU*
*XQ*

## İnsanlar və talelər

# "Saçaqlı konfet"



**Ağgünlü kəndinin adamları öz elinin alimini, şairini o qədər tanımırdı və onlarla elə də fəxr eləmirdi. Amma kəndin ən nəcib, ən fağır, ən yazıq, ən kasıb, bir azca da havalı adamı olan Nurələmi yeddidən-yetmişə hamı tanıyırdı. Bütün kənd camaatı onu el-oba üçün bir qənimət bilirdi. Hamı onu min bir qayğıyla əzizləyərək hörmətli tuturdu.**

Ağgünlü kəndində mindən çox ev vardı. O evlərin hamısı Nurələm üçün doğma idi. Nurələm hər evin doqqaz qapısını öz evinin qapısı kimi açıb həyətə daxil olmaq səlahiyyətinə malik idi. Bu məsələdə onun "diplomatik toxunulmazlığı" vardı.

Kəndimiz haqqında düşünəndə ilk göz önünə gələn, ilk yada düşən Nurələm olurdu. Mən onu uşaqlıq illərindən tanıyırdım. O, Ağgünlü kəndində nümunəvi bir ailənin uşağı idi. Ata-anası avtomobil qəzasında həlak olmuşdu. Onlar rəhmətə getdikdən sonra Nurələm dörd divarın arasında, bir damın altında tək-tənha yaşayırdı. Hər gün səhər tezdən evdən çıxar, kəndin ayağından başına gəzib dolanar, (həm də kəndin başına dolanar), gecədən xeyli keçəndən sonra öz ata evinə yatmağa gedərdi. Atadan, anadan yetim qalandan sonra Nurələm biraz havalanan kimi olmuşdu.

Təkləndikdən sonra Nurələm meylini kəndin adamlarına salmışdı. Sözündən-söhbətindən hiss etmək olurdu ki, sinəsində həssas bir ürək döyünür. Üzgörənlik etmək, adamlardan istifadə etmək heç vaxt Nurələmin məqsəd və istəyi olmamışdı. Hamı ona əl tuturdu. Hər kəsin qulpundan nə çıxırdı, onu da verirdi Nurələmə.

Nurələmin özünün vardan-dövlətdən bir alagöz inəyi vardı. Səhər tezdən inəyin başına çatı salıb, kəndin ayağındakı arxın qırağına aparırdı. Orada uzun bir sicimlə otlaqdakı dirəyə hörükləyərdi. Arada gedib inəyin hörüyünü dəyişərdi. Sonra da kəndin ayağından başına o qapı sənin, bu qapı mənim deyib ev-ev gəzirdi. Kəndin ayağının xəbərini başına, başının xəbərini ayağına daşıyırdı. Kimin evində nə iş olsaydı, ev yiyəsindən sonra ilk xəbər tutan Nurələm olurdu.

Kəndin xeyir-şər işlərinin yaraşığı idi Nurələm. Məclis başa çatdıqdan sonra hamı öz evinə dağılışardı. Hamı gedəndən sonra bir qayda olaraq, Nurələmə ətdən, aşdan pay verərdilər. O da verilən pay-püşü alqış edə-edə götürüb aparardı. Həmin azuqələrlə Nurələm növbəti məclislərədək yeyib gün-güzəranını sürürdü.

Günlərin birində kəndə xəbər yayıldı ki, Nurələm zəngin bir ailənin qızına bulaq başında eşq elan eləyib. Bu xəbərdən kənddə adamlar bir-birinə dəydi. Onun xoş xəbəri kənddə hamının sevincinə səbəb oldu. Həm də təəssüf hissi ilə deyirdilər ki, bu, baş tutan iş deyil. Kimdi Nurələmə qız verən?! Zəngin ailənin qızı Nurələmi bəyənib ona ərə gedərmi? Üstəlik də qızın atası əzazil adam idi.

Amma eşqə düşən Nurələmin geyimi-keçimi biraz dəyişmişdi. Adamların diqqətini özünə çəkirdi. Daha əvvəlki kimi üzü tüklü gəzmirdi. Əyin-başı əvvəlki kimi elə də pinti deyildi. Saçlarını yan darayırdı. Ona görə də "dambat" görünürdü. Guya daha əvvəlki kimi boş-bekar gəzib yolları ölçmürdü. Soruşan olanda hara gedirsən? Şeirlə cavab verirdi:

**Papağımı yan qoymuşam,**
**İçinə biyan qoymuşam,**
**Gözəl-göyçək qızların**
**Ürəyinə qan qoymuşam...**

Nurələm məktəb üzü görməmişdi. Əlinə kitab-dəftər almamışdı. Yazıb-oxumaq bilmirdi. Ona görə də dilinin ucuna nə gəlsə, sinə dəftərindən gəlirdi. Onun hər şirin sözü özünün dərdinə məlhəm idi. Eşqi, məhəbbəti baldadan bir duyğu idi. Fikri, düşüncəsi saf sular kimi duru idi. O, sevda çeşməsinin saf ülfətli suyundan içmişdi. Zəngin ailənin qızı Zərqələmin eşqindən odsuz-alovsuz alışıb yanırdı. Onu ilk dəfə bulaq başında görən gündən ölən günədək sevdi. Amma o platonik sevgisindən yarımadı. Zərqələmi başqasına ərə verdilər. O, hətta Zərqələmin toyunda qara zurnanın səsinə uzaqdan-uzağa oynayıb oxuyurdu:

**Zalım qızı Zərqələm,**
**Dədən qoymaz mən gələm,**
**Adresini bilmərəm**
**Qalet-qampet göndərəm.**

Nurələm konfetə "qampet" deyirdi. Onun dilində "qampet" daha şirin səslənirdi. Biz uşaq olanda nanəli Qazax konfeti və uzun saçaqlı konfet ən çox sevdiyimiz şirniyyatlar idi. Nurələm də Zərqələmin uzun saçlarını, qara qaşlarını, gül üzünü saçaqlı konfetə bənzədirdi. Bir dəfə dedim:

– Ay Nurələm, Zərqələm zəngin ailənin qızıdır. Dədəsinin varına-dövlətinə aşiq olubsan?

– Ayə, var-dövlət istəmirəm. Qızını mənə versin, bəsimdir. Zərqələm qampet kimi qızdır. Bə nətəhər aşıq olmuyum?! Zalımın balası elə bil, "Saçaxlı qampet"dir.

... Nurələmin öz səsi, öz avazı, öz yazı, öz payızı vardı. Sanki sirlər dünyasında yaşayırdı. Sinəsi sözlə, bayatıyla doluydu. Onun sinəsindən qopub gələn hər nəğmə bir şikəstə idi. Xoş səsi, nəğməsi dilsiz quşların nəğməsinə bənzəyirdi. O, bulaqların səsində, bülbülün qəfəsində təkliyin dərdini duya-duya oxuyurdu. Ürək yanğısı ilə oxuduğu nəğmələr insanın qəlbini tərpədir, dinləyənlərin hisslərini sarırdı, insanı başqa aləmə aparırdı.

Zərqələmdən əbədi ayrılandan sonra oxuduğu nəğmələr son vidanın qəm səsiydi. Gözünü yumanda Zərqələmin əksi gözündə qalırdı. Onu hey çağırır, çağırırdı... Yaddaşının cığırlarına düşüb ilk sevdasını soraqlayırdı.

Nurələmdən Zərqələmin ömründə bircə nişanə qaldı. Nurələm sevdiyi qızın adına elə bir möhür vurmuşdu ki, daha onu Zərqələm yox, hamı "Saçaqlı konfet " deyə çağırırdı. "Saçaqlı konfet "in həyatı da bir qəmli, həzin elegiyaya döndü. O, doğuş zamanı rəhmətə getdi. Həkimlər "Saçaqlı konfet "in həyatını xilas edə bilmədi.

Taleyin hökmü öz işini gördü. Atadan-anadan yetim qalan Nurələm sevgidən, məhəbbətdən də yetim qaldı. Ürəyinə vurulan yaralar könlündə ömürlük sızlayan duyğuya döndü. O duyğu, bir ömrün qəm yorğunluğunu dilə gətirib insanların ruhunu göynədirdi. Məşhur bir türküdə deyildiyi kimi:

**Çarəsiz dərdimə dərman bulmadım,**
**Səndən sonra bir gün mutlu olmadım...**

*Həzi HƏSƏNLİ,*
*şair-publisist*

# Süni intellekt "heyvanların dilini" anlayır

**İnsanın heyvanların davranışını anlamaq imkanları məhduddur. Məsələn, pişiyin pıçıltısı və ya itin hürməsi müəyyən siqnallar versə də, onların həqiqi emosiyalarını dəqiq başa düşmək çətindir. Lakin milanlı alimlər bu problemi texnologiyanın köməyi ilə həll etməyə çalışıblar. Onların yaratdığı süni intellekt modeli donuzdan inəyə qədər yeddi müxtəlif dırnaqlı növün səs siqnallarını təhlil edərək, emosional vəziyyəti müəyyənləşdirə bilir. Araşdırma "Scientific Reports" jurnalında dərc olunub.**




Tədqiqat göstərib ki, mənfi emosiyalar əsasən orta və yüksək tezlikli diapazonlarda ifadə olunur, müsbət siqnallar isə daha bərabər paylanır. Maraqlıdır ki, müxtəlif heyvan növləri üçün "emosiya açarı" dəyişir: donuzlarda yüksək tezliklər, qoyun və atlarda isə orta diapazon həlledici rol oynayır. Alim Stavros Ntalampirasın sözlərinə görə, hazırlanan alqoritm insan qulağının seçə bilmədiyi ən incə akustik xüsusiyyətləri müəyyən edir və bu, heyvanların sağlamlığı ilə rifahını izləmək üçün yeni imkanlar açır.

Yeni texnologiyanın tətbiq sahələri genişdir: fermerlər stres keçirən heyvanlarla bağlı erkən xəbərdarlıq alacaq, zooloqlar və ekoloqlar vəhşi təbiətdə populyasiyaların vəziyyətini izləyəcək, zoopark işçiləri isə heyvanların davranışındakı dəyişiklikləri vaxtında müəyyən edərək tədbir görə biləcəklər. Lakin bu texnologiya həm də etik suallar doğurur: əgər süni intellekt heyvanın əzab çəkdiyini aşkar edirsə, insanlar mütləq müdaxilə etməlidirmi?

Bənzər araşdırmalar dünyanın başqa ölkələrində də aparılır. ABŞ-da Ceti layihəsi çərçivəsində alimlər kaşalotların klikvari siqnallarını öyrənərək onların "dilində" sosial kodları müəyyən etməyə çalışırlar. Digər layihələrdə itlərin mimikası, hürməsi və quyruq hərəkətləri süni intellekt vasitəsilə emosiya ilə əlaqələndirilir, bəzi hallarda isə bu sistem sahibində epileptik tutma əlamətlərini vaxtında aşkar etməyə kömək edir. Arılar üzərində aparılan tədqiqatlarda alqoritmlər "arı rəqslərini" uğurla deşifrə edib, qida mənbəyinə aparan istiqaməti müəyyənləşdirirlər.

Alimlər vurğulayırlar ki, məqsəd "heyvan dilini insan dilinə tərcümə etmək" deyil, davranış və emosional reaksiyaların qanunauyğunluqlarını öyrənməkdir. Davranışın yalnız "yaxşı–pis" kimi ikili kateqoriyalara endirilməsi yanlış nəticələr verə bilər. Daha etibarlı modellər üçün səs məlumatları vizual və fizioloji göstəricilərlə – bədən duruşu, üz ifadəsi, ürək döyüntüsünün tezliyi ilə birləşdirilməlidir. "Əsas məsələ heyvanları nə qədər dəqiq dinləməyimizdə deyil, əldə edilən bu məlumatdan necə istifadə edəcəyimizdədir", – deyə alimlər bildirirlər.

*Hazırladı:*
*M.SƏBUHİ*
*XQ*

## Hava

# Bakıda və rayonlarda yağmursuz bir gün

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin, əsasən yağmursuz keçəcəyi gözlənilir. Arabir güclənən şimal-qərb küləyi gündüz mülayimləşəcək. Havanın temperaturu gecə 20-24, gündüz 29-33 dərəcə isti olacaq. Atmosfer təzyiqi 762 millimetr civə sütunu, nisbi rütubət isə gecə 60-70, gündüz 35-40 faiz təşkil edəcək.**

Abşeron çimərliklərində arabir güclənən şimal-qərb küləyi gündüz mülayimləşəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zağulba) 25-26, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) 26-27 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında havanın, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25, gündüz 34-39, dağlarda gecə 10-15, gündüz 20-25 dərəcə isti olacağı gözlənilir.

*Q.ƏLİYEV*
*XQ*


# "Finex Kredit" BOKT ASC səhmdarlarının nəzərinə!

2 oktyabr 2025-ci il saat 11:00-da Bakı şəhəri, S.Rüstəm küçəsi, 11 nömrəli ünvanda "Finex Kredit" BOKT ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Nizamnamə kapitalının artırılması
2. Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələlərlə bağlı sənədlərlə hər həftənin çərşənbə axşamı günləri saat 12:00-dək tanış ola bilərlər.

Əlaqə telefonu – (+994 12) 440-56-15.
E-mail – info@finexkredit.az
Ünvan – Bakı şəhəri, S.Rüstəm küçəsi 11.


## ALLAH RƏHMƏT ELƏSİN

BDU-nun mexanika-riyaziyyat fakültəsinin dekanlığı və kollektivi diferensial və inteqral tənliklər kafedrasının müdiri Yaşar Mehrəliyevə qardaşı

**OKTAY MEHRƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3601
SİFARİŞ 1733
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00